Zaur:

– Altıncıya, – dedi – başımı verərəm ki, səhv etmirəm, öz gözlərimlə görmüşdüm 6 rəqəmini... Amma bina da beşmərtəbəlidir axı...

Məmməd Nəsirin yaşı həştadı çoxdan keçmişdi, amma hələ də gümrah idi və allahın var günü səhər tezdən bir-iki stəkan "Ağdam" portveyni vurardı bədənə. Doğrudur, indi əvvəlkindən çox-çox az içərdi, amma ovvəlki təkin mütəmadiyən hər gün içərdi... Axır vaxtlar tez-tez Zaurla içərdilər – illər keçdikcə onların yaş fərqləri itib getmişdi və indi kənardan baxan elə güman edərdi ki, iki qoca şorab içə-içə ötən günləri, keçmiş xatirələri yada salır, nəşriyyatda birgə keçmiş uzun ömürlərindən söhbət edirlər...

Zaur bir də təkrar etdi:

– Bina axı beşmərtəbəli idi...

Məmməd Nəsir uzun müddət harasa baxdı, gözləri yol çəkdi, elə bil baxışlarıyla divarı deşib harasa çox-çox uzaqlara baxırdı, sonra qəfildən belə bir kəlam bəyan etdi:

– Əgər adamlar başa düşsəydilər ki, beşmərtəbəli binanın altıncı mərtəbəsi də ola bilər, onda nə vardı ki...

1974-1978
Bakı-Moskva-Göyçay



BİRİNCİ NAĞIL

O vaxt döyüşə-döyüşə iki qoç gələcək: Biri ağ, biri qara. Ağ qoç qara qoçu qovacaq, Onda atıl min ağ qoçun belinə. Ağ qoçun belinə minən kimi işıqlı dünyaya çıxacaqsan. Qara qoça minsən, qaranlıq dünyaya düşəcəksən.

Məlikməmmədin nağılı

Məlik Məmmədli Dövlət himninin sədalarına oyandı. Daha doğrusu hələ tam oyanmamışdı: yarıyuxulu halda eşidirdi bu səsləri. Qəribədir, hər gecə yuxuya getməmişdən bilgisayarın Vaxt xidmətini sübh obaşdandan himnin səslənəcəyi saata ayarlayırdı və hər səhər də onu himnin sədaları oyadırdı, amma bu gün oyanıb durmamışdan, hələ yuxudaykən görünməmiş bir fərəh hissinə qapılmışdı. Hər gün eşitdiyi səslər nədən bu gün bu qədər xoş bir ovqat oyadırdı? Elə yuxudaykən də Məlik bunun səbəbini tapdı. Bu gün Novruz bayramı idi, redaksiyada da, şəhərdə də, ümumən bütün ölkədə də bu günü hamı kimi o da böyük ruh yüksəkliyilə, sevinc, qürur, arxayınlıq duyğularıyla yaşayacaqdı. Elə yuxudaca – naşükür olma – deyə düşündü – məgər hamı kimi o da, bütün bu son illərin hər gününü, gündüzünü – gecəsini eyni bəxtiyarlıq hissiylə yaşamırmı?

Nə isə, durmaq vaxtı idi. Məlik ani bir sıçrayışla yatağından qalxdı. Artıq vərdiş halını almış bir duruşla Himni sonacan ayaq üstə dinlədi.

Məlik bilirdi ki, bu an milli tele radio kanallarının on ikisində də səslənən bu himni Dərbənddən Həmədanacan, Qazaxdan Qəzvinəcən milyonlarla insan eyni fərəh və qürur hissəlriylə dinləyir.

Məlik, əlbəttə, bilgisayarının dalğasını çalışdığı Radio-TV kanalının dalğalarına yönəltmişdi. Üç ildən bəri şərhçi və müəllif – rejissor kimi işlədiyi Çağdaş Radio-TV kanalı fəaliyyətində ağırlığı mədəniyyət məsələlərinə verirdi. Başqa Radio-TV kanalları da nə qədər universallığa riayət etsələr də hər halda müəyyən sahələrə, müəyyən yönlərə daha artıq meyil edirdilər. Əlbəttə, yeganə rəsmi dövlət kanalı

AZRT Azərbaycan və dünya həyatını bütün dolğunluğuyla əks etdirməyə çalışırdı. Amma digər – özəl kanalların müəyyən istiqamətləri və deməli öz tamaşaçı kontingenti vardı.

Türk dünyası – "Turan"ın, Bakı şəhər və vilayətinin həyatı "Xəzər" və "Abşeron"un başlıca mövzuları idi. "Araz" əsas verilişlərini Güney Azərbaycana həsr edirdi. Gənclərin və yeniyetmələrin ən çox sevdikləri "Ulduz" musiqi, idman və əyləncə proqramları göstərirdi. "Hilal"da verilişlər əsasən dini məsələlərə həsr olunurdu - İslam tarixi, müqəddəs Quranın şərhi, peyğəmbərlərin, imamların, övliyaların ömürləri...

"Novruz"da etnoqrafik, folklor mövzuları, mədəni irsə, qədim adət-ənənələrə aid verilişlər üstünlük təşkil edirdi, "Birlik" xarici dillərdə və ölkədəki milli azlıqların dilində proqramlar verirdi. "Savalan" R-TV Təbrizdən, "Kəpəz" R-TV Gəncədən efirə çıxırdı.

Ölkənin ən peşəkar telejurnalisti və telerejissoru kimi tanınan Məlik Məmmədlini bütün kanallar israrla dəvət edirdilər, amma Çağdaş TV-də tamaşaçılarını məmləkətinin və xarici ölkələrin mədəniyyət həyatıyla, dünyanın ədəbi, sənət sərvətləriylə tanış etməyi son illərdə ömrünün məramı seçmişdi.

Ölkədə fəaliyyət göstərən siyasi partiyalardan dəfələrlə dəvətlər alsa da, heç birinə müsbət cavab vermir, ümumiyyətlə siyasətə qoşulmurdu. Məlik qəti inanırdı ki, Azərbaycanın tarixi ərazi bütövlüyü bərpa olunandan bəri, ölkənin demək olar ki, bütün sosial, iqtisadi və ideoloji problemləri əsasən həllini tapandan sonra siyasətçilik – müəyyən dərəcədə xoş bir məşğuliyyətdir: məsələn, idmançılıq kimi, poçt markaları yaxud kəpənək kolleksiyası toplamaq kimi.

Doğrudan da bir vaxtlar sahibkarlıq fəaliyyəti məhdudlaşdırılarkən, milli dəyərlərə yetərincə diqqət verilməyərkən sağ partiyaların elektoratı çoxduysa, korrupsiya hökm sürərkən, bəzilərinin həddən artıq varlandıqları, bəzilərinin dilənçi kökündə yaşadığı vaxtlarda sol partiyaların təbliğatı güclüydüsə, indi bu problemlər birdəfəlik aradan qalxmış, seçicilərin çoxu sağ və sol partiyalara yalnız ənənəvi vərdiş kimi, valideynlərindən qalma bir rəğbət tövsiyəsi kimi səs verirdilər.

Milli Məclisdə beş partiya təmsil olunmuşdu – iki, əski təbirlə deyilərsə sağyönlü, iki solyönlü və bir mərkəzçi partiya. Milli və türkçülük dəyərlərini önə çəkən və bazar iqtisadiyyatının ardıcıl tərəfdarı olan iki sağ partiya, sosial bərabərliyin carçısı kimi çıxış edən,

əsasən işçi sinfinə arxalanan iki sol partiya və hər iki tərəfin müəyyən dəyərlərini qəbul edən, əsasən barışçı mövqedə dayanan mötədil mərkəzçi partiya. İndi iqtidarda olan da mərkəzçi partiyayla bitərəf, müstəqil millət vəkillərinin ortaq koalisiya hökuməti idi.

Məlik başını buladı – bu bol günəşli xoş gündə siyasi məsələləri xatırlamağa dəyərdimi? Yeni dəniz neft və qaz yataqları açılandan bəri, Bakı-Ceyhan xəttiylə bərabər şimaldan və cənubdan daha iki boru işə düşdüyündən və sabit gəlir gətirdiyindən əhalinin orta əmək haqqı ayda min dollar olan bir ölkənin vətəndaşlarını siyasi olaylar indi çox az maraqlandırırdı.

İndi Azərbaycan əhalisinin rifah səviyyəsinə görə ərəb əmirliklərini arxada buraxmış, iqtisadi və mədəni inkişafı etibarilə ən qabaqcıl Avropa ölkələrinə çatmışdı. Son iki ildə səhiyyə xidməti, orta və ali təhsil, çörək, kommunal xidmətlər (mənzil, elektrik, qaz, su haqqı), şəhər nəqliyyatı (taksidən başqa) pulsuz olmuşdu.

Uzaq illərin qanlı Qarabağ hadisələri, ölkənin o vaxtkı ağır iqtisadi durumu indi yalnız xatirələr aləmində qalmışdı. Qarabağ demişkən, Məliyin yadına dünən oğlunun Şuşadan telefon etməsi düşdü.

Məliyin oğlu Beyrək nəqliyyat mühəndisi, qızı Burla ədəbiyyat müəllimi, arvadı Aypəri teatr rəssamı idi. Nə yazıq, təsadüf elə gətirdi ki, bu Novruzda heç biri Bakıda deyil, Beyrək Şuşada, Aypəri Təbrizdə, Burla Kərkükdə idi.

Beyrək Şuşada Cıdır düzündən Topxana meşəsinə çəkilən funikulyorun qurulmasına rəhbərlik edirdi. Dünən Məlik telefonla inşaatın nə yerdə olduğunu soruşduqda Beyrək Cıdır düzü tərəfdən Kirsdən Qırx pilləkana qədər, Topxana tərəfdən İbrahim xanın sığnağına qədər hazırdır – dedi, indi iki tərəfi birləşdirmək qalıb, o da bir aya bitər. Sağ olsun mingəçevirlilər, elə yaraşıqlı vaqoncuqlar istehsal ediblər ki, iki göz istəyir tamaşasına. Odur ki, yayda İsa bulağı dincərliyinə gələndə Qarqarın üstündən funikulyorla keçəcəksiniz.

Beyrək fantazyor idi, bir neçə il bundan əvvəl bu funikulyor ideyası başına gələndə heç kəs bunu ciddi qəbul eləmədi, amma budur bax, olundu ki... indi də Qırxqız yaylaqlarına – teleferiq – kanat yolu fikrinə düşüb. Niyə də olmasın. Son illər Şuşa, doğrudan da, Qafqazın ən böyük turist mərkəzlərindən birinə çevrilib. Səfalı iqlimi, şəfalı bulaqları, qışda xizək idmanı, ov, alpinizm, tarixi abidələr – dünyanın hər

yerindən bura turistləri cəlb edir. Cıdır düzündə, Ərimgəldidə, Topxanada, İsa bulağı meşəsində, Səkili bulağın yanında ucaldılmış beşulduzlu və nisbətən kiçik, xudmani otellər türist tələbatını çətinliklə ödəyir, gərək neçə ay əvvəldən yer rezervasiyası edilsin.

Hər ilin payızında keçirilən Üzeyir Hacıbəyli musiqi festivalları zamanı isə nəinki Şuşada, Laçın, Ağdam, Xocalı, Qarabulaq, Ağdərə, Xankəndi otellərində də yer tapmaq müşkül olur.

Beyrək funikulyordan daha çox dünən Şuşada keçirilən axır çərşənbədən danışdı. İlk dəfə idi ki, axır çərşənbəni Şuşada qarşılamışdı və Cıdır düzündəki Qarabağ qaçağanlarının yarışından, Çovqan oyunundan, içinə üzərrik atılan və ta geco səhərə qədər yanan, üstündən uşaqların belədən belə atıldığı tonqallardan, Qarabağın hər tərəfindən görünən atəşfəşanlıqdan, xanəndələrin zili bütün ətraflara yayılan səsindən, səkkiz-on yaşlı uşaqların – Qarabağ bülbüllərinin Qarabag şikəstəsindən və yaşlı xanəndələrin hamısına qalib gəlib "Xarı – bülbül" mükafatı almalarından elə şövqlə danışırdı ki, Məlik özünün də iki dəfə Şuşada keçirdiyi bu bayramı sanki yenə öz gözləriylə görürdü.

Beyrək: – Bilirsən – deyirdi, Nəvvab muğam konservatoriyasının professorları sevinclərindən yerə-göyə sığmırdılar.

Məlik əl-üzünü yuyub, üzünü qırxıb yüngülvarı idman edəndən sonra bilgisayarında əvvəlcə elektron poçtasına baxdı.

Türkiyədən, İrandan, Rusiyadan, Gürcüstandan, Avropadan tanış jurnalist işdaşlarından xeyli təbrik ismarışları gəlmişdi. Hamısına gözucu nəzər salıb Kərkükdən gələn məktubu oxumağa başladı, qızı Burladan idi. Burla iki il idi, Kərkükdə Füzuli Universitetində Azərbaycan ədəbiyyatı və dilindən dərs deyirdi:

"Mənim əzizlərim, ata, ana, Beyrək. Hamınızın Novruz bayramını təbrik edirəm. Hamınıza bu xoş gündə möhkəm cansağlığı arzu edirəm. Söz vermişdim ki, bu il Novruzu Bakıda birlikdə keçirəcəyik, nə yazıq ki, mümkün olmadı, sabah Urumçuya uçuram, Mahmud Qaşqarlı Universitetinə dəvət ediblər. Oradan Moskvaya, Moskvadan da Bağçasaraya uçacam. Qaspralı İsmayıl Universitetində mühazirələrim var".

Məlik: Zalımın qızı dünyanın bu başından vurub o başından çıxır: o universitet sənin, bu universitet mənim – deyə düşündü və məktubun ardını oxudu.

Builki Novruz tətillərindən istifadə edib Bakıya gələ bilmədiyimə çox üzüldüm. Sizinçün burnumun ucu göynəyir. Axı nə qədər bir-

birimizi ekranda görə, bilgisayarla yazışa bilərik? Onu bilin ki, həmişə qəlbimdəsiniz. Sizi bərk-bərk öpürəm – Burla.

Məlik təəssüflə düşündü ki, nə iyirmi yeddi yaşlı Beyrək, nə iyirmi beş yaşlı Burla hələ ailə qurmayıb, valideynlərindən babalıq – nənəlik sevincini əsirgəyiblər. Bilgisayarda bugünkü günlüklərin (qəzetlərin) mədəniyyət səhifələrinə ötəri nəzər saldı, bəlkə proqramında istifadə ediləsi xəbərlər var.

"Yeni gün" qəzeti may ayında Nabranda Xəzər – Qara dəniz uluslararası sinema festivalı haqqında məlumat verirdi. Bəli da, bu festivalları, ədəbiyyat, şeir günlərini, mədəniyyət həftələrini, musiqi konkurslarını, teatr yarışlarını işıqlandırımağı çatdıra bilmirik, biri də burdan çıxdı. Nə qədər tədbir, bayram olar: Qobustanda üç ildən bir Dədə Qorqud törənləri, Muğanda iki ildən bir Koroğlu idman oyunları, Gəncədə Nizami günləri, Naxçıvanda, Əshabi-Kəf din mərkəzində "Qafqazda İslam" mövzusunda beynəlxalq elmi məşvərət, Dərbənddə Narınqala açıq səma teatrında tarixi tamaşalar festivalı, Şamaxıda Sabir günləri, Qazaxda Molla Pənah Vaqif və Səməd Vurğun günləri, Şuşada Vaqif, Natəvan və Cabbar Qaryağdıoğlü şeir, musiqi məclisləri, Qəbələdə Yunis İmrə şöləni, Şəkidə gülüş şənlikləri, Lənkəranda Rəqs yarışı, Mərdəkanda Sergey Yesenini anma günü, Təbrizdə Şəhriyar həftəsi, Ərdəbildə Xətai simpoziumu, Marağada muğam gecələri, Tovuzda, Salyanda, Tufarqanda aşıq deyişmələri, – di gəl çatdır, hamısında iştirak edə bilməsən də, hamısını mütləq işıqlandırmalısan ki, o biri kanallar qabağa düşməsin.

"Oğuz" günlüyü Novruz ərəfəsində türk dünyasından məlumatlar verirdi: Kazanda Rudolf Nuriyev teatrında Qara Qarayevin 3-cü simfoniyası və Skripka konserti əsasında balet tamaşası hazırlanır, Parisdən ən avanqardçı xoreoqraf kimi tanınan Rocc Düpon dəvət olunub. Türkmənistanda Nebit dağda türkmən neftinin kəşf olunmasında böyük xidmətləri olan Azərbaycan neftçilərinə həsr edilmiş muzey açılıb. Moskvada Avrasiya mənəvi məkanı və tarixi rus-slavyan – türk-tatar mədəni əlaqələri mövzusunda beynəlxalq elmi konfrans işə başlayıb. İstanbulda Gürcüstan filmləri həftəsi keçirilir. Günlük İstanbulda belə bir Azərbaycan filmləri festivalının keçirilməməsinə görə irad tuturdu. "İşçi çırağı" günlüyündə tələb olunurdu ki, hökumət Kəlbəcərdə Fəhlə dincərliyinin tikintisinin ləngiməsinin səbəblərini izah etsin. Bu barədə fəhlə həmkarlar Birliyinin bəyanatı da dərc olunmuşdu.

"Azad Azərbaycan" günlüyündə sağ və sol partiyalara mənsub olan gənclərin "Boz Qurd" və "Əməkçi" futbol takımlarının sabahkı oyunu haqqında elan verilmişdi.

Məlik düşündü ki, indi hansı tərəf məğlub olsa günahı hakimin üstünə yıxacaq. "Çinar" aylığı (jurnalı) iyul ayında Göygöldə Qafqaz rəssamlarının birgə sərgisinə hazırlıqdan reportaj dərc etmiş, Göygöl yolunda Əhməd Cavad abidə – bulağının şəklini vermişdi. "Türk eli" dərgisinin üz qabığında Nazım Hikmətin İstanbuldakı heykəli əks olunmuşdu, səhifələrində isə Şəkidə keçirilmiş talış mədəniyyət günlərindən rəngli şəkillər və Naxçıvanda açılmış ləzgi-avar xalq sənəti sərgisiylə bağlı illüstrasiyalar verilmişdi.

"Odlar yurdu" aylığında Qaradağ sinema şəhərciyinin dörd ən böyük studiyasında Azərfilm, Turanfilm, Xəzərfilm və Qobustanfilmdə çəkilən ssenarilər haqqında yazı vardı, "Şeytanbazar" həftəliyində isə həmişəki kimi Qaradağ sahil villalalarının sakinləri sinema ulduzları haqqında dedi-qodular dərc olunmuşdu. Məlik ərinməyib "Pəri Cadu" həftəliyinin saytına da nəzər saldı - yenə ulduz falları, tilsimlər, sehrlər, cadular, hər növ esktrasenslərin proqnozları – öncədəndemələri. Məlik XXI əsrdə də bütün bunları oxuyanlar, hətta bunlara inananlar tapılır – deyə düşündü. "Doqquz" mövsüm – yaz toplusu da çapdan çıxmışdı. Dəbdə olan modlar, geyimlər toplusuydu. Adını niyə "Doqquz" qoymuşdular?

Yadına düşdü kü, toplunun hər sayının üstündə GÖZƏLLİK ONDUR – DOQQUZU DONDUR – sözləri yazılır.

"Azərbaycan ocağı" aylığı məlumat verirdi ki, Xankəndində Şirvanzadə erməni teatrında Mirzə Cəlil Məmmədquluzadənin Kamança pyesi tamaşaya hazırlanır. Məlik düşündü ki, nə yaxşı məhz – barışa, anlaşmaya çağıran bu yüksək humanist qayəli əsəri seçiblər. Doğrudur, keçən ağır hadisələr hələ yaddaşlardan silinməyib və bəlkə uzun zaman unudulmayacaq, amma Ermənistana, doğma dədə-baba yurdlarına qayıdan azərilərin və Dağlıq Qarabağdakı ermənilərin eyni ölçüdə hüquqları təmin olunandan sonra münaqişələrə ehtiyac qalmamışdı. Eyni hüquqlara Gürcüstandakı azərilər də malik olandan bəri, Gürcüstanın da ərazi bütövlüyü qarşılıqlı anlaşma və bütün milli azlıqların mədəni-iqtisadi tələblərinin ödənməsi şərtilə bərpa olunandan bəri Cənubi Qafqazda da Şimali Qafqaz kimi tam bir sabitlik əldə olunmuşdu. Az bir zaman ərzində qarşılıqlı əməkdaşlıq nəticəsində quru-

culuq işləri bəhrəsini vermiş, işsizlik tamamilə aradan götürülmüş, ticarətin, sənayenin başqa sahələriylə yanaşı turizm industriyası da sürətlə inkişaf etmişdi. İndi doğrudan da, Qafqaz turist Məkkəsinə çevrilmişdi. Çoxlu turist şirkətlərindən ən böyük imkanlara ikisi malik idi – bir sıra ölkələrin şərikli "İpək yolu" şirkəti və "Qafqaz-tur". "İpək yolu" şirkəti "Baykaldan-Balkana" – adlı səyahət marşrutu təşkil edirdi. Marşrutun bir ucu Baykal göstərilsə də bəzi hallarda bu marşrut Yakut Saxa elindən yaxud Monqolustanda Orxan abidələrindən başlanır və Quzey Kipris Türk Cümhuriyyətində bitirdi. Əlbəttə uçaq marşrutları da vardı, amma çox vaxt turistlər qatarla ya avtobuslarla səyahət etməyə üstünlük verirdi. "Üç ox" ekspres qatarı sərnişinləri Doğu Türküstandan, Altaydan, Qazaxıstandan, Orta Asiyadan Xəzər sahillərinə çatdırır, burada "Azərbaycan" və "Türkmənistan" azman bərələri qatarları, avtobusları tərkinə alır və Bakının Türkan limanına çatdırırdı. Buradan isə ya Bakı-Tiflis-Batum-Sırp atabanıyla Türkiyəyə və oradan Avropaya, ya Bakı-Xudafərin-Sədərək-İqdır yoluyla yenə də Türkiyəyə, oradan Avropaya səyahət davam edirdi. "Qafqaz-tur" şirkəti isə Qara dəniz sahillərindən Xəzər sahillərinə, Neft daşlarından Bakurianiyə, Elbrusdan, Tiberdadan, Dambaydan Göyçə gölünə, Dilicana uzanan yollarla turistlərə bir aylıq rahat və xoş səyahət təklif edirdi.

Turistlərə yadigar-suvenirlər kimi Qubaçı ustalarının düzəltdiyi metal döymələr, Quba xalçaları, Lahıc misgərlərinin məmulatı, Şəki ipəkləri, Basqal kəlağayıları, Gürcustan çaxırları, erməni konyakları hədiyyə edilirdi.

Məlik "Bildiriş" bülleteninə göz atdı. Mirzə Fətəli Axundzadə Dövlət dram teatrında Hüseyn Cavid pyesləri həftəsi uğurla davam edirdi. Üzeyir Hacıbəyli Dövlət Opera və balet teatrı Milanın La skala teatrının solistlərinin qastrolları haqqında anons vermişdi. Hüseynqulu Sarablı Muğam teatrında Yeddi muğam silsiləsində həftənin hər günü bir dəstgah səslənəcəkdi – Çahargah, Segah, Rast, Şur, Bayatı Şiraz, Humayun, Şüştər... Hüseyn Ərəbli səhnəsində, gürcü teatrı Şekspirin "Koriolan" pyesini göstərəcəkdi, Sinema-klubda Çaplin-Fellini filmləri retrospektivi başlanırdı.

Qara Qarayev musiqi mərkəzində, Niyazi konsert salonunda, Fikrət Əmirov oda musiqisi evində, Tofiq Quliyev estrada teatrında, Rəşid Behbudov Mahnı teatrında, Vaqif Mustafazadə caz-klubunda

bayram konsertləri, İçəri şəhər teatrlarında Orta oyunu, Qaravəlli, Kilimarası, Zorxana, Şəbih tamaşaları və etnoqrafik bayram oyunları, Şah İsmayıl Xətai tarix muzeyində, Nizami ədəbiyyat muzeyində, Sultan Məhəmməd Milli rəsm qalereyasında, Hacı Zeynalabdin Tağıyev dünya mədəniyyəti muzeyində, Səttar Bəhlulzadə çağdaş sənət muzeyində, İlkəl sənət muzeyində, Ziya Bünyadov Ordu muzeyində, Həsən bəy Zərdabi və Mikayıl Müşfiq kitabxanalarında bayram sərgiləri açılırdı.

Məlik elektron yaddaş kitabçasında qeydlər etdi, əlbəttə hamısına getmək, hamısını seyr etmək, hamısını dinləmək imkanı yox idi – odur ki, çeşidli teatrları, muzeyləri əməkdaşları arasında bölüşdürdü – hərəsinə birini göndərəcəkdi, özü isə mütləq vaxt tapıb Qorqud dağının ətəyində açıq səma altında yerləşən İlkəl sənət muzeyinə getməlidir. Deyirlər ki, oranın ekspozisiyasına Lerikdən yeni tapılmış daş at, qoç heykəlləri əlavə edilib – nə isə ayrı aləmdir. Mütləq gedib baxmalıdır. Vaxt eləyə bilir ki... Heç İçərişəhərdəki Xalq sənəti muzeyinin yeni açılmış şöbələrində – zərgərlik, misgərlik, şəbəkə, dulusçuluq, təkulduz, xəttatlıq muzeylərinə də baş çəkə bilməyib. Dünən Puşkin mədəniyyət evində Dostoyevskinin "Karamazov qardaşları" romanının ikinci nəşrinin təqdimatı olub. Nə yazıq ki, vaxt tapıb bu romanın yeni tərcüməsini oxuya bilməyib. Heyf ki, keçən həftə Akademik Landau Yəhudi mərkəzində "Abram Qubermanın Azərbaycanda dini dözümlülük dəyərləri" məruzəsini də dinləyə bilmədi. Macal tapa bilir ki...

Behzad İran mədəniyyət evində Hafiz Şirazi gecəsinə dəvət etmişdilər, ora da gedə bilməmişdi. İran artistlərinin ifasında fars dilində Hafizi dinləməyin öz ləzzəti var.

Video-telefonun zəngi çalındı. Məlik dəstəyi qaldırdı və kiçik ekranda Aypərinin bir qədər narazı çöhrəsini gördü. Salam-kəlam, haləhval və bayram təbriklərindən sonra Məlik: Gözümə bir təhər dəyirsən – deyə xəbər aldı – qanın niyə qaradır?

Aypəri: Qanım qara olacaq da – dedi. – Bakıdan bəzi dekorları yubadıblar. Tamaşanı Novruz bayramına çatdıra bilmədik.

Aypəri bir neçə həftəydi ki, Təbrizdəydi. Əbdülqədir Marağayi teatrında "Koroğlu" operası yeni quruluşda hazırlanırdı, rəssam kimi Aypəri dəvət olunmuşdu. İlk tamaşanı bayramda vermək istəyirdilər və budur bax, Çənlibel səhnəsinin dekorları gəlib vaxtında çatmamışdı.

Məlik Aypərini fikrindən yayındırmaq üçün, söhbəti dəyişdi: – Nə oldu, Nigar tapdınız? – deyə soruşdu, tapdıqlarını bilirdi.

Aypəri: – Bəs deməmişdim sənə, axır ki, tapdıq – dedi – Səfiəddin Urməvi Konservatoriyasının 3-cü kurs tələbəsidir. Səhnə təcrübəsi azdır, amma səsi pis deyil – yenə əvvəlki söhbətə qayıtdı:

– Gör sən Allah, hər şey hazır idi, gör işimizi necə pozdular. Axı demişdim onlara "Qırat" marşrut avtobuslarıyla göndərin dekorları, yox, pula qənaət ediblər, "Dürat"la göndəriblər, odur ki, gecikir – heç cür sakit ola bilmirdi.

Məlik: – Əşi, kefini pozma – dedi – Şər deməsən xeyir gəlməz. Bir yandan clə yaxşı oldu, bir həftə sonra ilk tamaşaya mən də gələrəm Təbrizə.

– Hökmən "Qırat"la gəl.

– Mənim o qədər vaxtım hanı? Səhər uçağıyla gəlib gecə uçağıyla qayıdaram. Beyrək zəng eləmişdi, Burladan da ismarış var. Urumçuya uçur.

Aypəri: – Bilirəm – dedi – Mənə də ismarış göndərib. Beyrək də zəng eləmişdi. Deyir Şuşada axır çərşənbə qiyamət olub. Burda da çox təmtəraqlı keçdi. Gecələr Eynal-Zeynal dağında qalanmış tonqallar elə gözəl görünür ki... Bir-iki eskiz də çəkdim. Sabah da Ərkin təpəsində məşəl yandırılacaq.

Məlik: – Bilirəm – dedi – Bildir ordan veriliş hazırlamışdım, yadında deyil? Aypəri: – Əlbəttə yadımdadır – dedi – Yaxşı, di salamat qal. Bir də bayramını təbrik edir, öpürəm – indi Aypərinin kiçik ekrandakı çöhrəsində xoş bir təbəssüm vardı.

Məlik liftlə birinci mərtəbəyə endi, həyətə çıxdı, paltosunun cibindən pultu çıxartdı və qarajının qapısına tərəf tutub düyməni basdı. Qarajın qapıları açıldı. Pultun ikinci düyməsini basıb qarajdakı avtosunun qapılarını açdı. Məliyin avtomobili "Ceyran" idi. Beyrəklə Aypəri nə qədər israr eləsələr də "Maral" almırdı. Beyrək özü neçə ildi ki, "Maral" sürürdü və atasına da bu avtomobilin məziyyətlərini tərifləməkldən yorulmurdu. Amma daha ucuz olsa da, qıvraq, çevik "Ceyran" markası Məliyin işinə daha çox yarayırdı. "Maral" avtomobilini Ford firmasının yardımıyla tikilmiş Gəncə avtomobil fabriki, "Ceyran"ı Fiat firmasının iştirakıyla qurulmuş Sumqayıt fabriki istehsal edirdi.

Məlik avtomobilini işə salıb qarajdan çıxdı, pultla qaraj qapılarını bağladı. Həyətdən sola burulub Şeyx Məhəmməd Xiyabani prospektinə tərəf sürdü. Məliyin mənzili Bakının Bayat məhəlləsində idi. Hansısa kitabda oxumuşdu ki, bir vaxtlar bura 8-ci kilometr adlanır-

mış. Əcəb qəribə addır – niyə 8-ci kilolmetr, hardan 8-ci kilometr, yəni hardan hesablamağa başlasan bura gəlib səkkizinci kilometr çıxır. Ümumiyyətlə, şəhərin müxtəlif mikrorayonlarına (o vaxt bu əcaib sözü işlədirmişlər) 1-ci, 2-ci, nə bilim neçənci mikrorayon deyərlərmiş. Buralarda tikilən evlərin görünüşünü də Allah göstərməsin (Məlik köhnə sinema arxivində, xronikalarda görmüşdü onları). Məlik şəhərin indiki məhəllələrinin adlarını bir-bir yadına saldı, Əfşar, Qacar, Qaşqay, Şahsevən, Kəngər, Bayandır, Borçalı, Zəngəzur, İqdır. Amma nə deyirsən de Məliyin yaşadığı Bayat məhəlləsi onun gözündə bütün başqalarından səfalı idi. Elə onun yaşadığı otuz mərtəbəli binanın arxasından başlanan Qarayazı parkı, parkın içindəki Uçan su şəlaləsi nəyə desən dəyər.

Məlik cib telefonunu çıxarıb Ankaraya, sonra Nyu-Yorka, Moskvaya və Tehrana zəng etdi, çoxdan tanıdığı və daima internetlə əlaqə saxladığı tele jurnalist dostlarıyla danışdı. Çox qabaqcadan onların razılığını almışdı ki, SNN, TRT-də, Moskvanın "Avrasiya" və Tehranın "İrani-növ" kanalları da Azərbaycanda keçirilən Novruz bayramının görüntülərini mütləq başqa TV-lərdən deyil, "Çağdaş"dan alsın. Bu həm "Çağdaş"a yaxşı reklam idi, həm də xeyli gəlir gətirəcəkdi. O biri kanalların rəhbərlərinin bağrı çatlayacaq – Məlik gülümsündü – ayıb olsun – deyə belə xudbin fikirlərə görə özünü məzəmmət elədi və amma yəqin onlar da bir şey fikirləşiblər – deyə sakitləşdi. Axı o biri TV-lərdə işləyənlərin çoxusu da yüksək peşəkardılar və onun yaxın dostları idi.

Xiyabani prospektindən Çanaqqala meydanına çıxdı, bu meydanda ucalan Kamal Atatürkün möhtəşəm heykəlinin yanından burulub Qaraqoyunlular bulvarına girdi.

Qaraqoyunlular bulvarı Bakının yeddi ən məşhur bulvarından biriydi. Qara şəhər zavodları şəhərdən kənara Üç təpə tərəflərə köçürüləndən sonra Xəzər bulvarı Bayıldan Zığa qədər uzanırdı və Ginnesin kitabına düşmüşdü – bu sahil şəridi dünyada ən uzun bulvar idi. Cəfər Cabbarlı meydanından Nərimanov prospektinə qədər uzanan Füzuli bulvarı isə şəhərin ən şık, dəbdəbəli bulvarı sayılırdı, Ən bahalı mənzillər, ən şıq otellər burada yerləşirdi. Haçansa Respublika sarayı adlanan Füzuli sarayı da burda idi, Dram teatrı da, Opera teatrının yeni binası da. Sağ və sol tərəfdən şəhərin ən iri sinemaları "Aynur", "Dalğa", Cəfər Cabbarlı şəhər teatrı, saysız-hesabsız sərgi salonları

nəzərə çarpırdı. Əlibəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu küçələrinin Füzuli bulvarında kəsişdiyi yerdə bu iki dost mütəfəkkirin qoşa heykəli qoyulmuşdu.

Füzuli bulvarı da Xəzər bulvarı boyu uzanan Xəzər prospekti kimi gecələr o qədər gur çıl çıraqlı idi ki, yəqin bu işıq seli göyün yeddi qatından, kosmik gəmilərdən də görülüb seçilərdi.

Qarabağ bulvarı əksinə, daha sakit və kədərli idi. Bu bulvar boyu yerləşmiş anıtlar orijinallığı ilə seçilirdi. Qarabağ döyüşlərində həlak olmuş naməlum şəhidin məzarı üstündə yanan əbədi od – qədim ocaqlar şəklində düzəldilmişdi. Xocalı müsibətinin anıtı – yerlə-yeksan olmuş xarabalıq, yanıb qaralmış daş qalaqları, kösövlərdən ibarət idi və bu daşların, kösövlərin arasından torpaqdan daima tüstü süzülüb qalxırdı. Hər saatdan bir səslənən musiqi, Fikrət Əmirovun Şur simfonik muğamından bir parça anıtın təsir gücünü bir az da artırırdı. Dikuçar faciəsinin anıtı da qeyri-adi idi – parçalanıb yanmış metallik dikuçarın yarıqları arasında həlak olanların sifətləri həkk olunmuşdu. Və nəhayət bütün bu acı xatirələrin təsəllisi kimi Qarabağ dəmir yolu vağzalının qarşısında möhtəşəm Zəfər Tağı ucalırdı.

Son illər Bakıda qoyulmuş müxtəlif abidələr və anıt yerləri arasında Məlik ən çox Qarabağ bulvarında yerləşənləri bəyənirdi, bir də Millət meydanında ucalan Dirəniş abidəsini. Biləcəri tərəfdən 20 Yanvar prospektiylə şəhərin mərkəzinə tərəf irəliləyərkən Millət meydanında, haçansa 11 Qızıl Ordu abidəsinin yerində nəhəng bir tankın arxa tərəfini görürdün. Tank sanki at kimi şahə qalxmışdı. Qarşı tərəfdən baxanda isə yalın əllərivlə bu tanka qarşı çıxmış insanların gücüylə tankın qabaq tərəfinin havaya qaldırıldığını görürdün. Millət meydanında ucaldılmış Dirəniş abidəsi də, 20 Yanvar prospekti boyu insanların həlak olduqları nöqtələrdə çəkilmiş qərənfil şəkilləri də o uzaq illərin hələ də yaraları qövr edən müsibətini yada salırdı.

Azərbaycan sinemasından Kukla teatrına qədər açılmış Yeddi gözəl bulvarı isə boy sarıdan ən qısa, amma turistləri ən çox cəlb edən bulvarlardan idi. Buradakı bahalı dükanlar, "Yeddi gözəl" mod teatrı, sərgi salonları və restoranlar sanki bir– biriylə bəhsə girərək daha yaraşıqlı, daha cazibədar, daha cəlbedici olmağa çalışırdı. Amma bu bulvarda turistləri ən çox cəlb edən "Yeddi gözəl" fəvvarələri idi. Yeddi iqlimdən yeddi gözəlin rəngbərəng fiqurları axşamlar işıq effektləri vasitəsilə sanki Qara Qarayev musiqisinin müşayətilə rəqs edirdilər.

Turistlər bir də Bakıya qayıtmaq üçün fəvvarələrin hovuzuna qəpik-quruş atırdı. Qonaqları cəlb edən ikinci yer Cəfər Cabbarlı meydanındakı qüllə idi. Keçmiş Sabunçu vağzalı dəmiryol durağı kimi isttifadəsiz qalandan sonra indi bu binada "Arşın mal alan" Mədəniyyət və Ticarət Mərkəzi açılmışdı. Binanın qüllədəki pəncərələrindən hər gün gündüz saat on iki tamamda Üzeyir musiqisinin səsləri altında "Arşın mal alan" operettasının rəngli saxsılardan düzəldilmiş personajları çıxıb meydana toplaşanlara baş əyirdilər.

Araz bulvarı Vahid Azərbaycan meydanından başlayırdı. Səlcuq stadionu (əsaslı dəyişdirilmiş və genişləndirilmiş keçmiş respublika stadionu) qarşısında üç böyük Səlcuq hökmdarının – Sultan Toğrulun, Alp Arslanın və Məlik şahın at belində heykəlləri ucalırdı. Stadion girişinin sağ tərəfində Tofiq Bəhramov adına İdman muzeyində Azərbaycan idmançılarının qırxdan artıq Olimpiya və dünya çempionu medalları, saysız-hesabsız prizlər nümayiş etdirilirdi. Meydanın qarşı tərəfində bir yanda "Savalan" o biri tərəfdə "Şahdağ" otellərinin qarşısında Azərbaycan tarixinin on iki məşhur dövlət xadiminin heykəlləri qoyulmuşdu – Aranşah Cavanşir, Qızıl Arslan, Şirvanşah İbrahim, Cahanşah Ağqoyunlu, qaraqoyunlu Uzun Həsən, Şah İsmayıl Səfəvi bir tərəfdə – Nadir şah Əfşar, Qarabağlı Pənah xan, İbrahim xan Cavanşir, şəkili Hacı Çələbi xan, qubalı Fətəli xan, gəncəli Cavad xan o biri tərəfdə. İki tərəfin arasından isə Araz bulvarı başlanırdı. Araz bulvarında Güney və Quzey Azərbaycanın istiqlal mübarizəsinin altı Obeliski – Tikili daşı ucaldılmışdı. 1905-1906 Səttarxan hərəkatına həsr olunmuş Məşrutə obeliski, 28 Mayıs – Cümhuriyyət obeliski, Xiyabani hərəkatının Azadıstan obeliski, 1945-ci il 21 Azər obeliski, 1991-ci il Qüzey Azərbaycanın müstəqillik obeliski və Xudafərin-Qovuşma obeliski.

Yeddinci məşhur bulvar Aşıqlar bulvarı idi ki. Məlik avtosunda *həmin bulvarın girəcəyinə yaxınlaşırdı. Hər səhər işə gedəndə avto*sunu burada əyləyir, bulvarda yarım saat piyada gəzərdi. Haçansa Ermənikənd bulvarı adlanan bu bulvarın girəcəyində Aşıq Ələsgərə həsr olunmuş abidə qoyulmuşdu. Daha doğrusu Ələsgərin: *Çərşənbə günündə çeşmə başında gözüm bir alagöz xanıma düşdü* misralarının motiviylə düzəldilmişdi bu abidə. Bir çeşmə qurulmuşdu, çeşmə başında Aşıq Ələsgərin və onun çərşənbə günü rast gəldiyi ala göz xanımın surətləri yaradılmış, o məşhur qoşmanın bəndləri həkk olun-

muşdu. Məlik Aşıqlar bulvarı boyu irəlilədikcə bulaqların üstündə uşaqlıqdan əzbər bildiyi misraları həvəslə bir də oxuyurdu. *Qurbani der:könlüm bundan sayrıdı, Nə etmişəm, yarım məndən ayrıdı, Ayrılıqmı çəkmiş boynu əyridir, Heç yerdə görmədim düz bənövşəni.*

Qaracaoğlan, çox ağladım, gülmədim, Aradım, dərdimə dərman bulmadım, Bunca gündür bir minnətə gəlmədim, Kərəm eylə məhzun göndərmə məni.

Dağların qarından bəyazdır sinən, Üstünə yıxılıb öləsim gəlir.

Duman, gəl get bu dağlardan, Dağlar başı bar eyləsin, Nə gözlərim səni görsün, nə könlüm qubar eyləsin.

Aşıq Qarabağlıdı, Xalın qara bağlıdı, Nə gedən var, nə gələn Yollar qara bağlıdı.

Belimizdə qılıncımız kirmani, Daşı dələr mizrağının dəmrəni. Haqqımızda dövlət vermiş fərmanı, Fərman padişahın, dağlar bizimdir.

Məleykə boyludu, şirin ləhcəli, Əzəldən tamaşa olan bu dünya. Qoca cadugərdi, aldadar səni, Cavanlıq donunda qalan bu dünya.

Ölüm haqdı, çıxmaq olmaz əmirdən İpək tora həlqə salma dəmirdən, Aydı, gündü gəlib keçər ömürdən, Tələsirik, görən yaza nə qaldı.

Bir gün ölsəm hamı deyər yazıqdır, Canı yanan ya bir olar, ya iki. Yarın bağçasında güllər açılmış, Dərsəm öldürərlər, dərməsəm ölləm...

Gün ikindi, axşam olur, Gör ki, başa nələr gəlir, Veysəl gedər, adı qalar, Dostlar məni xatırlasın.

Hər aşığın öz çeşməsi vardı və hərəsinin üstündə onun sözləri həkk olunmuşdu: Aşıq Qurbani, Abbas Tufarqanlı, Pir Sultan Abdal, Sarı Aşıq, Qaracaoğlan, Dadaloğlu, Əmrah, Aşıq Alı, Aşıq Bəsti, Molla Cuma, Aşıq Veysəl...

Məlik düşündü ki, nə yaxşı bu dərd, niskil, qəm – aşıq qoşmalarında, gəraylılarda, bayatılarda, Füzuli qəzəllərində, neçə-neçə əski şairin yanıqlı şeirlərində, Segahın, Şüştərin, Humayunun hüznündə əbədi həkk olunub qalıb. Çünki öz ömrün də, xalqının günü-güzəranı da nə qədər qayğısız keçir-keçsin, insanın bəzən qüssəyə, kədərə, həsrətə də ehtiyacı olur. Bəlkə indi, bizim bütün ağrı-acılarımız ötənlərdə qaldığından qəlbləri sarsıdan ədəbiyyat da yarana bilmir. Bir-birindən nəfis kitab nəşrləri, bir-birindən parlaq aylıqlar, həftəliklər... Amma insanın könlünü titrədən əsərə nə yazıq ki, rast gəlmirsən. Bəlkə bu da firavanlığımızın bədəli, əvəzidir. Kim bilir?

Adəti üzrə hər bulaqdan bir qurtum içib avtomobilinə qayıtdı. Aşıqlar bulvarından Firudin İbrahimi küçəsinə buruldu, Mirzə Cəlil Məmmədquluzadə heykəlinin, Qaçaq Nəbi İdman sarayının, Şeyx Şamil bağının yanından ötüb Gəncə meydanına çıxdı. Burada 20-ci ilin Gəncə üsyanına həsr olunmuş abidə ucalırdı.

Səməd Vurğun bağının düz qənşərində – Bülbül bağında böyük sənətkarın heykəli ucaldılmışdı və üzbəüz duran bu iki heykəl – şairin və müğənninin heykəlləri – sanki bir-birini salamlayırdı.

Qarşısında Əliağa Şıxlının və Səməd bəy Mehmandarlının qoşa heykəlləri ucaldılmış Hərb Akademiyasının yanından Füzuli bulvarına çıxdı.

Füzuli bulvarında Opera teatrının yeni binasına nəzər saldı. Operanın fasadında yeddi iri pəncərədə yeddi rəngbərəng vitraj çəkilmişdi. "Leyli və Məcnun", "Şah İsmayıl", "Aşıq Qərib", "Koroğlu" operalarına, "Qız qalası", "Yeddi gözəl", "Min bir gecə" baletlərinə həsr olunmuş əlvan vitrajlar gecələr daha cazibədar görünürdü. Memar və rəssam bu vitrajları, teatrın qarşısındakı iri hovuzu elə yerləşdirmişdilər ki, rəngli - şüşə şəkillər qarşıdakı hovuzda da əks olunurdu.

Məlik Əbülfəz Elçibəy prospektinə çıxdı, Durnalar parkının yanından keçdi. Durnalar parkında Vaqif və Vidadinin birgə heykəlləri sanki uzaqlara uçub gedən durna qatarının seyrinə dalmışdı.

Səfəvilər prospektinə çıxdı, Qızılbaşlar meydanından keçdi, Şəhidlər dağı istiqamətində irəlilədi.

Dağın 20 Yanvar, Qarabağ şəhidləri və 1918-ci il mart qurbanları cərgələrindən aşağıda yerləşən Şəhidlər muzeyinin eksponatları, şəkilləri, fotoları, sənədləri XX əsrdə xalqın başına gətirələn bütün müsibətləri əks etdirirdi. 1905, 1918-ci il mart, 1920-ci il aprel, 1921 Xiyabani hərəkatının tar-mar edilməsi, 1937, 1946-cı il 21 Azər, 1990-cı il – Qara yanvar, Baqanis Ayrım, Qukark, Xocalı faciələri...

Ana Yasa küçəsindən bu muzeyə qalxan pilləkənlərin iki tərəfində, açıq havada – terrorçu cinayətlərinin nəticələri – musiqiçi Rafiq Babayev həlak olduğu metro vaqonunun, Sumqayıt yolunda alimlərin tank tırtılları altında əzilmiş "Jiquli"sinin, Qanlı yanvarda gülləbaran edilmiş Təcili yardım maşınının, Yevlax yolunda partladılmış sərnişin avtobusunun qalıqları nümayiş etdirilirdi.

Məlik Şəhidlər dağının yuxarı girişindən yoxuşla iş yerinə çatdı, avtosunun açarlarını qaraj xidmətçisinə tapşırdı, avtomobili içəri salacaqdı.

Hələ xeyli vaxtı vardı. Yenicə ucaldılmış və bütün Yaxın Şərqdə ən uca güllə sayılan TV gülləsinin aşırı sürətli liftiylə yuxarı qalxıb "Bulud" restoranına daxil oldu.

"Bulud" restoranı güllənin ən üst qatında yerləşirdi və aramla hərlənirdi – yarım saat ərzində Bakının və bütün ətrafların mənzərəsini seyr edə bilərdin. "Bulud" restoranından da yuxarı "Buludüstü" kafesi vardı, amma o açıq havada idi, hələ bu ilıq mart günündə orada oturmaq olmazdı.

Restoran öz oxu ətrafında dövr etdikcə Məlik səhər yeməyini yeyir, ətirli Astara çayı içir və hər gün seyr etdiyi doğma şəhərinə baxdıqca baxırdı.

Əvvəlcə müştəri gözüylə Azadlıq meydanına baxdı. Bir neçə telekamera bu gün orda qurulmuşdu.

Keçmişlərdə Hökümət evi adlanan bina indi Odlar sarayı adlanırdı. Sarayın dörd güllələsinin üstündə dörd tərəfdən on altı daimi məşəl yanırdı – bu məşəllər Güzey və Güney Azərbaycanın on altı tarixi ərazisini, vaxtilə xanlıqlar adlanan əraziləri təmsil edirdi - sağ cinahda Bakı, Gəncə, Qarabağ, Şirvan, Şəki, Naxçıvan, Lənkəran və Quba, sol cinahda Təbriz, Ərdəbil, Zəncan, Marağa, Urmiya, Qaradağ, Maku və Xoy.

Şəhidlər dağının üstündə də (deyilənə görə bir vaxtlar burada Kirov adlı bir inqilabçının abidəsi varmış) üç məşəl – Bakının rəmzi – şölələnirdi.

"Bulud" restoranı aramla hərləndikcə Məlik şəhərin bcş girişində də yanan üçlü məşəlləri görə bilirdi. Balaxanı və Suraxanı şoselərinin kəsişdiyi yerdə, Xırdalan şossesində – Sulu təpədə, Lənkəran şosesində – Qaradağda, Sahil yolunda – Türkanda, bir də dənizdə, Böyük Zirə və Kiçik Zirə adalarının arasındakı haçansa Makarov bankası adlanan qaldırımda. Xəzərin səthi yenidən bir qədər aşağı düşəndən sonra bu qaldırım da, Səbayilin qalıqları da üzə çıxmışdı və Üççıragın birini də bu qaldırımda – şəhərin dəniz qapısında qurmuşdular.

"Bulud" hərlənib elə bir baxış nöqtəsinə çatmışdı ki, indi Nərgiz adası ovuc içi kimi görünürdü. Məlik xatırladı ki, bir vaxt bu adanın adı haqqında qızğın mübahisələr olmuşdu. Nargin adını dəyişəndə adanın keçmiş adına – Böyük Zirəyə etiraz olundu, Xəzərdə bir neçə Zirə adlı ada var, çaş-baş düşəcək - dedilər. Sonra kimsə xatırladı ki, indi çoxdan unudulmuş Anar adlı bir yazıçının hekayəsində bu ada Nərgiz adlanır. (Bu Anar deyilənə görə o vaxt mövcud olan Yazıçılar Birliyi-

nin sədri olub, sonra ömrünün axırınadək Suraxanı – Əzizbəyov avtobusunda konduktor işləyib).

Nə isə bu ad qəbul olundu, həm köhnə Nargin adına yaxın idi, həm də burda hər il Çiçək bayramları keçirilirdiyinə görə. İndi Nərgiz adası Xəzər hövzəsinin ən məşhur dincərlik və əyləncə yeri idi. Buna da vaxtilə etirazlar olmuşdu. Bu adanın faciəvi keçmişi var, sovet dönəmində nə qədər günahsız insanı burada güllələyib dənizə atıblar – deyirdilər. Və məhz elə buna görə də bu adada repressiya qurbanlarına abidə ucaldılıb. Bu müddəaya qarşı da dəlil gətirirdilər ki, həmin insanlar elə bu arzularına görə – milləti azad, xoşbəxt, şad görmək istədiklərinə görə qurban gediblər. Bu günün insanları uşaqlar və böyüklər – burada xoş istirahət edəcək, əylənəcək, sevinəcəklərsə, elə bu da qurban getmişlərin ruhunu şad edəcək. Hər nəysə təklif qəbul olundu və indi buradakı uşaqlar və böyüklərçün əyləncə yerlərinə gəmilərlə, katerlərlə, xüsusiylə yaz və yay aylarının bazar günlərində minlərlə insan gəlirdi. Adanın ən uca nöqtəsində Şeytan-çarxı – Karusel o qədər böyük idi ki, hətta Xəzər bulvarından, Bayıldan, Zığdan və əlbəttə bax burdan – "Bulud" restoranından aydınca görünürdü. Şeytan çarxı göy qurşağının yeddi rəngində idi və şəhərdən baxanda yarısı adanın o tərəfində qaldığına görə bu tərəfdən doğrudan da yeddi rəngli göy əyrisini xatırladırdı. Çarxda əylənənlər hündürə qalxdıqca bütün ada, dəniz, uzaq şəhər aydın görünürdü. Bu nöqtədən adanın düz yerində əlvan gül-çiçəkdən düzəldilmiş Azərbaycan xəritəsi daha qəşəng görünürdü.

"Min bir gecə", "Ömər Xəyyam", "Bəhlul Danəndə" əyləncə mərkəzləri səhərə qədər maraqlı proqramlar, konsertlər təqdim edirdi. "Vətəgə" restoranında yalnız Xəzərin və Kürün balıqları deyil, dünyanın hər yerindən gətirilən okean, dəniz, göl və dağ çaylarının nemətlərini dadmaq olardı.

Matəm günlərində təbii ki, adada bütün əyləncə yerləri qapanırdı. Bura gələn müxtəlif heyətlər Repressiya qurbanları abidəsi önünə əklillər qoyur, anma duruşunda durur və adanın dörd tərəfindən dənizə çiçəklər səpirdilər.

Adaya şəhərdən adi günlərdə iki saatdan bir, bazar günləri hər saat yola düşən dəniz tramvaylarıyla getmək olardı. "Qızıl balıq", "Ağ balıq", "Ala balıq", "Şahmaya", "Sazan" adlı dəniz tramvayları, taksikaterlər, matorlu, yelkənli və avarlı kirayə qayıqlar şəhərdən adaya,

adadan şəhərə şütüyürdü. Əlbəttə şəxsi yaxtaları – təknələri olanlar da istədikləri vaxt adaya gələ bilərdilər, amma küləkli havalarda buna icazə verilmirdi. Şəxsi təknələr Bayıl burnunda yaxt-klubun körpülərində lövbər salmışdı. Bir-birindən fərqli, əlvan və göyçək təknələr gül bağçasını xatırladırdı. Amma bu səmtin ən yaraşıqlı nəhəng gəmisi – üç ağ yelkənli qədim üslubda düzəldilmiş gəmi-otel idi. Adı da elə "Yelkən" idi. Qapalı yerlərində və göyərtisində yay və qış restoranları işləyirdi.

"Bulud" bir qədər də hərlənmiş və indi Bayıl yüksəkliyi aydın görünürdü. Bu yüksəkliyin ən uca yerində möhtəşəm Çənlibel qala-oteli yerləşirdi. Qalanın damında şəhərin və dənizin hər yerindən görünən bir heykəl ucalırdı – Qır atın belində Koroğlu heykəli.

Yalnız Nərgiz adasına deyil, Xəzərin başqa adalarına (onların çoxunda dincərliklər, çimərliklər və dəniz havası müalicəsinə möhtac olanlar üçün xəstələr evləri qurulmuşdu) şəhərin müxtəlif yerlərindən getmək olardı. Hətta bəzi nisbətən iri vapurlar Bakıdan çıxıb Salyana qədər gəlir, oradan Kür boyu Yevlaxadək ya da Araz boyu üzürdülər. Bu da türistlərin sevdikləri marşrutlardan idi. Xəzərdə üzən iri Azərbaycan gəmiləri "Dədə Qorqud", "Nizami" Həştərxana, Ənzəliyə, Mahaçqalaya, Qazaxıstan və Türkmənistana gedib gəlirdilər. Adi sərnişin daşıyan yaxud turizm kruizlərinə çıxan gəmilər Bakı dəniz limanından gedib-gəlirdisə, dəniz tramvayları daha çox ya Bayıl burnundan, ya da bulvardakı Xəzər muzey – akvariumun körpüsündən yola çıxırdı. İstifadədən çıxmış böyük şelf-qazma qurğularından biri bura gətirilib sahilə bənd edilmişdi və qurğunun müxtəlif mərtəbələrində Xəzər muzeyinin tarix, gəmiçilik, balıqçılıq, neft bölmələri, suyun altında – divarları sukeçməz qalın şüşəli salonlarda akvarium yerləşdirilmişdi.

"Bulud" hərlənib baxış nöqtəsini keçmiş İliç buxtası adlanan ərazıyə tuşlamışdı. Neftçilərin çoxdan tərk etdikləri bu iri ərazini indi amerikalıların qurduqları "Disney nağıl dünyası" tutmuşdu. Disney şirkətiylə uzun danışıqlar və müəyyən maddi güzəştlərin hesabına bu yerin adı məhz Azərbaycan türkcəsində qəbul edildi: Disneyland ya Disneyuord yox – Disney nağıl dünyası. Məşhur Disney personajlarıyla bir sırada Cırtdanın, Divlərin, Pərilərin, Küpəgirən qarıların, sehrbaz dərvişlərin, Güləndə ağzından gül tökülən Gül Qəh-qəh xanımın, Ovçu Pirimin, Armudan bəyin, Qaraqaşın, Göyçək Fatmanın da məzəli fiqurları elektron idarəetmələr vasitəsilə yüz cür oyun çıxarıb uşaqların sonsuz sevincinə bais olurdu.

Burdan Qorqud dağına kanat yolu çəkilmişdi. Qorqud dağının şəhərə baxan yamacında Qızıl çadırda restoran, alaçıq, dəyə, muxuru şəklində içi komfortlu otaqlarda isə Qorqud otelinin ayrı-ayrı nömrələri yerləşirdi. Dağın Şıx çimərliyinə baxan səmtində Ağ Çadırda dastan teatrı və yenə də alaçıq – odalar vardı. O tərəfdəki böyük Təpəgöz mağarası da çocuqların sevimli əyləncə yerlərindən idi. Burada elektron cihazlarla idarə olunan nəhəng Təpəgöz fiqurunu görəndə uşaqlar azacıq vahimələnir, sonra Təpəgözün çıxardığı oyunlardan həzz alıb doyunca gülüşürdülər.

"Bulud" hərəkət etdikcə Qorqud dağının zirvəsi daha aydın görünürdü. Bu zirvədə ucalan nəhəng Dədə Qorqud abidələr kompleksinin siluetləri aydın seçilirdi. Dədə Qorqud kompleksi beş ayrı heykəl-sücetdən ibarət idi. Qopuzlu Dədə Qorqud özü, yağıları at belində zəbun edən Salur Qazan, Qırx incə belli qızla Burla xatun, bağlandığı böyük ağacı köklü-köməcli yerindən çıxaran Qaraca çoban və Beyrəklə Banuçiçək.

"Bulud" hərlənir və Məlik burdan görə bilmədiyi, amma qarış-qarış gəzdiyi yerləri xəyalında canlandırırdı. Səngəçaldan çıxan dəniz tramvayları Qaradağ, Şıx çimərliyi, Bibi-heybət, Bayıl və şəhərin mərkəzindəki duraqlardan keçərək Əhmədli, Günəşli, Zığ, Hövsan, Türkandan ötüb son dayanacaqlarına Şah dilindəki 100-cü buruğa çatırdılar. Uzun illər istifadəsiz qalmış Yüzüncü buruq da turistlər üçün görməli yerlərdən biri idi. Liftlə ya pilləkənlə buruğun təpəsinə qalxan turistlər dəniz durbinləri vasitəsilə bütün Abşeronu seyr edə bilərdilər. Yaxın vaxtlarda dəniz tramvayları Şah dilini də burulub qüzey Abşeron qəsəbələrinə, oradan Corat bağlarına və Sumqayıta qədər işləyəcəkdi.

Məlik Lökbatanın, Çeildağın vulkanlarını təsəvvüründə canlandırdı, təsəvvüründəcə daha uzaqlara – Ceyranbatan qoruğuna çatdı. Bilirdi ki, bu bayram günü orada xüsusi ayrılmış yerlərdə pikniklər – çölçü məclisləri qurulacaq, *Özün bişir, özün ye* guşələrində manqallardan qalxan tüstü, təndirlərdə yapılan çörəklər, kabab iyi, çal-çağır...

– Burnuna kabab iyi dəyməsin – deyə Məlik öz-özünü xəyallar aləmindən ayırdı – pendir-çörəyini ye, vaxta az qalıb. "Bulud" onun baxışlarını şəhər məhəllələrindən bir-bir keçirirdi. Uzaqdan öz otuzmərtəbəlik binalarını da sezdi, Qaçaqlar dağında Razin mağarası da yadına düşdü, Günəşlinin yeni göydələnlərini də gördü, Zığın Zeytun meşəsini də...

"Bulud" bayaqkı nöqtəsinə gəlmişdi və Məlik yenidən Azadlıq meydanına, Odlar sarayına baxmağa başladı.

Azadlıq meydanının yerinə Şeyx Səfi xalçasının min dəfə böyüdülmüş əksi rəngli daşlarla düzülmüşdü. Meydanın qarşısında, bulvarda çağdaş Azərbaycan istiqlalının beşiyi Gəncədən gətirilmiş nə bilim neçə əsrlik Xan Çinar, onun iki tərəfindən isə iki çinar pöhrəsi əkilmişdi. Bəzi şərhçilər bu pöhrələri Azadlıq və Məsuliyyət çinarları adlandırırdı ki, Azərbaycanın rəmzi olan Xan Çinar bu iki duyğunun – Azadlıq və Məsuliyyət duyğularının arasında daima baqi qala bilər. Pöhrə çinarlar isə il-ildən ucalaraq haçansa Xan Çinara boy verəcəkdi.

Məliyin yadına düşdü ki, elə burdaca Xan Çinarın altında bir göstərici qoyulub – məsafə göstəricisi. Yollar bu nöqtədən hesablanırdı.

Göstəricədə bu nöqtədən altı ox – altı istiqamətdə ən ucqar yerlərə olan məsafələr kilometrlər və dəniz millərilə qeyd olunmuşdu. Şərq istiqamətində – Şah dəniz, Şimal istiqamətində Dərbənd, Şimal-Qərb istiqamətində Sınıq körpü, Qərb istiqamətində Sədərək, Cənub-Qərb istiqamətində Urmiyə, Cənub istiqamətində Zəncana qədər olan məsafələr.

Odlar sarayının fasadında, haçansa Leninin heykəli ucalan yerdə indi rəmzi bir fiqur ucalırdı: 90-cı illərin meydan günlərində üçrəngli bayrağı bura sancan igidin məşhur fotosuna əsasən yaradılmış heykəlsal divara dırmaşan adam və əlində üçrəngli bayraq. Heykəl daşdandı, əlindəki üçrəngli bayraq isə real bayraq idi, parçadan.

Məmməd Əmin Rəsulzadənin məşhur sözləri də bura həkk olunmuşdu: Bir dəfə ucalan bayraq bir daha enməz.

Odlar sarayının əsaslı rekonstruksiyasından sonra Milli Məclis burada yerləşirdi. Milli Məclisin iclas salonunda Dövlət bayrağı və gerbiylə bərabər, Ana Yasanın əsas müddəaları da həkk olunmuşdu:

Birləşmiş Azərbaycan Respublikası Azəri türk millətinin vahid, azad, müstəqil, demokratik, dünyəvi dövlətidir. Azərbaycan Respublikasının bütün vətəndaşları irqindən, millətindən, dilindən, dinindən, sosial durumundan, sinfi mənsubiyyətindən, cinsindən asılı olmayaraq bərabər hüquqlara malikdirlər. Azərbaycan böyük Türk dünyasının ayrılmaz parçasıdır. Azərbaycan xalqı bütün türk xalqlarıyla və ölkədə yaşayan bütün milli azlıqlarla qardaşdır. Azərbaycan dünyanın bütün xalqlarıyla barış, dostluq, bütün dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlıq şəraitində yaşamaq niyyətindədir.

Əlbəttə, bu müddəalar müəyyən diskussiyalara, mübahisələrə səbəb oldu, amma Milli Məclisdəki partiyaların və bitərəflərin ümumi razılaşması nəticəsində qəbul olundu.

Sağ və sol partiyalar bir vacib məsələdə də razılığa gələ bildi, dördü birlikdə hökümətə müraciət etdilər. Hökümət bu müraciətə müsbət yanaşdı və indi şəhərin mərkəzində ucaldılmış əzəmətli Panteonda – MİLLİ BARIŞ məqbərəsində dörd böyük siyasi xadimin məzarları yerləşir: Məmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşinin, Fətəli xan Xoylunun və Nəriman Nərimanov nəşləri o dövlətlərlə danışıqlar nəticəsində Ankaradan, Parisdən, Tiflisdən və Moskvadan Bakıya gətirilib burada torpağa tapşırıldı. Seyid Cəfər Pişəvərinin nəşi isə Təbrizə köçürüldü və möhtəşəm türbədə dəfn olundu.

Nəsiminin, Füzulinin Azərbaycana gətirilməsi bir qədər çətinliklərlə üzləşsə də axır ki, onların da, Mirzə Fətəlinin də nəşləri Bakıya gətirildi.

Şəhərin dağlıq hissəsində Nəsimi, Füzuli və Mirzə Fətəlinin türbələri yan-yanaşı ucalırdı, Nəsiminin və Füzulinin türbələri ənənvi Şərq memarlığı üslubundaydısa, Mirzə Fətəlinin türbəsi ən yeni modern Qərb memarlığı yönündə tikilib və bu da uzun zaman dartışmalara, mübahisələrə səbəb oldu. Amma indi artıq gözlər bu üç türbənin qonşuluğuna çoxdan alışıb və mübahisələr də unudulub gedib.

"Bulud" hərlənərək baxış nöqtəsini bir qədər də dəyişdi və Məliyin diqqətini indi də "Dəyirman" univermağı çəkdi. Köhnə dəyirmanın binasında yerləşən bu super dükanın qarşısında bir ay qabaq Abşeron üçün səciyyəvi olan rəngbərəng pərli yel dəyirmanları qoymuşdular və onlar binaya ayrı yaraşıq verirdi. "Dəyirman" Bakının iki ən böyük Univermağından biri idi və "Karvan" univermağıyla rəqabət aparırdı.

"Karvan" univermağının damında gecələr işıqlı məftillər vasitəsilə dəvə karvanının ləngərli hərəkətini əks etdirən reklamın qarşısında "Dəyirman" da indi bu əlvan yel dəyirmanlarını çıxarmışdı.

"Dəyirmandan" bir qədər bu tərəfə 18-ci il mart bağı görünürdü. Haçansa 26-lar bağı adlanan bu yerdə 1918-ci ilin mart günlərində minlərlə Azərbaycanlı qırmışdılar. İndi burada qoyulmuş Kədər heykəli də, hər saatdan bir səslənən Qara Qarayev rekviyemi də həqiqi ünvanını tapmışdı. O vaxt inqilabçı sayılan və xüsusi əzazilliyiylə fərqlənən bir neçə şəxsin də möcüzəvi şəkildə hifz olunub qalmış heykəllərini, bir çoxların istəyinə uymayaraq məhv etməmişdilər.

Haçansa məşum "KQB" binasının – indi Repressiya qurbanları muzeyinin həyətinə yığmışdılar onları. Bura ölümə göndərilən insanların yerinə indi özləri – ölümə göndərənlər – heykəl şəklində olsa da – burada dustaq idi, ömürlük-əbədi cəza müddətlərini çəkirdilər.

Məlik saatına baxdı – birin yarısı idi. İlin təhvil olacağı vaxta düz bir saat on iki dəqiqə qalırdı.

Çayçı Məliyin kredit kartını qeyd elədi və o, sağollaşıb liftə girdi, zirzəmi düyməsini basdı, liftdən çıxıb vaqonetə mindi və yeraltı yolun relsləriylə "Çağdaş"ın zirzəmisinə çatdı, buranın liftinə minib yeddinci mərtəbəyə qalxdı.

Onun daimi köməkçisi, pult rejissoru Ərxan artıq yerindəydi. Görüşdülər, bir-birinin bayramın təbrik etdilər.

Məlik kürsüsünə əyləşib monitorlara baxmağa başladı. Yanardağdan Qız qalasınacan yol boyu müxtəlif yerləri əks etdirən görüntüləri bir-bir gözdən keçirdi.

Ərxandan:

– Bəs Yanardağ hanı? – deyə soruşdu.

Ərxan: – Odey, birinci monitorda – dedi.

Məlik: – Bu "Yanardağ" motelidir, motel mənim nəyimə lazımdır, unutmusan ki, əsas obyekt yerdən çıxan odlardır.

Ərxan: – O da var – dedi – ehtiyat monitorda. Elə bildim moteldən başlayacayıq – bir qədər pərt kimi olmuşdu Ərxan.

Məliyin bu cavan və bacarıqlı köməkçisinə xoş münasibəti vardı, söhbəti zarafata salmaq istədi, – Yəqin – dedi – Yanardağ motelindəki qaraçı rəqslərinin xəyalına dalmısan.

Ərxan: – "Yanardağ" motelində qaraçı rəqsləri olmur – dedi – Atəş rəqsləri olur. Qaraçılar "Qaraçı" karvansarasında çıxış edir.

– O haradır elə?

– Qobustanda. Sofi Həmid – qoruq qəbiristanlığından bir az yuxarıda. Heç olmamısınız?

Məlik: – Yox – dedi – elə yerlər siz cavanlar üçündür. – Amma fikirləşdi ki, mütləq macal eləyib bu Qaraçı karvansarasına baş çəkməlidir. – Qobustandadır deyirsən?

– Bəli.

Məlik Qobustana axırıncı dəfə keçən yay İşıq – səs tamaşasına baxmaq üçün getmişdi. Hər bazar günü göstərilən bu doğrudan da fantastik tamaşaya baxmağa dəyərdi. Adam əlindən tərpənmək olmurdu.

Dəniz tramvayları, avtobuslar, maşınlar, hətta dikuçarlar bura axın-axın tamaşaçı daşıyırdı. Ekzotikanı sevən əcnəbi turistlər isə qədim at arabalarında, faytonlarda, dəvələrin gəcavələrində gəlirdilər.

Ərxan:

– Bu da odlar – dedi.

İndi birinci monitorda Yanardağın yerdən çıxan atəşləri görünürdü.

– Bir az da iri planda götürsünlər.

On dəqiqədən, yox, artıq səkkiz dəqiqədən sonra Ağ atlı, ağ buxara papaqlı, ağ çuxalı oğlan – onun adı mütləq Novruz olmalıydı, bu il lap gül eləmişdilər – adı Novruz, soyadı Bayramlı idi, bəli bu ağ atlı Novruz Bayramlı Yanardağın odlarından məşəl yandırmalı və dörd nala çaparaq Bakıya gətirməli idi məşəli, Qız qalasının təpəsinə çıxıb oradakı Böyük Çırağı yandırmalıydı. Özü də düz il təhvil olan anda – dəqiqəsinə yox, saniyəsinə söz ola bilməzdi.

Məlik elektron yaddaş dəftərində xronometraja baxdı. – Hazır olun, başladıq – dedi.

Ərxanın səsi gəldi: – Hazır – sonra bir dəqiqədən sonra – Məlik bəy, efirdəsiniz – dedi.

Məlik:

– Salam, sevgili tamaşaçılar – dedi – Bayramınız mübarək. Bu gözəl bayram və bütün gələcək günləriniz, aylarınız, illəriniz xoş keçsin.

Qoy qarşıdan gələn ilimiz də yola saldığımız il kimi hamımız üçün, bütün xalqımız, dövlətimiz üçün uğurlu olsun. "Çağdaş" televiziyasıyla bu xoş bayramın bütün həyəcanlı və fərəhli anlarını yaşaya biləcəksiniz. İndi kameralarımız Yanardağdan görüntülər göstərir. Torpağımızın dərinliklərindən qalxan və əbədi yanan bu təbii alovlar vətənimizin Odlar yurdu adlandırılmasına səbəb olub. İndi də bu torpağın özündən alınan alov Bakıya – tariximizin iftixarı olan Qız qalasına çatdırılacaq – deyəsən bir az təm-təraqlı oldu – deyə Məlik özözünü qınadı və daha sakit tonla davam elədi: – Burdan alışdırılan məşəli Bakıya ağ atlı oğlan Novruz Bayramlı yetirəcək.

Məlik düyməni basdı və kadr arxasından diktor Novruz Bayramlı haqqında qısa məlumat oxudu, eyni zamanda bu mətn ekranda da yazıldı:Anadan olduğu il, ay, gün, doğulduğu yer, təhsili, peşəsi, ailə vəziyyəti və sairə. At çapma üzrə idman ustası olması da qeyd olundu.

Məlik dünən Novruzun bilgisayarda müxtəlif şəkillərinə baxmışdı, amma nədisə indi monitorda oğlan daha da yaraşıqlı görünürdü – boy-buxun, nazik bığlar, çatma qaşlar. Ağ qiyafəsi də çox yaraşırdı bu 22 yaşlı oğlana. Altındakı ağ cins Qarabağ köhləni yerində oynayırdı.

Düz xronometrajla müəyyənləşdirilmiş anda ağ atlı oğlan odlara yanaşdı, məşəlini uzadıb alovlandırdı və dörd-nala çapmağa başladı.

Yol boyu düzülmüş kameralar Novruz Bayramlının irəliləyişini addım-addım izləyir, Məlik gah onun keçdiyi yerlərdən, gah da Novruz bayramı haqqında söhbətlər edirdi.

Ağ atlı oğlan Şubanı dağının ətəyindən çapıb qədim Karvan yoluyla Qurd qapısına üz tutdu.

Səkkizinci monitorun düyməsini basdı, ekranlarda Qurd qapısında qoyulmuş Boz qurd heykəli göründü. Məlik şərh etməyə başladı, Boz Qurd totemінin türk xalqları üçün nə anlam daşıdığından danışdı. Sonra kameraları 15 eylul memorialına çevirməyi tapşırdı.

– Əziz tamaşaçılar, bu yerlər əlbəttə sizə yaxşı tanışdır. Dəfələrlə bu memorialdan verilişlər vermişik, siz də yəqin dönə-dönə bura ekskursiyalara gəlmisiniz. 1918-ci il sentyabrın 15-də – bilirsiz ki, Türkiyə türkləri sentyabra eylul deyirlər, – İslam Qafqaz Ordusu məhz bu yerdən Bakıya girmiş və gənc Azərbaycan ordusunun döyüşçüləriylə çiyin-çiyinə şəhəri düşmənlərdən azad etmişdir. İndi bu memorialda bildiyiniz kimi Bakı uğrunda döyüşün diaraması qurulub. Diaramda bu zəfər yürüşünün təşəbbüsçüsü Ənvər paşanın və zəfər komandanları Nuru paşanın, Mürsəl paşanın surətləri var.

Buradan başlanan və bir-biriylə kəsişən üç geniş prospekt də onların şərəfinə adlandırılıb – Ənvər paşa prospekti, Nuru paşa prospekti, Mürsəl paşa prospekti... Ağ atlı Novruz məhz bu prospektlərdən keçəcəkdir. Görürsünüzmü, indi o yoxuşla Qurd qapısına tərəf çapır. Qapını ötdü. Mürsəl paşa prospektiylə 15 eylul meydanına üz tutdu.

Məlik bilirdi ki, bu meydan 15 eylul meydanı adlansa da, camaatın çoxu Eylulu iyulla qarışdırdıqları və Bakının Qurtuluş gününün sentyabrda olduğunu bildikləri üçün bu meydana ya üç paşa meydanı (üç prospekt burda qovuşurdu) ya da meydanda ucalan türk əsgərinin heykəlinə görə Məhmətcik meydanı deyirdilər.

Məlik əlindəki pultun düymələrini bir-bir basmağa başladı, görəsən o biri kanallar nə göstərir? AZRT – rəsmi təbriklər verirdi, "Turan"

Daşkənddən, Qazandan və Aşqabaddan, Araz Təbrizdən bayram görüntüləri göstərirdi. "Hilal"da, bayramın dini kökləri haqqında danışırdılar. "Ulduz" Ağ atlının yolunu izləyir, arada reklamlar və kliplər verirdi.

Ağ atlı artıq Azərneft meydanına enirdi, Məlik:

– Azərneft meydanında Buruğu iri planda götür, sonra ayrıca mancanağı – deyə göstəriş verdi.

Efir düyməsini basıb: – əziz dinləyicilər – dedi – Siz indi ekranlarınızda Azərneft meydanındakı buruğu görürsünüz. Bu buruq və onun daima hərəkətdə olan, gecə-gündüz durub dayanmadan qalxıb enən mancanağı (ekranda mancanağın iri planı göstərildi) torpaq və dəniz altındakı neft sərvətlərimizin tükənməzliyinin və onları üzə çıxaran neftçilərimizin şərəfli əməyinin rəmzidir. İndi Novruz Bayramlı bu meydana çıxacaq və meydanda dövrə vurub Xəzər prospektiylə Qız qalasına tərəf çapacaq. Görürsünüz bu an bütün prospektdə nəqliyyat hərəkəti dayandırılıb. Xəzər bulvarından da, qarşı tərəfdən də minlərlə insan Ağ atlının gəlişini gözləyir. – Efirdən çıxıb Ərxana dedi: – Qız qalasını götürün, əvvəl ümumi plan, sonra aşağı panorama.

Yenidən efirə çıxdı: – Neft sərvətimiz kimi mədəni, tarixi sərvətlərimiz də əbədidir. Budur uzaq minilliklərin yadigarı qədim Qız qalası. Onun ətəyində əlvan paltarlı qırx incə belli qızların əllərindəki səmənilər, rəngbərəng şamlar, bayram xonçaları bu şənliyə ayrı gözəllik verir.

Qızların arasından biri irəli çıxdı.

Məlik: – Bu da yaşıl paltarlı Bahar xatun. Görürsünüz, Novruz Qız qalasının ətəyində atdan düşür, Bahar xatunun təqdim etdiyi kuzədən şərbət içir, sonra əlindəki məşəli daha da ucaya qaldıraraq qalaya daxil olur.

Ərxan: – Qalanın içiylə, pilləkənlərlə qalxmasını göstərək? – deyə xəbər aldı – orda da kameralarımız qurulub.

Məlik: – Yox – dedi – qalanın içində alaqaranlıq kadrlar nəyimizə gərəkdir. Camaatı göstərin, sonra da qalanın damını, oğlan məşəllə birdən orda göründəndə daha effektli olar. – Mənalı gülümsündü – sonra da dərhal bizim sürpriz – dedi.

Sürpriz dedikləri Məliyin kiçik bicliyi idi. Qız qalasının damında Ağ atlı oğlan hər yerdən görünən çırağı odladığı anda – düz ilin təhvil olduğu saniyədə – eyni bir anda Abşeronun dörd qalasının – Nardaran, Ramana, Mərdəkan qalalarının, eləcə də Dərbənddə Narın qalanın,

İlisuda Şamil qalasının, Şəkidə Gələssən Görəssən qalasının, Dəvəçidə Çıraq qalanın, Qarabağda Əsgəran, Naxçıvanda Əlincə, Şamaxıda Gülüstan, Lahıcda Niyal, Güneydə Bəzz, Təbrizdə Ərk qalalarının zirvələrində məşəllər alışacaqdı. Bildir də, inişil də belə olmuşdu və Məlik o vaxt operatorlarına hamısını çəkməyi tapşırmışdı, lenti saxlayırdı. İndi Qız qalasında çıraq alışan kimi dalbadal bu ötən illərin görüntülərini göstərəcəkdi, tamaşaçıda elə təsəvvür yaranacaqdı ki, bütün bunlar bax indi, bu dəqiqə baş verir. Balaca bicliyi – sürprizi bu idi. Azacıq saxtakarlıq olsa da, yalan şey ki, təqdim etmirdi. Bütün bunlar bildir, inişil olduğu kimi indi də, bax bu dəqiqələrdə də baş verir. – Məlik məmnun-məmnun gülümsədi: Hər halda o biri kanallara doqquz qoyduq.

Böyük çıraq alışdı, İl təhvil oldu.

Bundan sonra şənliklər başlanacaqdı. Bu səfər Məlik şəhərin müxtəlif yerlərində keçirilən tədbirləri deyil, yalnız İçərişəhərdəkiləri ekrana gətirməyi qərarlaşdırmışdı.

Qız qalasının arxasında bazar meydanında tərəfdən-tərəfə çəkilmiş tarım iplərin üstündə kəndirbazlar öz məharətlərini nümayiş etdirirdilər. Bakı xanlarının bərpa olunmuş iqamətgahlarında Köhnə Bakı muzeyi yerləşirdi: mum fiqurları düzəldilmiş qoçu, dərviş, hambal (hambal Dadaş, Qoçu Nəcəfqulu, Lotu Cabbar), eləcə də fayton, qazalaq, konka kimi eksponatları olan, orta əsr Avropa rəssamlarının Bakını təsvir edən qravürləri, əsgi Bakının ilk foto-mənzərələri, Əzim Əzimzadənin karikatürləriylə süslənmiş muzey. Muzeyin qarşısındakı meydanda Keçəl və Kosa toplaşanları güldürürdü. Qoşa qala qapısından bura axın-axın insanlar gəlirdi.

Şirvanşahlar sarayında, xalça-palaz döşənmiş hamam hücrələrində güləşlər, qılınc oyunları göstərilirdi.

Dəstə-dəstə turistlər bilmirdilər hara baxsınlar bu oyunların, tamaşaların hansına? Qarşısında Məşədi İbadın paralon mulyajı qoyulmuş qənnadı dükanınamı baş çəksinlər, ya qarşısında eyni cür Hacı Qara fiquru görünən xırdavat dükanınamı? Bəlkə Dərviş ya Xarabat meyxanalarında vaxt keçirsinlər?

Məlik: – Proqramın ardını özün apar – deyə Ərxana lazımı tapşırıqlar verdi – Mən Türkana getməliyəm, onsuz da gecikirəm. Bir də hamınızın bayramı mübarək!

Avtosunu işə salıb Xəzər prospektinə endi. Prospekt artıq nəqliyyatçün açılmışdı, amma yaman basırıq idi. Azadlıq meydanından keçib Qara şəhərə çıxandan sonra nəqliyyat bir az seyrəldi.

Avtosunun qutusundan kaset çıxarıb maqnitofona saldı, düyməni basdı. Baxın Çakonası səslənməyə başladı. Məliyin ən çox sevdiyi musiqi əsərlərindəndi.

Universitetlər şəhərciyi Hovsan da arxada qaldı, indi sahil yoluyla Türkana tərəf irəliləyirdi. Maqnitofonda Məliyin çox sevdiyi başqa bir əsər – Albinioninin Adajiosu səslənirdi. Məlik bu əsərlərin müəlliflə-ri barədə – Bax və Albinioni barədə düşündü. Bu dahiləri Məliyə bu qədər yaxın, doğma, munis edən nəydi? Onları əsrlərin məsafəsi ayırırdı, zaman, məkan, mühit, adət-ənənələr, mədəni irs, gələnəklər, davranış qaydaları, ədaları, bir sözlə hər şey, hər şey tamam başqa idi... Amma Məliyi mat qoyan o idi ki, bu kamzollu, dar pantolonlu, yaxası jabolu, başında pudralı parik olan insanlar – Bax, Albinioni, Vivaldi, Korelli, Motsart onun, Məliyin duyğularını necə də ülvi səslərlə ifadə edə biliblər. Sanki bu uzaq ellərin, uzaq zamanların insanları onun, Məlik Məmmədlinin, XXI əsr Azəri türkünün ən dəruni hisslərini duya və belə ecazkar melodilərlə səsləndirə bilmişlər. Bu möcüzə deyildimi? Uzaq əsrlərin möcüzəsi...

Amma ağlına gəldi ki, bunları burada, avtosunda dinləyə bilməsi də XX-XXI əsrlərin möcüzəsidir. Nazik mixəyi lent dolanmış kiçicik kaseti cihazın içinə salırsan və bir-birindən gözəl səslər, melodilər aləmi canlanır – yəqin o dövrün insanları da bu möcüzəyə mat qalardı.

Avtonun açıq pəncərələrindən xəfif gilavar Məliyin saçlarını yumşaq-yumşaq tumarlayırdı. Atobanın sağ tərəfində iri hərflərlə yazılmış TÜRKAN sözünü gördü.

Keçmiş qəsəbənin yerində salınmış Türkan şəhəri – müəyyən anlamda Türk dünyasının mənəvi mərkəziydi. Bir çox ümumtürk iqtisadiyyat, mədəniyyət, maliyə, KİV strukturları, müstəqil və muxtar Türk respublikalarının səfirlikləri, daimi nümayəndəlikləri burada yerləşirdi.

Türkanın girəcəyində yol haçalanırdı. Üst yol Dinlər meydanına aparırdı – burada Türkiyə dövlətinin inşa etdiyi əzəmətli Əhməd Yəsəvi məscidi, onun yanında xristian qaqauzlar üçün tikdirilmiş kiçik kilsə – sövmiyyə, qarşı tərəfdə yəhudi Qaraimlərin sinaqoqu, Tuvanın hədiyyə etdiyi Budda məbədi və Yakutların şaman otağı yerləşirdi.

Dinlər meydanından bir az aralı Manas idman kompleksində qapalı və açıq yarış, oyun meydançaları, üzgüçülük hovuzları vardı. İdman zonasından başlanan – bir ucu Türkan hava alanına, bir ucu Binə hava limanının yaxınlığındakı İpək yolu – fuarına – yarmarkasına qədər uzanan Ötükən ormanını Türk dünyasının hər guşəsindən gətirilib burda əkilmiş və nə yaxşı ki, tutmuş müxtəlif ağaclar bəzəyirdi. İpək yolu fuarında yalnız Türk dünyasından deyil, planetin hər yerindən gətirilən mallar nümayiş etdirilir və satılırdı. Nə yoxdu burda – Qazax-qırğız dombralarından tutmuş Dağıstan yapıncılarınadək, özbək xələtlərindən türkmən – ahal təkə atlarınacan, Çin kaşısı, Kaşan xalçaları, ərəb ədviyyatı, yapon şirmaları, Hindistan ətirli sandal çubuqları, hətta Afrika masqaları tapmaq olardı burda. Qərbin, Yaponiyanın, Koreyanın ən yeni texnologiyaları müxtəlif şirkətlərin diqqətini çəkirdi. "Aral", "İssık göl", "Altay", "Mərmərə", "Ağrı dağ" restoran, kafe və barlarında qazax Beşbarmağından, özbək plovundan Türkiyə türklərinin imambayıldısınacan hər növ təamı dadmaq olardı, qımız da içmək olardı, Zəm-zəm suyu da, yaşıl özbək çayı da...

Bütün bu mallar ya hava yoluyla Türkan hava alanına, ya gəmibərələrlə Türkan bərə limanına, yaxud da Türkan dəmir yol vağzalına qatarlarla çatdırılırdı. Uluslararası Binə hava limanından dünyanın hər yerinə uçmaq olardı, Türkan hava alanına qonan və oradan qalxan "Bayqonur" uçaqları Türk dövlətlərinin paytaxtları və böyük şəhərləriylə gediş-gəlişi təmin edirdi.

Yollar ayrıcında Məlik sağa burulub Salavat Yulayev küçəsindən Orxon meydanına daxil oldu. Bu meydan dairəvi şəkildə qurulmuşdu. Meydanın tən ortasında üç Orxon kitabəsinin – Böyük, Kiçik Gültəkin, Tonüquq yazılarının on dəfə böyüdülmüş daş kopiyaları qoyulmuşdu. Meydanı dövrələmə müxtəlif ölçülü dörd bina əhatə edirdi: Universitet, Teatr, Elmi Mərkəz və Kitabxana binaları. Kamal Atatürk Universitetində bütün türk xalqlarının ölkəşünaslığı, tarixi, dili, ədəbiyyatı, coğrafiyası və iqtisadiyyatı üzrə mütəxəssislər hazırlanırdı. Müxtəlif ölkələrin teatr tamaşaları adətən Nazım Hikmət teatrında oynanılırdı. Bu axşam burda Kürd teatrının "Məhəmməd Qazi" tamaşası göstərilirdi.

Mahmud Qaşqarlı Türk Dünyası Araşdırmalar Mərkəzində türklərin ortaq tarixi, ortaq ədəbiyyat tarixləri üzrə tədqiqatlar aparılır, ortaq və ikitərəfli lüğətlər, Ümumi Türk Ensiklopediyası hazırlanır, əlifba,

dil və terminoloji uyğunlaşdırma komissiyası işləyirdi. Fərabi kitabxanasında Bakının, İstanbulun, Daşkəndin, Tehranın, Bağdadın, Qahirənin, Moskvanın, Peterburqun, Vaşinqtonun, Nyu-Yorkun, Londonun, Parisin, Berlinin, Romanın, Vyananın ən böyük kitabxanalarından, Matenadarandan türkolojiyə aid bütün kitabların, əlyazmaların mikrofilmlərindən, bilgisayarda yerləşdirilmiş surətlərindən istifadə etmək olardı.

Məlik Orxon meydanından Hunlar bulvarına çıxdı. Bulvarın sağ tərəfində 20 müstəqil və muxtar türk respublikasının səfirlikləri və daimi nümayəndəlikləri yerləşirdi. Sol tərəfdə isə Yusif Balasaqunlunun, Yunis İmrənin, Əlişir Nəvainin, Məhdumqulunun, Abayın, Abdulla Tuqayın və Qasparalı İsmayılın adlarını daşıyan uyqur, Anadolu, cağatay, qazax-qırğız, İdil-Ural və Krım-tatar mədəniyyət mərkəzləri fəaliyyət göstərir. İki qonşu binada – Ziya Göy alp ocağında və Sultanqaliyev klubunda sağ və sol təmayüllü siyasətçilər toplaşır, çeşidli məsələlər haqqında qızğın mübahisələr aparırdılar.

Hunlar bulvarından Oğuz meydanına çıxdı. Orxon meydanından fərqli olaraq bu meydan kvadrat şəklində idi və Səmərqəndin Registan meydanı üslubunda tikilmişdi. Meydanın forması da, binaların memarlığı da, kaşı üzlüklər də Səmərqəndi, Buxaranı, Xivəni andırırdı. İki tərəfdən iki ekiz uca bina "Turan" oteli və "Erkenekon" sarayı, onların arasında Türk muzeyi yerləşirdi, dördüncü tərəf boş qalmışdı – dənizə açıqdı.

"Turan" otelinin qarşısında tarixi türk imperiyalarının, dövlətlərinin sancaqları və tuğları görünürdü. "Erkenekon" sarayının qarşısında çağdaş türk respublikalarının bayraqları dalğalanırdı. "Erkenekon" sarayında Türk dünyasının iqtisadiyyat, mədəniyyət, elm, təhsil, informasiya, maliyyə, səhiyyə və idman komissiyaları yerləşirdi. Hava şirkətlərinin və turist təşkilatlarının büroları, xəbər ajansları və mətbuat-televiziya müxbirlərinin ofisləri də bu binadaydı. Mühüm tədbirlər böyük iclas salonunda keçirilirdi.

Məlik "Ceyran"ını muzeyin qarşısında saxladı, açarları avtomobil xidmətçisinə verdi. Üstündə "Türk dünyasının sərvətləri sərgisi – 22 mart – 22 aprel" yazılmış afişin yanından keçdi, jurnalist kitabçasını göstərib muzeyə daxil oldu. Açılışa gecikmişdi, amma yenə də adam əlindən tərpənmək olmurdu.

Böyük foyedə nümayiş etdirilən Şeyx Səfi xalçasının qarşısında xüsusi qalabalıq vardı. Məlik bu xalını Londonda Viktoriya və Albert

muzeyində görmüşdü, amma o yarıqaranlıq salondan fərqli olaraq burada, bol işıqlı yerdə Şeyx Səfi xalçası rəng verib rəng alırdı. Bəlkə Vətənə döndüyündən belə bərq vurur. Məlik: Yenə pafosa qapılma cənab Məmmədli – deyə özünü məzəmmmət elədi, – həm də ki, həmişəlik qayıtmayıb: cəmisi bir aylığa.

Uzun və üzücü danışıqlardan sonra Böyük Britaniya hökuməti bir aylığa xalçanın Bakıda nümayiş etdirilməsinə icazə vermişdi, özü də böyük mühafizəçi dəstəsinin müşayiətilə. Dünyanın ən qədim xalısı sayılan Paızırıq xalçası da ciddi mühafizə olunurudu – süzülüb dağılmış bu xalça güllədeşməz şüşənin arxasında asılmışdı.

Qazaxıstandan göndərilmiş Qızıl döyüşçü də eyni cür gülləkeçməz şüşələr arxasında idi, Drezdendən və Vatikandan gətirilmiş Kitabi Dədəm Qorqud əlyazmaları da. Xeyli adam Piri Rəis xəritəsinin qarşısında qulaq bələdçilərinin müxtəlif dillərdə izahatını dinləyirdilər, Piri Rəisin Kolumbun kəşfindən çox qabaq Amerika qitəsini xəritətsində göstərdiyinə ən çox təəccüb qalanlar yuxarı sinif şagirdləri və əcnəbi turistlər, özəlliklə amerikalılar idi.

Məlik elektron yaddaş dəftərçəsində lazımı qeydlər etdi, arxayın vaxta gəlib yaxşı bir proqram düzəltmək olar – deyə düşündü və muzeydən aralandı.

Bu səfər Güney sahil yoluyla deyil, Kəmər yoluyla Bakıya tərəf gedirdi, gecə-gündüzün tarazlaşdığı 22 mart gününün alatoranlığı idi. Məliyin ağlına gəldi ki, səhərdən heç nə yeməyib. Yol boyu yerləşən restoranları bir-bir yadına saldı. Amma artıq qərarını vermişdi: buralara yolu düşəndə hökmən Zığ yamacında yerləşən "Aylı gecələr" parkının "Bakı gecələri" restoranına gedərdi. Bu axşam da şam yeməyini orda yeyəcəkdi. Bu restoranı çox sevirdi. Əlbəttə mətbəxi sarıdan daha ləzzətli, hətta ekzotik restoranlar da var, amma Məliyi "Bakı gecələri"nin menyusu deyil, eyvanından açılan mənzərə cəlb edirdi. Sonsuz məhəbbətlə sevdiyi şəhərə adətən ya çox yuxarılardan ya da üzü dənizə durularsa sağ cinahdan baxardı. Şəhəri məhz bu səmtdən görmək imkanı hər gün olmurdu. Bura yolu düşəndə "Aylı gecələr" parkından, "Bakı gecələri" restoranının açıq eyvanından saatlarla Bakının gündə vərdiş etmədiyi görünüşünü seyr etməkdən zövq alırdı.

Sifarişini verdi, amma yeyib-içəndən sonra da durub getmək istəmirdi. "Qıpçaq" şərabını qurtum-qurtum içərək çil-çıraq içində alışıb-yanan şəhərə, Xəzər, Füzuli bulvarlarında işıq seli kimi axan nəqliy-

yat karvanlarına, yelkənli qayıqların, əlvan gəmilərin belədən – belə şütüdüyü dənizə, Nərgiz adasının Şeytan çarxına – Göy qurşağına hey baxır, baxırdı.

Ağ Abşeron daşından bərpa olunmuş Səbail qəsri sanki dənizdən yox, əfsanələrdən, keçmişin, tarixin bağırından çıxıb qalxmışdı suların ortasında. Bayılda, Çənlibel qala-otelində qurulmuş güclü projektorlar Səbaili işıqlandırdıqca adam gördüklərinin həqiqətmi yuxumu olduğunu təyin edə bilmirdi. Məlik bilirdi ki, bir azdan Səbail qəsrində şeir gecəsi başlanacaq, görəsən şairlərimiz bu əfsanə-qəsrə layiq şeirlər yaza bilibmi?

Dənizdə üzən bəzi qayıqlarda bir-bir məşəllər alışmağa başlandı. Məlik: Bax bu təzə məsələdir – deyə düşündü – nə əcəb xəbər tutmamışam. – Belə bir tamaşa ilk dəfə idi. Yəqin Aleksandr Dümanın Bakıda, dənizdə odlar görməsi haqqında xatirələrini oxuyub, ilhamlanıblar. Hər halda kimin ağlına gəlibsə əhsən ona.

Bu dəqiqəni gözləsə də hər halda qəfil yaylım atəşlərindən diksindi, "Babək" və "Səttarxan" hərbi müdafiə gəmilərindən göyə rəngbərəng fişənglər atılmağa başlandı. Fişənglər əlvan kül dəmətləri kimi havaya topa-topa ucalır, sonra göydəcə dağılıb müxtəlif tərəflərə səpələnirdilər.

Nə qəribə, bütün bu əlvan bayram mənzərələri, hər tərəfdən səslənən oynaq, şən, nikbin musiqi sədaları, hara baxsan gördüyün gülər sifətlər içində Məlik birdən-birə qəfil qüssə hissi duydu. Nə idi buna səbəb? Qayibdən gələn bir səsmi, elektron poçtlarla, telcqrafla, efir dalğalarıyla deyil, nə isə məchul bir vasitəylə ona, Məliyə çatdırılan ismarışmı, həyatın faniliyi, ömrün ötücülüyü haqqında ayıq-sayıq xəbərdarlıqmı? Son illər dünya təbabətının görünməmiş uğurları nəticəsində dünyanın bütün qabaqcıl ölkələrində olduğu kimi Azərbaycanda da orta ömür həddi yetmiş-səksən yaş civarında idi. Məlik də bilirdi ki, irəlidə ən azı 20-25 il ömrü var. Amma axı bu da müəyyən bir mənzil, müəyyən bir hüdud idi.

Ta uşaqlığından Allaha inandığı üçün Məlik ölümdən sonrakı həyata, başqa bir dünyaya da inanırdı. Və düşünürdü ki, bəlkə o dünya bu dünyadan qat-qat gözəldir, rahatdır, xoşdur. Olsun. Amma hər halda insan, hətta bu dünyanın pis günlərini yaşamalı olan, ömrü məşəqqətlər içində keçən insan da həyatıyla vidalaşmaq istəmir. Ondaki, olsun qayğısız bir ölkədə, qayğısız bir zamanda yaşayan qayğısız insan.

Qayğısız... Məlik tez-tez bu sözü ürəyində təkrar edirdi, amma doğrudanmı onun ömrü də, başqa vətəndaşlarının həyatı kimi tam qayğısız idi. Əlbəttə yox, ictimai qayğılardan, iş, mənzil, məişət, maddi-maliyyə qayğılarından qurtulmaq hələ qayğısız yaşamaq deyil. Heç bir quruluş, ən adil cəmiyyət, ən firavan şərait belə insanı tənhalıq saatlarından, qarşılıqsız məhəbbətin, qısqanclığın, xəyal qırıqlığının acılarından, yaxınlarının itgilərindən xilas edə bilmir.

Məlik xatırladı ki, neçə il bundan qabaq rəhmətə getmiş valideynlərinin, bildir torpağa tapşırdıqları bibisi qızının ağrılarını hələ də çəkir.

Əlbəttə o özü də, xalqı da çox böyük bədbəxtçiliklərə düçar ola bilərdi. Neçə il bundan əvvəl siyasi qarşıdurmaların qanlı toqquşmalar, vətəndaş hərbi həddinə çatdığı günlərdə, daxili separatçı həmlələrin və xarici təcavüzün təhlükələri reallaşanda hadisələr tamam başqa axarda gedə bilərdi. Yəqin Məlik də nəinki indi burada, bu "Aylı gecələr" parkında, heç bəlkə Bakıda, Azərbaycanda, ola bilsin həyatda, dünyada da qala bilməzdi. Xoşbəxtlikdən bütün bunların qarşısı alındı, xalqın, millətin əzəli özünüqoruma instinkti hər növ hakimiyyət hərisliyinə qalib gəldi və o günlərdən başlayan əvvəl-əvvəl tədrici, get-gedə daha iti, yeyin inkişaf sürəti gətirib bu günkü arxayın duruma çatdı. İndi işsiz, kasıb, bədbəxt-biçarə vətəndaşı yoxdu Azərbaycanın. Bədbəxt yoxdur, amma hamı xoşbəxtdirmi? Məsələ də elə bundadır. Xalq, Millət bədbəxt olanda onun bütün övladları da bədbəxtdir, amma xalq, millət xoşbəxt olanda onun hər bir övladı ayrı-ayrılıqda "mən bəxtiyaram" – deyə bilmir. Təbii ki, ölkəsinin, dövlətinin talei sarıdan arxayındır, xoşbəxtdir, amma hər şəxs özü özlüyündə haçansa Tənhalıqla, Ayrılıqla, ən sonunda Ölümlə üz-üzə durmayıbmı?

Nə bədbin fikirlərdir belə, bu xoş bayram günündə başıma gəlir. Filosofluq eləməyə vaxt tapdın. Şəhərə bax, gör bir nə aləmdir, nə gözəllikdir.

Projektorlarla ən münasib şəkildə işıqlandırılmış nəhəng Dədə Qorqud, Koroğlu heykəlləri, su pərisi kimi sulardan baş qaldıran Səbail, zirvəsində Novruz çırağı yanan Qız qalası, dənizdəki ağ yelkənli, əlvan rəngli gəmilər, təknələr, qayıqlar, Nərgizdəki Nənə qurşağı-şeytan çarxı, "Karvan" univermağının damında ləngərlə addımlayan dəvə karvanı, Odlar sarayının məşəlləri – elə bütün bunları görmək üçün dünyaya gəlməyə və yaşamağa dəyərdi.

Getmək zamanı gələndə də nə qəm, nə isə görüb, nə isə edib, insan kimi yaşayıb, insan kimi getməyin nə qorxusu var. Biz gedəcəyik, amma Qız qalası qalacaq, şəkilli Qobustan qayaları qalacaq, İçəri şəhərin dar küçələri qalacaq, Şekspir və Füzuli, Bax və Segah qalacaq...

Amma hər halda maraqlıdır, bizdən sonra nə olacaq, necə olacaq? Məlik haçansa uzaq gəncliyində oxuduğu bir şeiri xatırladı:

Görəsən kim yandıracaq
Yeni çıraqları Xəzər sahilində?
Görəsən kim deyəcək yeni nəğməni,
Nə dilində?

Şairin nigarançılığı əbəs imiş. Xəzər sahilində çıraqları yenə də biz yandırırıq və yeni nəğmələri də öz dilimizdə oxuyuruq.

Bəlkə də nənələrinin təsiriylə Məlik gözünü açandan Allaha sidq-ürəklə tapınmışdı. Dindar deyildi. Dini ritualları heç vaxt icra etməmişdi – namaz qılmırdı, oruc tutmurdu, heç ziyarətə getmək də qismət olmamışdı ona. Buna baxmayaraq hər axşam yatmazdan qabaq, özünün tərtib etdiyi və bəzən hətta televiziya proqramlarında da səsləndirdiyi duanı ürəyində təkrar edirdi. İndi yatmasına hələ xeyli vaxt vardı, amma hansı daxili tələbatlasa bax burada bu "Aylı gecələr" parkında "Bakı gecələri" restoranının Xəzərə baxan açıq eyvanında, hər il təkrar olunan bu təkrarsız günün ilıq axşamında duasını ürəyində kəlmə-kəlmə vird edirdi:

İlahi, bu günümüz üçün sənə min şükür. Bu xoşbəxtliyi xalqıma, dostlarıma, ailəmə çox görmə. Ən pis günümüz bu olsun. Heç birimiz heç vaxt neyləyim, necə eləyim – deməli olmayaq. Tarix boyu çox əzablara, məşəqqətlə tuş olduq, ağır günlər yaşadıq, öldü-qaldıyla üzüzə durduq. Axır ki, iradəmizlə, ağlımızla, halal zəhmətimizlə ağ günə çıxdıq, bu günümüzü qazandıq. Bu günümüz sonsuza qədər davam etsin, Uca Tanrım. Amin.

İKİNCİ NAĞIL*

Bir də gördü ki, ağ qoçnan, qara qoç budu döyüşə-döyüşə gəlir. Məlikməmməd o saat sıçrayıb ağ qoçun belinə mindi. Amma ağ qoç bunu qara qoçun belinə tulladı. Qara qoç da Məlikməmmədi götürüb qaranlıq dünyaya apardı.

Məlikməmmədin nağılı

I

Məlik Məmmədlini əzan səsi oyatdı. Gözlərini ağır-ağır açdı, pəncərəyə baxdı, hələ qaranlıqdı. Elə həmin andaca qapı döyüldü.

– Kimdir?

Qapının dalından səs gəldi: – Ağa durun, sabah namazının vaxtıdır.

Qaranlıqda dünən gecə düşdüyü və dərhal daş kimi yuxuya getdiyi bu otel otağını təsəvvüründə canlandırdı, bir çarpayı, bir dolab, bir masa vardı otaqda, kətillər yoxdu, döşəməyə nimdaş həsir salınmış və iki mütəkkə atılmışdı.

Qapının dalından səs gəldi:

– Ağa, namaz yeri birinci mərtəbədə, mehmanxana məscidindədir.

Məlik əlini atıb zəif gecə çırağını yandırdı, otağın küncündə Qiblə istiqaməti göstərilmiş və balaca namazlıq xalça salınmışdı.

Məlik: – Mən namazı odamda qılacam – dedi.

Qapının dalından: – Xub – dedilər.

Məlik durub pəncərəyə yanaşdı, hava hələ də açılmamışdı. Görəcəyi işləri qeyd etdiyi cib təqviminə baxdı – martın 22-si idi – gündüzlə gecənin tarazlaşdığı gün. Yadına düşdü ki, haçansa, çox uzaqlarda qalmış bir əyyamda bu gün Novruz bayramını qeyd edərdilər. Dərindən köksünü ötürdü. Elə otaqdaca qurulmuş əl-üzyuyanda üzünü yudu, balaca tutqun güzgüyə baxdı, bir elə dünənki gün ərzində saqqalı xeyli uzanmışdı. Amma üzünü qırxmadı.

Ərxanın sözlərini unutmamışdı: – Orda saqqallı gəzsəniz daha yaxşıdır.

*QEYD: İkinci nağılda cərəyan edən hadisələr xronoloji zaman etibarilə Birinci nağılın davamı deyil. Bu iki bir-birinə alternativ olan olaylar eyni vaxt kəsiyində təsəvvür edilir.

Otaqdan çıxmağa tələsmirdi. Qoy elə bilsinlər ki, namaz qılır. Bura ayağını basandan bəri hər addımı güdülürdü – bunu bilirdi. Amma yəqin, texniki səviyyələri elə deyildi ki, otel otağının içində izləyici cihazlar qura bilsinlər.

Əzan səsi zonanın hər tərəfinə yayılırdı.

Zona! Məlik ürəyində nəfəskəsici bir sancı duydu – onun doğulduğu, boya-başa çatdığı, oxuduğu, işlədiyi, sevib-sevildiyi, ailə qurduğu, oğul-uşaq atası olduğu şəhər indi Zona idi. Daha doğrusu Zonalar. Ən dəqiqi – üç Zona. Üç Zonaya bölünmüşdü onun Bakısı.

Dünya bu üç siyasi quruluşa malik olan hissələri məhz elə belə, Zona adlandırsa da, xarici kütləvi informasiya vasitələri imkan tapanda və xəsis məlumatlar alanda Birinci Zona, İkinci Zona, Üçüncü Zona istilahlarını işlətsələr də bu bölgələrin rəsmi adları da vardı – Birinrci Zona BEHİŞTİ BADİ-KÜBƏ, İkinci Zona BAKI KOMMUNASI, Üçüncü Zona BAKU SİTİ adlanırdı.

Neçə il bundan qabaq bir telejurnalist kimi Bakıdan İstanbula on günlüyə ezamiyyətə gedərkən Məlik heç ağlına gətirə bilərdimi ki, bu ezamiyyət belə uzun – neçə illər – çəkəcək, onun da, başqa ölkələrdə qalmış milyonlarla azərbaycanlının da vətənlərinə yolu bağlanacaq. Burada elə müdhiş hadisələr baş verəcək ki, hər bir əsil azərbaycanlı kimi Məliyin də daha heç vaxt üzü gülməyəcək.

İndi neçə ildən sonra bura qayıdışın nə qədər üzücü olduğunu təsəvvür etsə belə, dünən keçirdiyi əzablar düşündüklərindən də ağır oldu.

Məlik buradan getdiyi gündən bəri Türkiyədə yaşamalı olmuşdu. Orda da əvvəl-əvvəl çox əziyyətlər çəkdi. Maddi çətinliklər öz yerində, Azərbaycanda qalmış ailəsi haqqında heç bir məlumat ala bilməməsi və nəinki yollar qapanandan, hətta poçt, teleqraf, telefon əlaqələri də kəsiləndən sonra arvadı Aypərinin, oğlu Beyrəyin, qızı Burlanın o məşum günlərdən sonra sağ qalıb-qalmamasını da bilmirdi.

Son illərin yeganə sevinci Ərxanın gətirdiyi müjdəydi. Ərxan neçə ildən bəri Azərbaycandan çıxıb Türkiyəyə gələ bilən yeganə tanışı idi. Nə yolla gəlmişdi, Məlik bilmirdi, doğrusu heç maraqlanmadı da...

Təxmin edə bilərdi ki, hansı Zonanınsa gizli xidmət orqanlarıyla bağlıdır, yoxsa Ordan çıxıb Bura gələ bilərdimi? Hansı zonanın-dinçilərinmi, kommunistlərinmi, demokratlarınmı xidmətində idi Ərxan – Məliyə gətirdiyi müjdənin müqabilində bunun nə əhəmiyyəti vardı?

Arvadı da, oğlu da, qızı da, o bəlalı günlərdən, o müsibətlərdən salamat çıxa biliblərmiş, üçü də sağ imiş. Bu şəraitdə, bu dövrdə, bu günlərdə bundan artıq nə sevinc gözləyə bilərdi ki?

Ərxan hər üçünün ünvanını, telefon nömrələrini gətirmişdi. Əlbəttə burdan, İstanbuldan zəng eləmək qeyri-mümkündü, amma Məlik ona təəccübləndi ki, bir yerdə deyil, hərəsi ayrı-ayrı ünvanlarda yaşayır.

Ərxan gülümsündü: nəinki ayrı-ayrı ünvanlarda, ayrı-ayrı zonalarda yaşayırlar – dedi.

Ərxan haçansa, dünyanın düz vaxtında Məliyin yanında işləmişdi, vaxtilə Məlik ona yəqin ki çox yaxşılıqlar eləmişdi, amma bütün ömrünü "Balığı at dəryaya, balıq bilməsə də, Xalıq bilər" düsturuyla yaşamış Məlik məhz hansı yaxşılığı etdiyini yaddaşına yük eləməmişdi. İndi nadir bir keyfiyyətlə – insanın yaxşılığı unutmamasıyla rastlaşıb təəccüb qalmışdı. Əlbəttə Ərxan İstanbula çox güman ki, müəyyən tapşırıqla gəlmişdi, amma Məliyi, dediyi kimi öz təşəbbüsüylə axtarıb tapmış və ona bu xoş xəbəri çatdırmışdı. – Bilsələr ki, sizinlə görüşmüşəm, dərimə saman təpərlər – dedi. Bilsələr? Kimlər bilsə – dinçilər, kommunistlər, demokratlar? Məlik soruşmadı, əvvəla Ərxan olanı deməyəcəkdi, ikinci də Məliyin bu məsələlərə zərrə qədər də marağı qalmamışdı. Bütün bu olub-keçənlərdən sonra onu dünyaya bağlayan heç nə yoxdu. Xəstəliyindən də, ömür möhlətinin bitə-bitdə olmasından da xəbərdar idi. Tək bir arzusu vardı – heç olmasa həyatının sonunda bircə dəfə də olsa arvadını, övladlarını görsün.

Ərxan sanki möcüzələr aləmindən gəlmiş bir sehrbaz idi. Məliyin bu istəyini sanki gözlərindən oxumuşdu.

– Xanımla, balalarla görüşmək istərdinizmi – deyə soruşanda Məlik qulaqlarına inanmadı. Bu mümkün idimi? Ərxan: – Dünyada mümkün olmayan heç nəsnə yoxdur – dedi – Mən danışmışam. Sizi Türkiyə qəzetlərinin birindən ezam edəcəklər, guya hər üç zona haqqında materiallar hazırlayacaqsınız. Məlik: Axı heç bir türk jurnalistini ora buraxmırlar – dedi. ORA kəlməsini işlətdi, Bakıya, Bakısına Zona deməyə dili gəlmirdi.

İndi Vətən Məlikçün ORA idi.

Ərxan: – Doğrudur – dedi – yalnız Türkiyədən deyil, ümumiyyətlə bütün dünyada hər üç zonanı görəcək ilk jurnalist olacaqsınız. Çünki ictimai təmayülündən, siyasi baxışlarından, yaşadığı ölkədən asılı olaraq hər hansı Zonaya tək-tük hallarda jurnalistlər gələ bilir, amma hər üçünə getməyə icazə alan ilk və tək jurnalist siz olacaqsınız..

Axır ki dözmədi, soruşdu:

– Bunu necə edə bildin, Ərxan?

– Kimsəyə desəniz ki, bunu mən etmişəm, bir daha nə siz, nə də heç kəs mənim üzümü görə bilməyəcək.

– Kimsəyə deməərəm, əlbəttə, amma mənə ki, deyə bilərsən.

– İnciməyin, yox, deyə bilmərəm. Bəlkə haçansa elə bir vaxt gəldi ki, bu sirri açа bildim, hələlik isə sizə yalnız daşdan keçən sənədləri almaq, anketləri doldurmaq lazımdır – təkrar etdi – Sizə elə sənəd veriləcək ki, hər üç Zonaya gedə biləsiniz.

– Nəyimə lazımdır üç Zona – axır ki, bu sözü işlətməli oldu – mən yalnız ailəmlə görüşmək istəyirəm.

Ərxan kədərlə gülümsündü: – İş ondadır ki, onlar hərəsi bir zonada yaşayır. Bir zonadan o birinə keçməksə yasaqdır.

Hər şeyi Ərxan dediyi kimi etdi, lazımı sənədləri aldı. Üç ayrı-ayrı sənəddə göstərilirdi ki, o, qəzetəçi Məlik Məhmədoğlu, yazılar hazırlamaq üçün Behişti Badi-kubəyə, Bakı Kommunasına və Baku-sitiyə ezam olunur.

Özü pərdə arxasında qalsa da, bütün bunlar Ərxanın yardımıyla olunduğunu Məlik yaxşı dərk edirdi. Amma bilinmirdi, bütün bunların müqabilində Ərxan ondan nə istəyəcək. Artıq xeyli müddətdi ki, insanların təmənnasız xeyirxahlığına, haçansa edilmiş yaxşılığı unutmamalarına inamını itirmişdi.

Hər halda nə olur-olsun, Ərxan ona ailəsindən xəbər gətirmişdi. Məlik sonu hətta ölümlə nəticələnə biləcək bu səfərə çıxmağa hazırdı.

Blokada şərtlərinə görə Türkiyədən xaricə yalnız bir yolla çıxmağa icazə verilirdi – Cenevrəyə uçmalıydı, oradan Amerika uçağıyla yola düşə bilərdi.

Ərxan onu agah etmişdi ki, üç Zonanın bir aeroportu var və o, Dekade adlanır.

– Dekade nə deməkdir?

– DKD – abbreviaturadır, üç sözün baş hərfi – Din, Kommuna, Demokratiya.

Məlik gülümsündü – son illərdə üzündə görünən ilk təbəssüm idi.

Ərxan ona lazımı izahatlar verirdi: – Üç Zonanın bir hava limanı olduğundan üç sərhəd məntəqəsindən, üç gömrükdən keçməli olacaqsınız. Çalışın, az şey götürün, özü də hər Zonanın xüsusiyyətini nəzərdə tutun ki, gömrükdə əlinizdən almasınlar. Hə, bir də – Ərxan əlini

cibinə atdı, bir xeyli Amerika dolları çıxarıb Məliyə uzatdı – Orada hər addımda sizə lazım olacaq.

Məlik pulu heç cür götürmək istəmirdi.

– Param var – deyirdi.

Ərxan: – O parayla siz heç hava alanından çıxa bilməzsiniz, ondakı olsun şəhərə çatmaq. Özünüz bilin, bu paranı götürməsəz, getməyə dəyməz.

Məlik istər-istəməz pulları aldı: – Bilmirəm, sənin xəcalətindən necə çıxacam – dedi.

Ərxan: – Mən ömrüm boyu sizin xəcalətinizdən çıxa bilməyəcəm. Siz mənim balamı xilas etmisiniz.

Birdən Məliyin yadına düşdü ki, çox illər qabaq, hələ O həyatda və O vətəndə Ərxanın çox gənc yaşlarında iki oğlu olmuş və dünyaya gələndən bir ay sonra hər ikisi ürək çatışmamazlığından ölmüşdü.

Üçüncü oğlu da eyni ürək şikəstliyiylə doğulanda o vaxtlın çox populyar jurnalisti Məlik Bakının ən mahir mütəxəssis həkimlərini ayağa qaldırdı və uşaq xilas olundu. Bilmirdi uşaq indi həyatdadırmı, amma hər halda soruşdu: – Oğlun necədir? – Adını unutmuşdu.

Ərxan: – Top kimi – dedi və əlavə etdi: – sizin sayənizdə.

Məlik bir daha təşəkkür etdi, pulları cibinə qoyanda: – imkanım olan kimi borcumu qaytaracam – dedi.

Ərxan: – Siz mənə yox, mən sizə borcluyam – dedi – Yadınızdamı, o vaxt, mətbəədə yığıcı köməkçisi işləyirdim, siz də hələ məşhur jurnalist yox, adicə müxbir idiniz. Yenə də donluqlarımızı yubatmışdılar, cibimdə çörək almağa bir qəpik pulum yoxdu. Siz bunu bildiniz və cibinizdən iki manat çıxardınız: – mənim də indi olanım budur – dediniz – bir manatını, tən yarısını mənə uzatdınız.

– Bir manat hara, sənin mənə verdiyin bu paralar hara?

– O bir manat bu paralardan artıqdır. Çünki mən indi paramın ancaq kiçik bir hissəsini sizə verdim, siz isə o vaxt olanınızın yarısını qıydınız mənə.

Vidalaşarkən Ərxan: – Orda hər nə görsəniz, bədbinləşməyin – dedi – çox qəribəliklərlə rastlaşacaqsınız.

Doğrudan da qəribəliklər elə uçaqdaykən başladı.

Cenevrədən qalxmalarından üç saat yarım keçmiş təyyarə bələdçiləri üç dildə – ingilis, rus və fars dillərində – elan etdilər ki, uçaq enir, sərnişinlər qoruyucu kəmərləri bağlamalıdır.

Məlik pəncərədən yerə baxırdı. Neçə ildir ancaq hərdən-birdən yuxularında gördüyü şəhəri göyün ucalığından seyr edirdi. Şəhərin çox hissəsi ya tamam qaranlıqdı, ya da adda-budda zəif işıqlar görünürdü. Bir hissəsi isə gur çil-çırağa qərq olmuşdu.

Bələdçi bir-bir sıraları gəzib qadın sərnişinlərə çadralar paylayırdı. İndiyə qədər üzü açıq, hətta mini-tumanlarda və dekolteli paltarlarda oturmuş qadınlar bir-bir çadralara bürünməyə başladılar. Qadın bələdçilər diqqət edirdilər ki, saçlarının bircə tükü də görünməsin. Məlik buna hazır idi, bilirdi ki, birinci olaraq Behişti Badi-kubənin sərhəd məntəqəsindən keçəcəklər, odur ki, ilk olaraq bu Zonanın hicab qanuna tabe olunmalıdır. Amma saqqallı bələdçi ona yanaşıb qalsutukunu açmağı təklif edəndə, təəccübünü gizlədə bilmədi. – Mənim bu qalstukumun kimə nə zərəri dəyə bilər?

Bələdçi başını buladı: – Vaqiən ağa düz buyurur, amma qəvaid belədir – dedi.

Məlik fikir verdi ki, digər sərnişinlər də dinməz-sölyməz qalstuklarını çıxarıb bələdçiyə verir və bələdçi hər qalstukun üstündə sancaqla sərnişinin bilet nömrəsini qeyd edir. Sərnişinləri arxayınlaşdırdı ki, geri dönərkən qalstukları qaytarılacaq.

Təyyarədən enəndən sonra ərəb əlifbasıyla BEHİŞTİ BADİ-KUBƏ sözləri yazılmış iri lövhənin altında yerləşən sərhəd məntəqəsinə yanaşdılar. Məntəqənin üstündə hilallı yaşıl bayraq dalğalanırdı.

Sərhədçilər hər sərnişinin sənədlərini azı yarım saat yoxlayırdılar, dönə-dönə pasportlardakı şəkillərə və pasport sahiblərinin sifətlərinə diqqətlə baxır, bəzən harasa gedib nə barədəsə məsləhətləşir, sonra geri qayıdıb sənədləri bir daha yoxlayırdılar. Bir neçə sərnişini kənara çağırıb harasa apardılar.

Məliyin ürəyi şiddətlə döyünürdü, indi bir şey tapacaqlar, bir qəmbərqulu çıxacaq və bu qədər arzu etdiyi, bu qədər vaxt gözlədiyi istəyinə çata bilməyəcək. Sərhədçinin səsi onu fikirlərindən ayırdı. Növbə Məliyə çatmışdı. Sərhədçi: – Ağa, hüviyyət kağızını göstər – dedi.

Məlik pasportunu və ona verilən sənədi uzatdı. Sərhədçi aldıqlarını xeyli müddət o yan bu yana çevirəndən sonra, möhür basıb qaytardı. Məlik ürəyində "Allaha çox şükür" deyib sərhədi adladı.

Gömrükdə yoxlamalar daha uzun çəkdi və növbə Məliyə düz iki saatdan sonra çatdı. Saqqallı gömrükçü çantasını açmağı tələb etdi, çantaya yığdığı şeyləri, üç dəst köynəyi, alt və ev paltarını, sabunu, diş fırçası və diş məcununu, ülgücünü, bir blok siqareti və kasetçalarla iki

kaseti ələk-vələk elədi, nəhayət ikinci qalstuku əlinə götürüb, soruşdu ki, bəs təyyarədə qalstukunu almayıblar?

Məlik: – aldılar – dedi.

Gömrükçü: – Bəs onda bu nəmənədi? – deyə çantadakı qalsutuku havada fırlatdı. Məlik bilmirdi nə desin: – Bu da... bc... belə – ikinci qalstuk... ehti... ehtiyat üçün – deyə kəkələdi. Elə bil sərhədçilərin də, gömrükçülərin də zəhmi onu basmışdı, heç bir günahı olmadan özünü müqəssir hiss edirdi.

Gömrükçü: – Şeytan xaltasının biri bəs eləmir? – dedi – bəlkə bunu kiməsə bəxşiş vermək ya satmaq istəyirsən?

Məlik:– Əstafurullah – dedi – mən alverçi deyiləm, bu köhnə qalstuku da kimə bağışlaya bilərəm?

Gömrükçü onu dinləmədən qalstuku kənara, müsadirə olunmuş əşyalar qutusuna atdı. Bu qalstukla müəyyən xatirələr bağlıydı və Məlik onu itirmək istəmirdi. Ərxanın tövsiyyəsi yadına düşdü:bu əlbəttə risq idi, hər şeyi korlaya bilərdi, amma tərs damarı tutmuşdu və ətrafa döyüküb cibindən ehmallıca əlli dollar çıxardı, gömrükçüyə tərəf tutdu, – bu qalstuk qardaşım rəhmətlikdən yadigardı – dedi.

Gömrükçü cəld bir hərəkətdə əlli dolları ovcunda gizlədib:

– Xub, bu başqa məsələ – dedi – madam ki, rəhmətlik bəradərindən yadigardır, nə söz ola bilər – qalstuku qutudan çıxarıb Məliyə uzatdı. Bütün bu hərəkətləri – qalstuku qutuya atmağı və qutudan çıxarmağı, pulu qamarlamağı elə becid və məharətlə icra edirdi ki, bu işin peşəkarı olduğu aydınlaşırdı.

Məlik bu sərhədi və bu kömrüyü keçib ikinci sərhəd məntəqəsinin qabağına çıxdı. Məntəqənin üstündə qırmızı rəngli oraq-çəkicli bayraq dalğalanırdı, kiril əlifbasıyla azərbaycanca və rusca BAKI KOMMUNASI "БАКИНСКАЯ КОММУНА" sözləri yazılmışdı.

Divarda çox iri portret vardı. Zəhmli kişinin sifətinin xeyli hissəsini zil qara eynək şüşələri tuturdu. Portretin üstündə böyük hərflərlə:

KOMMUNİZMİN QƏLƏBƏSİ LABÜDDÜR, ÇÜNKİ MÜTLƏQDİR. MARAT.

Portretin altında isə BAŞ KOMİSSAR MARAT YOLDAŞIN RƏHBƏRLİYİ ALTINDA BÜTÜN DÜNYADA KOMMUNİZMİN TAM QƏLƏBƏSİNƏ DOĞRU İRƏLİ – sözləri yazılmışdı.

Sərhəd məntəqəsinə növbədə dayanarkən Məlik Ərxanın dediklərini xatırladı: Baş komissar Marat Qaragözovun gözlərini görən ol-

mayıb. Deyilənə görə gözləri çaşdı, odur ki, heç vaxt tünd qara eynəyi çıxarmır.

Xeyli müddətdən sonra növbə Məliyə çatanda sərhədçi sənədlərinə gözucu nəzər salıb:

– Anketi bizim əlifbayla doldurun – dedi – Azərbaycan və rus dillərində.

Məlik cərgədən çıxdı, piştaxtaya yanaşıb cavabları kiril əlifbasıyla yazdı və geri dönəndə təzədən növbəyə durmalı oldu.

Nəhayət, sərhədi keçdi, amma Gömrükdə yenə ilişdi. Gömrükçü kasetçaları və kasetləri əlində fırladıb: – Bunlar nədi? – dedi.

Məlik: – Musiqidir – dedi – Azərbaycan bəstəkarlarının mahnıları. Türkiyədə anonim Azeri şarkıları adıyla çıxıb.

Gömrükçü:

– Türkiyədə? – dedi – bura pantürkist kasetləri gətirmək olmaz.

Məlik, ürəyində:– Ya bəxt – deyib əlli dolların ucunu gömrükçüyə göstərdi:

– Keçən əsrdə yaşamış sovet bəstəkarlarının mahnılarıdır.

Gömrükçü eyni cəld hərəkətlə pulu aldı – hə, sovet bəstəkarları – dedi – onda mojna.

Gömrükçü indi də kasetçaları əlində o yan bu yana çevirirdi.

– Bəs bu nədi?

– Bu da kasetçaldıran.

Gömrükçü kasetçaların düyməsini basdı, radiodan səslər gəldi.

– Bu ki radiodur – dedi.

– Həm radiodur, həm kasetçalar.

– Bizdə yad radiolara qulaq asmaq zapreşeno.

Məlik əlli dollar da tərləməli oldu. İndi bu işi daha arxayın edirdi.

Üçüncü sərhəd məntəqəsinə çatdı.

Burda da göy bayraq dalğalanırdı. Məlik acı-acı düşündü: üç sərhəd – üç bayraq – yaşıl, qırmızı, göy. Üçü bir yerdə olsaydı keçmiş Azərabycanın bayrağı olardı.

Sərhədçi sənədlərə göz ucu baxıb təklif etdi ki, Məlik baş barmağını kiçik disketə bassın, sonra onun barmaq izləri olan disketi bilgisayara saldı, hansısa düymələri basıb ekrana baxdı və: – Keçə bilərsiniz – dedi.

Bu gömrükçü də əşyaları bir-bir yoxladı, soruşdu:

– Narkotik?

Məlik: – Yox canım, məndə narkotik nə gəzir?

Gömrükçü çantadakı bir blok türk siqaretini götürdü:

– Bu nədir?

– Siqaret. Türk siqareti.

Gömrükçü: – Bura Amerika siqaretlərindən başqa ayrı siqaret gətirmək olmaz – dedi – musadirə edilir – sonra nədənsə əlavə etdi – Heç türk siqareti çəkməmişəm.

Məlik: – Mən yaman çəkənəm – dedi – Bu siqaretlərə də alışmışam. Yarsı sənin, yarsı mənim.

Gömrükçü: – Okey – dedi və cəld bloku açıb altı qutu çıxardı, dördünü Məliyə qaytardı.

Gömrükdən keçən kimi Məlik çox iri reklamlar gördü. Birində təyyarənin içində xoş bir təbəssümlə sərnişinlərə (onların da sifətlərində təbəssüm vardı) "Koka-kola" paylayan stüardessanın şəkli və altında latın hərfləriylə yazı verilmişdi:

ÇIXANDA YOLA – İÇ "KOKA-KOLA".

İkinci reklamda kovboy qiyafəli, iri şlyapalı, böyründə yekə tapancalı gənc oğlan – (gülüşü bu qulağından o qulağınadək) təyyarə trapından düşən sərnişinlərə açıq Malboro qutusunu uzadırdı. Altında latın hərfləriylə GƏLMİSƏN BURA, AL, ÇƏK "MALBORO" – sözləri yazılmışdı.

Məlik aeroport binasından açıq havaya çıxanda saatına baxdı: gecə üçün yarısı. Təyyarə yerə enəndə gündüz dördün yarısı idi. Sərhədlərdən və gömrüklərdən on bir saata keçmişdilər. Cenevrədən burasa üç saat yarıma gəldik – deyə düşündü.

Taksi dayanacağına yanaşıb ən qabaqda dayanan maşına yanaşdı, əlini uzadıb qapını açmaq istədi, qapı içəridən bağlıydı, bu zaman arxa sıralardan çıxıb gələn taksi onun qarşısında dayandı. Sürücü qapını açıb onu içəri dəvət etdi.

Məlik arxa tərəfdə əyləşdi, elə bu vaxt kimsə maşının qabaq qapısını açdı. Saqqallı cavan oğlan Məliyə müraciət edərək: – Ağa, yorulmuyasız – dedi – bəndəniz də şəhərə gedir, qailsə mən də sizlə gedim.

Məlik: – Buyurun – dedi.

Taksi hər iki tərəfinə məftilli çəpərlər çəkilmiş yolla irəliləyirdi. Yol sağ tərəfdə, məftilli çəpərin dalında yanan gur çil-çıraqla işıqlanırdı.

Sol çəpərin arxası qaranlıq idi.

Məlik fikir verdi ki, məftil çəpərlərin dibində xeyli it ölüsü sərələnib.

– Bu leşlər niyə bura düşüb?

Şofer: – Əhməq məxluqdur da – dedi – özlərini çəpərə çırpır, çəpərə də bərq buraxıblar.

– Niyə elektrik buraxıblar ki?

Saqqallı oğlan:

– Kafərlər buraxıb – dedi – Qorxurlar ki, o tayın adamları qaçıb bizim tərəfə keçər.

Sürücü:

– Ac itlərdi də – dedi – gecə hamısının leşin yığışdırıb yandıracaqlar.

Məlik ətraflara baxır, amma heç yeri tanımırdı. Məftil çəpərlərin arxasında şumlanmış neytral sahə, sahədən o yana sağda rəngbərəng reklamların latın hərflriylə yazılmış mətnlərinə görə buranın Baku siti olduğunu müəyyənləşdirmək olardı.

Sol tərəf zülmət qaranlıq idi:

– Bu tərəf Badi-Kubədir?

Saqqallı oğlan:

– Xeyr ağa, xeyr. Bu tərəf də kafərlərin şeytan yuvasıdır. Özləri Bəkinski qəmuna deyirlər. Bizim Behişti Badi-Kubəmiz irəlidədir.

Birdən Məlik Suraxanı yolunu tanıdı Bu Suraxanı yoludur – dedi – eləmi?

Şofer: – Bəli ağa, ora Surə xanədir.

Məlik köksünü ötürdü: – Uşaqlıqda burda yaşamışam – dedi Evimiz Atəşgahın yanında idi.

Sürücü: – Harda? – deyə xəbər aldı

Saqqallı oğlan: – Atəşpərəstlərin bir yeri vardı – deyə izah etdi.

Məlik: – İndi durmur Atəşgah?

Oğlan: – Yox, söküldü – dedi – müsəlman kişvərində kafər bütxanəsinə nə hacət?

Taksi bağlı şlaqbaumun qarşısında dayandı, polis xidmətçisi onlara yanaşdı, hər üçü sənədlərini göstərdi, polis: – Xeyli xub. Xeyri şəb – deyə şlaqbaumu qaldırdı.

Saqqallı oğlan:

– Ağa, Behişti Bad-Kubəyə xoş gəldiniz, səfa gətirdiniz – dedi.

Qarşılarında böyük bir qafilə irəliləyirdi – arabalar, arabaların ardından piyada gedən xeyli adam.

– Bunlar kimdi, hara gedirlər gecənin bu vaxtında?.

Sürücü: – Yanardağa – dedi.

Məlik maşının qabaq güzgüsündə gördü ki, saqqallı oğlan sürücüyə məzəmmətlə baxır.

Saqqallı oğlan: – Xeyr ağa – dedi – şofer bəradərimiz düz buyurmadı, bunlar Nardaran pirinə ziyarətə gedirlər. Gecəykən yola çıxıblar ki, sübh namazına ora çatsınlar.

Məlik Nardaranın buralardan xeyli uzaq olduğunu xatırladı:

– Bu qədər yolu piyada gedəcəklər?

– Ağa bilir ki, ziyarətə piyadə getməyin savabı daha əfzəldi.

Taksi qafiləni ötüb keçdikcə faraların işığında Məlik arabalara yüklənmiş qazanlara diqqət elədi.

Saqqallı oğlan sürücüyə: – "İrşad" mehmanxanasına sür – dedi

Məlik dünyagörmüş adam idi. Elə birinci addımdan duymuşdu ki, bu saqqallı oğlanı onu güdmək üçün göndəriblər, amma görünür çox naşıymış, özünü çox tez faş etdi, yoxsa "İrşad" otelinə düşəcəyimi bilirsə də dilindən qaçırmazdı.

– Nə bildiniz ki, mənə "İrşad" otelində yer ayırıblar – deyə soruşmaqdan özünü saxlaya bilmədi.

Şofer: – Tək bir mehmanxana var da – dedi.

Saqqallı oğlan yenə şoferə məzəmmətlə baxdı: – Yox – dedi – başqa yerlər də var, amma fikr elədim ki, sizin kimi alicənaba yaraşan "İrşad" olar. Yoxsa bir qələtim var?

– Yox, düz deyirsiz, "İrşad"da yer ayırıblar mənimçün. Bağışlayın, tanış olmadıq, mənim adım Məlikdir, Məlik Məhmədoğlu, jurnalistəm – qoy yazıq pis vəziyyətdə qalmasın – deyə düşündü, güya özüm haqqında bu məlumatları mən özüm verirəm ona, hərçənd ki, yəqin hamısını bilir.

Saqqallı oğlan: – Çox xoşhaləm – dedi – sizin kimi məruf və namdar insanla tanış olmağa. Mənim ismim İmamquludur. İmamqulu Bəhbəhani.

Taksi artıq şəhərin yarıqaranlıq küçələriylə irəliləyirdi, birdən Məlik diksindi – taksilərinin faralarıyla işıqlandırılmış yanıq-uçuq binanı tanımışdı – bu keçmiş İsmailiyyə – Akademiya binası idi. Binanın yalnız divarları qalmışdı, çərçivələri yanıb kösöy olmuş pəncərələri skeletin, ölü kəlləsinin oyuq göz çuxurlarını andırırdı.

– Bura niyə bu gündədi?

İmamqulu: – O məlum məğşuşat günlərində kafərlər xakisar eləyib buranı – dedi.

Məlik: – Dur, dur – deyə həyəcanla səsləndi – İsmailiyyə binasının yanındakı yer bom boş çöllük idi – axı burda bir bina da vardı – əlyazmaları olan bina.

İmamqulu: – Ağa, səd heyf, şuriş zamanı o bina da, bu xiyabandakı çox bina da yandı – dağıldı.

– Necə yandı, bəs əlyazmaları?

– Ağa, səd heyf, bina yananda əlyazmaları salim qalarmı?

Məlik başını tutdu: – Aman Tanrım, bütün tariximiz, keçmişimiz o yazılarda idi.

– Ağa, siz bərgüzidə fərhəng adamısız, ehsasatınızı başa düşürəm. Amma çi faidə? Qəzavü-qədər beləymiş. Leyk mürur zaman xeyli yeni kitab nəşr olunub. Elə bu günlərdə ağayi Kəsrəvinin bütün kitabları çıxdı. – Birdən nə isə yadına düşmüş kimi dedi: – Söz yerinə çəkər, heç bilirsiz bu hansı xiyabandır?

– Təxmin edirəm, bir vaxt bura Nikolayevski, sonra Kommunist, sonra da İstiqlaliyyət küçəsi adlanıb.

İmamqulu məmnun gülümsədi:

– İndi Əhməd Kəsrəvi xiyabanıdır. Bizim həqiqi mənşəimizi təyin edən alimi-büzürgün naminə.

Taksi adı neçə dəfə dəyişən, binaları dönə-dönə yanıb dağılan bu talesiz küçəylə irəliləyirdi. Məlik xatırladı ki, burada gözəl bir bağ vardı. İndi tamamilə bom boş, ağacsız bu sahəni yalnız yanındakı Filarmoniya binasına görə tanıya bildi. Şükür, deyəsən Filarmoniya salamat qalıb. Amma buranın indi məhz Filarmoniya olmasından şübhəliydi.

Filarmoniyanı göstərib: – Ora nədir? – soruşdu.

İmamqulu və sürücü eyni vaxtda:– Cümə məscidi – dedilər. İmamqulu əlavə etdi: – Behişti Bad-Kubənin ən böyük məscididir. Sübh əzanını onun minarələrindən çəkəndə eşidəcəksiz, "İrşad" mehmanxanası bura lap yaxındır.

Mehmanxananın qabağına gəlib çatdılar. Sürücü Məliyin çantasını götürdü. İmamqulu da maşından düşdü: – Ağayi Məlik – dedi – icazə verin xidmətinizdə olum.

Məlik cibindən dollar çıxarıb sürücüyə vermək istəyəndə İmamqulu: Ağa, o şeytan pulunu qəbul etməz – dedi – heç narahat olmayın, verdim – dedi.

Mehmanxananın inzibatçısı – saqqalı ağarmış kişi yuxulu gözlərini ovuşdura-ovuşdura Məliyin pasportunu aldı, ərəb əlifbasıyla anketi uzatdı ona.

Məlik adını yazmağa başlamışdı ki, çiyninin arxasından ona baxan İmamqulu: – Ağa, şeytan əlifbasıyla yazmaq qəvaidə ziddir – dedi.

– Ərəb əlifbasıyla doldurmaq lazımdır?

– İslami əlifbayla

Məlik: – Mən ərəb... e... islami əlifbayla oxuya bilirəm, amma heyf ki, yaza bilmirəm – dedi.

– Siz heç rəncidə olmayın, mən yazaram.

Adı, soyadı, doğum ili, doğum yeri – Məlik bir-bir bunları İmamquluya diktə etdikcə duyurdu ki, bütün bu məlumatları İmamqulu elə onun özü qədər bilir.

Nəhayət, formal işlər bitdi. İnzibatçı açarı Məliyə uzadıb: – şumarə 12-dedi.

İmamqulu Məliyin çantasını götürüb onu ta ikinci mərtəbəyə, otağının qapısına qədər ötürdü, içəri girib bir nəzər də atdı, sonra:

– Şəb – xeyir – dedi – Allahın inayətiylə inşallah yenə görüşərik.

Məlik saatına baxdı. Dördə on beş dəqiqə işləyirdi. Yerli vaxtla altıya. Yerli vaxt!.. – acı-acı düşündü – doğma şəhərimin vaxtına yerli vaxt deyirəm. Əlbəttə belə erkən saatda Aypəriyə telefon edə bilməzdi. – Bıy – otağa göz gəzdirdi – heç telefon da yoxmuş ki...

Səhər açılsın, düşüb aşağıdan zəng edər. Yatağına girdi və bu uzun günün bütün qarabasma kimi görünən təəssüratlarından sonra daş kimi yatdı.

İmamqulu düz deyirmiş. Səhərisi gün də bir-birini gördülər. Məlik səhər otelin birinci mərtəbəsinə enəndə İmamqulu Bəhbəhani yumşaq divanda bardaş qurub oturmuşdu. Məliyi görüb ayağa qalxdı.

– Ağa, sabahınız xeyir. Dedim hər halda qəribsiniz. Bəlkə yardıma ehtiyacınız oldu. Qulluğunuzda amadəyəm.

Məlik: – Sağ olun – dedi – bir çay içmək pis olmazdı.

– Əlbətməkin, əlbətməkin.

Kiçik çayxanaya keçdilər. Saqqallı xidmətçi qabaqlarına çay-çörək gətirdi. İmamqulu əlindəki qəzeti Məliyə uzatdı: – "Siratül-müstəqim" rüznaməsidir – dedi – baxırsız?

Məlik: – Sonra baxaram – dedi – qəzetin birinci səhifəsindəki böyük şəkli göstəriib: – Ağayi Müşteyiddi? – deyə xəbər aldı.

İmamqulu: – Bəli – dedi – Ali müşteyidimiz zişan ağayi Badikübeyidir. Möüzəsi nəşr olunub. Bu axşam İman televizionunda da bərnaməsi var, vaqiən arif-bəsər, əhli ürfandır. Elmi – əbdanda da, elmi ədyanda da bibədəl zatdır. Manəndi yoxdur.

Məlik haçansa klassik ədəbiyyatdan bildiyi, amma az qala unutduğu fars-ərəb sözlərini İmamqulunun dilindən ölçüsüz-biçisiz eşitdikcə: – fağır dilimiz – deyə düşünürdü – gör nə günə qalıb ki, bu Azərbaycan balası iki cümləni təmiz ana dilində deyə bilmir.

Məlik artıq aydın dərk edirdi ki, burada, bu Behiştdə qaldığı bütün müddət ərzində İmamqulu onun yaxasından əl çəkən deyil, hər addımını qarabaqara izləyəcək. Arvadıyla görüşmək istəyini də biləcək,

bəlkə elə çoxdan bilir. Əlbəttə bilir, lap yəqin bilir. – Mən bir yerə telefon etməliyəm – dedi.

– Baççşm ağa, şümarəni ərz eləyin.

Məlik Aypərinin telefon nömrəsinin dörd rəqəmini dedi, axırıncı rəqəmi deməzdən, ağlına nə isə gəldi, tamam başqa bir rəqəm dedi. İmamqulunu yoxlamaq istədi. Görən İmamqulu bu nömrəni də bilirmi?

– Telefon edin, Aypəri xanımla danışacam.

İmamqulu bir qədər təəccüblə: – Kiminnən? – deyə soruşdu.

– Aypəri xanımla. Mənim arvadımdır – İmamqulunun mat-mat baxdığını görüb – övrətim – deyə əlavə etdi – zövcəm, halalım...

– Əlbətməkin, əlbətməkin...

İmamqulu inzibatçıya yanaşıb onunla uzun-uzadı nə isə danışdı.

İnzibatçı telefonu götürüb harasa zəng elədi. Kiminləsə də danışdı, sonra dəstəyi qoyub İmamquluya razılıq işarəsi verdi. İndi də telefonu İmamqulu qaldırdı, Məlik verən rəqəmlər olan kağıza baxıb nömrələri çəkməyə başladı, sonra birdən, qaşları çatıldı. Məlik: yəqin ki, axırıncı rəqəmə təəccüb qalıb, – deyə düşündü – görəsən gümanım düz çıxacaqmı.

İmamqulu əvvəl kağızı götürüb Məliyə yanaşmaq istədi, sonra nə isə fikirləşib axırıncı rəqəmi də çəkdi. Görəsən nə çəkdi, Məlik yazan səhv rəqəmimi? Yaxud hər ikisinin bildiyi doğru rəqəmi çevirib oyunu açıq aparmaq qərarına gəlib.

Bir az gözləyib danışmağa başladı, nə danışdığını Məlik eşitmirdi.

Sonra dəstəyi kənara qoyub Məliyə əl elədi: – Buyurun ağa – Məlik durub yaxınlaşanda dəstəyi ona uzatdı: – xanım Mahruxdur – dedi.

– Xanım Mahrux? Xanım Mahrux kimdir?

İmamqulu: – Buyurdunuz ki, zövcənizdir.

Bəlkə Məlik yanılırmış, bəlkə İmamqulu axırıncı rəqəmin doğrusunu həqiqətən də bilmirmiş, Məlik yazan nömrəni çevirib və ayrı yerə düşüb. Kağızı İmamquludan alıb: – Axırıncı rəqəmi səhv yazmışam – demək istəyirdi ki, birdən ağlına nə isə gəldi – telefon dəstəyini götürüb – Allo – dedi.

Cavab gəldi:

– Bəli.

Bu o idi, onun Aypərisi. Yəqin özü kimi səsi də xeyli qocalmışdı, aradan gör neçə il keçmişdi. Səsi boğuq, solğun, kədərli idi, amma onun səsiydi. Məlik bu səsi dünyada heç bir səslə dəyişik sala bilməzdi.

Məlik: – Salam Aypəri, mənəm – dedi.

Qadın: – Bağışlayın, ağa, səhv telefon etmisiz – dedi

– Necə səhv? Mənəm Aypəri, Məlikdi. Ancaq üç gün bundan qabaq sənin sağ-salamat olduğunu bilmişəm, adresini, telefonunu veriblər mənə. İndi burdayam, "İrşad" otelində. Hara gəlim? Necə görüşək?

Dəstək tam bir sükuta qərq olmuşdu. Məliyə elə gəldi ki, boğuq hıçqırıq səsi eşidir. Bəlkə də yanılırdı. Bir azdan sonra qadın:

– Bir saatdan sonra "İrşad" mehmanxanasının lobbisinə gələrəm – dedi və dərhal xətti qapatdı.

Məlik saatına baxıb İmamquluya yanaşdı:

– Çox sağ olun – dedi – məni calaşdırdınız. Amma niyə onu Mahrux xanım adlandırdınız.

– Özü dedi. Soruşdum kimdi, dedi: xanım Mahrux.

İmamqulu son rəqəmin üstünü vurmadı, Məlik də özünü o yerə qoymadı. Onsuz da hər şey aydın idi, izaha nə ehtiyac qalırdı.

* * *

Məlik mehmanxananın foyesində üzü qapıya tərəf oturub gözləyir, siqareti – siqaretə calayırdı. İmamqulu bir qədər aralıda oturub, guya ki, "Siratül – müstəqim" qəzetini oxumaqda, ara-sıra da "İMAN" telefiziyasının moizələrinə qulaq asmaqda idi.

Məlik: – Televiziya ancaq moizələr verir? – deyə xəbər aldı.

– Yox niyə ki, xəbərlər, dualar, din tarixinə aid verilişlər... Məscidlərdən beş rükət namaz da göstərir.

– Bəs tamaşa, şeir, musiqi?

– Aşura günü şaxsey-vaxsey göstərilir, mərsiyyələr, nohələr oxunur.

– Rəqs, mahnı, muğam necə?

– Əstafürrullah ağa, bunlar ki, şeytan əmməlləridir.

Məlik:

– Muğam da? – deyə soruşmaq istəyirdi ki, qapıdan girən qadını gördü. Təpədən dırnağa qara çadraya bürünmüşdü, bircə gözləri görünürdü, Məlik onu gözlərindən tanıdı. Haçansa bu qaynar baxışlı gözlər indi sönük, yorğun, kədərli idi – amma hər halda onun, Aypərinin gözləri idi.

Məlik yerindən sıçradı, neçə ildi öldüsünü – qaldısını bilmədiyi arvadına tərəf atıldı. Qadın sanki həyulə görübmüş kimi geri çəkildi, bir qədər aralı dayandı. Məlik də duruxdu, məsafəni yavaş addımlarla qət edib ağuşunu açmaq istədi. Qadının yenə bürüşüb bir addım geri çəkildiyini görüb dayandı, ancaq əlini uzatdı.

Əli havada qaldı.

Məlik hiss edirdi ki, İmamqulu qulaqlarını şəkləyib onların hər hərəkətini izləyir.

Qadın: – Bağışlayın ağa – dedi – naməhrəmə əl verə bilmərəm.

– Naməhrəmə? Mənəm e Aypəri, Məlik, sənin ərin.

Qadın: – Mənim adım Mahruxdur – dedi.

– E... e... Mahrux olsun, hər halda mənim kəbinli arvadımsan.

Qadın: – Yox – dedi – məsələ ondadır. Biz heç vaxt şəriətlə kəbin kəsdirməmişik.

Məlik deməyə söz tapmırdı.

– Yaxşı – dedi – bəs balalarımız nə olsun? İki balamız var axı. Onların anası deyilsən?

Qadın: – O mənim günahım idi – dedi – Min dəfə tövbə etmişəm ki, qadir Allah günahımı bağışlasın.

İmamqulu özünü saxlaya bilməyib söhbətə qarışdı:

– Allah rəhimlidir, rəhmandır – dedi – keçər günahınızdan.

Məlik donub qalmışdı: – Necə günah? Məgər ana olmaq günahdır?

– Şəriətlə kəbin kəsdirməmişiksə, əlbəttə günahdır. Zinadır – dedi Aypəri-Mahrux.

İmamqulu onun sözünə qüvvət verdi: – Mənkuhə deyil – dedi

– Yaxşı, əyləş... ee... əyləşin.

Qadın qarşıdakı kürsüdə, Məlikdən və İmamquludan xeyli aralı oturdu.

Məlik danışmağa söz tapmırdı, bilmirdi nə desin, nədən başlasın.

Qadın da dinib-danışmırdı. Aralığa üzücü sükut çökmüşdü. Nəhayət Məlik:

– Yaxşı, bəs Beyrəklə, Burlayla da əlaqən yoxdur? Doğma övladlarınla?

Mahrux-Aypəri:

– Onlar mənim övladlarım deyil – dedi, – Şeytani-büzürglərin xidmətində olan mürtədlərdir.

Məlik yalnız: – əcəbdir – deyə bildi...

Yenə sükut çökdü. Mahrux: (artıq o Məlikçün doğrudan da uzun illər bir yastığa baş qoyduqları arvadı Aypəri yox, heç bir vaxt tanımadığı Mahrux idi):

– Ağanın mənə bir ərzi yoxsa mürəxəssis olum – dedi.

Məlik dərk edirdi ki, bax indi, bu dəqiqə keçmiş arvadını yenidən, bu səfər həmişəlik itirəcək.

– Dayan görüm, mürəxxəs olmağa tələsmə, de görüm, necəsən, ee... necəsiniz? Gününüz – güzaranınız, dolaşığınız necədir?

– Sağ olun, lap yaxşıdır. Allahın köməyiylə heç bir şeyə ehtiyacımız yoxdur.

– Harda işləyirsən... e... e... işləyirsiniz?

– Allahın köməyilə ünas mədrəsəsində dərs verirəm. Xəttatlıq dərsi.

– Axı sən... siz... rəssam idiniz...

– O bir cavanlıq xətası idi... İnsan şəkli çəkmək günahdır... İnşallah rəhmani-rəhim bu günahımdan da keçər.

– Mədrəsədə xəttatlıq dərsi verirsən? – Deyə indicə eşitdiyi məlumatı bir də mənasız yerə soruşdu. Danışmağa ayrı söz tapmırdı.

– Bəli ağa, şagirdlərimə nəsx, nəstəliq, kufi xətlərlə "Qurani-Kərim"in üzünü köçürməyi öyrədirəm.

– Dərslər nə dilindədir?

Mahrux cavab verməmiş İmamqulu:

– Əlbəttə zəbani Azərbaycanda. Və zəbani-farsda – dedi – dəbistanda da dərslər də hər iki lisanda keçirilir. Danişgahımız da var.

Məlik: – Bəs nə əcəb Universitetdə – e... danişgahda dərs demirsən?

Mahrüx: – orda dərslər farscadır – dedi və dərhal dilini dişlədi.

İmamqulu da dərhal: – Amma tüllablar ana dillərini də bilirlər – dedi. – İnsan bəqədri – qüvvət nə qədər çox lisan bilsə o qədər faidəsi var. Elə deyilmi ağa?

– Bəli, əlbəttə

Bütün bu əndişələr içində Məlik tamamilə unutmuşdu ki, bu gün Novruz bayramıdır.

– Bayramınız mübarək – dedi.

Mahrux təəccüblə:

– Nə bayram? – deyə soruşdu.

– Novruz bayramı.

– Novruz?

İmamqulu yenə söhbətə müdaxilə elədi: – Həzrət Əlinin taxta çıxdığı gün – dedi.

Mahrux laqeyd bir tərzdə:

– Hə, sağ olun – dedi.

Məlik pəncərədən dünən gecə rastlaşdıqları arabalı, piyada adamların qafiləsini gördü. – Bunlar da Nardaran pirinə gedirlər? – deyə xəbər aldı.

İmamqulu:

– Bəli, ağa – dedi. – bəlkə də Buzovnaya, Əliayağına.

Mahrux yenə durmağa cəhd etdi. Məlik qəti qərara gəldi:

– Ağayi Bəhbəhani – dedi – bu qadın mənim siz demiş mənkuhəm olsa da olmasa da otuz il kəbinli... yaxşı, qanuni arvadım olub. O vaxtın qanunlarıyla rəsmən evlənmişik. İzn ver beş dəqiqə təklikdə danışaq. Bəlkə bir sözümüz var. Olarmı?

İmamqulu:

– Əlbətməkin ağa, – dedi – nə söz ola bilər, – ayağa durub kənara çəkildi, xeyli aralı oturdu, amma gözü yenə onlarda idi.

Pəncərənin qarşısından keçən qafilə qurtarmaq bilmirdi.

Məlik: Pirə gedirlər, arabalara niyə bu qədər qab-qacaq yığıblar? – dedi.

Mahrux da qanrılıb pəncərəyə, sonra aralıda oturmuş İmamquluya baxdı, üzünü yana çevirib:

– Pirə-zada getmirlər – dedi – Yanardağa gedirlər.

– Yanardağa?

Qadın yenə üzünü Məliyə tərəf çevirmədən:

– Evlərdə qaz da yoxdur, odun da, bütün ağacları qırıb qurtarıblar, ayından-oyundan tapıb Yanardağa gedirlər, orada yerdən çıxan odların üstündə xörək bişirirlər.

Bütün bunları birnəfəsə dedi və yenidən üzünü Məliyə tərəf çevirdi, başını qaldırıb onun üzünə baxmırdı, amma sözləri qeyri-adi şəkildə tələffüz edərək – Bəli, Ağa, pirə gedirlər. Bizim camaat çox mömün camaatdır – dedi.

Məlik başa düşdü. O özü arxası İmamquluya oturmuşdu, İmamqulu uzaqdan Mahruxun ağzına baxırdı – yəqin ki, sözləri dodaqdan oxumaq səriştəsinə yiyələnmişdi.

Mahrux yenə üzünü pəncərəyə tərəf tutaraq, güya qafiləni seyr edirmiş kimi:

– Burda nə eşitsən, inanma – dedi – mənim dediklərimə də inanma, – sonra yenə Məlik tərəfə dönüb – Şagirdlərim elə həvəslə çalışırlar ki – dedi – mədrəsəni bitirənə qədər Quranı başdan ayağa yeddi dəfə köçürürlər.

Məlik:

– Mən səni burdan qurtaracam – dedi.

Mahrux qəmli-qəmli:

– Bu qeyri-mümkündür – dedi, bunu üzünü Məliyə tərəf tutarkən demişdi və dərhal səhvini başa düşüb: – Bəli, bu tamamilə qeyri-mümkündür – dedi – biz Şeytani büzürglərlə ünsiyyət yarada bilmərik. Lap oğlun, qızın da olsa.

Daha danışmağa söz qalmamışdı. Mahruxmu, Aypərimi ayağa qalxdı:

– Ağa, çox xoşhal oldum – dedi, sonra çarşabıyla ağzını yaşmaqladı və çarşabın altından dodaqları görünmədən yavaş səslə: – Mən səni ölmüş bilirdim, sən də bundan sonra məni ölmüş bil – dedi.

Dikəldi. Gözləri dolmuşdu.

Onun durduğunu görüb İmamqulu da yanaşdı. Aypərinin gözündən süzülən bir damla yaşı yəqin o da gördü və başını aşağı saldı. Bəlkə yazacağı hesabatda bu göz yaşını qeyd etməyəcəkdi. Axı haçansa o da insan olmuşdu.

Mahrux:

– Salamat qalın ağa, – İmamquluya – ağa, siz də salim olun – dedi. Çevrildi, qapıya tərəf getdi. Məliyə elə gəldi ki, çiyinləri titrəyir. Bəlkə səssiz hıçqırırdı.

Qapıdan çıxdı, uzaqlaşıb gözdən itdi. Ta uzaqlarda qara bir siluetə çevrilənəcən Məlik uzun-uzun onun ardınca baxdı, sonra ayağa durdu.

– Ağayi Bəhbəhani – dedi – mən bu gün getməliyəm, tapşırın hesabımı hazırlasınlar.

İmamqulu:

– Ağa, nə tələsik işiniz var ki – dedi. Bir-iki gün qalıb bizi feyziyab edəydiniz. Kişvərimizin görməli yerlərini görərdiz.

Məlik:

– Gördüyümü gördüm – dedi, sonra bu sözlərin ikibaşlı səslənməsindən ehtiyat edərək – Allah başatan versin – deyə əlavə etdi.

– Buyurun ağa, əmrinizə müntəzirəm.

Nömrəsinə qalxdı, əşyalarını çantasına yığarkən, kasetlərin yox olduğunu gördü. Kim götürüb görəsən? İmamqulu bütün bu vaxt ərzində onunlaydı, otağa gələ bilməzdi. Kasetçalar yerində idi. Amma kasetlər yoxdu. Kimə gərək ola bilər onlar? Yalnız otaq xidmətçisi götürə bilərdi. Onun nəyinə lazımdır? Birdən Məliyin ağlına qəribə bir fikir gəldi, bəlkə də yanılırdı. Ona elə gəldi ki, ola bilsin böyük risqə gedərək otel xidmətçisi kasetləri oğurlayıb, gizli bir yer tapıb onlara qulaq asacaq. Kim bilir? Bəlkə də...

Aşağı endi, hesab kağızını aldı, dollar verdi, qalığını inzibatçı tümənlə qaytardı.

– Bunlar mənim nəyimə gərək?

İmamqulu:

– Bəlkə gərək oldu, xırda-xuruşdur. Diləncyə verərsiz.

– *Burda dilənçi var ki? – Məlik istehzasıyla sanki qisasını alırdı.*

İmamqulu qorxmuş halda:

– *Əlbətməkin yoxdur* – dedi – qırmızıların tərəfinə keçəndə lazım olar, deyirlər orda addımbaşı dilənçilər düzülüb.

– Orda məyər sizin pullar keçərlidir?

İmamqulu çaşıb-qalmışdı, nə deyəcəyini bilmirdi. Ağzından qaçırmışdı, indi bilmirdi vəziyyətdən necə çıxsın.

Məliyin ona yazığı gəldi. Axı bu buyruq qulunun nə təqsiri var ki, onu belə müşgülə salır.

– Yaxşı, salamat qalın.

İmamqulu son dərəcə nəzakətlə:

– Ağa mən özüm sizi rədd edəcəm – dedi.

Məlik tutuldu, bu nəzakətli davranış hara, belə qaba sözlər hara? Sonra yadına düşdü, indi burda danışılan dildə rədd etmək sadəcə sərhəddi keçirmək deməkdir. İmamqulu heç bir nəzakətsizlik etməmişdi.

Oteldən çıxıb yerlə-yeksan olmuş İçəri şəhərin dağılmış küçələriylə addımladılar. Qoşa qala qapılarının yanına çıxdılar. Qoşa qala qapıları dururdu, amma indi çox mənasız bir görkəmi vardı, çünki ətrafındakı qala divarları sökülmüşdü, məlum deyil ki, indi bu qapıların nə əhəmyyəti var?

– Qala divarları hər yerdə sökülüb?

İmamqulu:

– Bəli ağa – dedi – o daşlardan tazə divarlar çəkilib: Badi-Kubəylə kafərlər arasında.

Məlik cavabından qorxaraq bir sual da verdi:

– Qız qalası da sökülüb?.

– O qala kafərlər tərəfində qalıb. Deyilənə görə, indi ora taxtaşalban ambarıdır.

Yeni yöndəmsiz divarlar qoşa qala qapısından bir az aralı çəkilmişdi. Sərhəd keçidi də buradakı dar qapı idi. İmamqulu Məliyi qapıya qədər ötürdü. Bu tərəfdə hilallı yaşıl bayraq, o tərəfdə oraq-çəkicli qırmızı bayraq dalğalanırdı.

İmamqulu: – Ağa Allahın köməkliyilə yolunuz açıq olsun – dedi və Məlik sərhəddin o tayından bir də çevrilib baxanda gördü ki, İmamqulu hələ də onu izləyir. Məliyə elə gəldi ki, indi İmamqulunun gözlərində sonsuz bir qüssə vardı.

II

Sərhəddin bu tayında ilk gördüyü bina ona tanış gəldi. Əlbəttə yanılmırdı, bu Nizami muzeyinin binasıydı. Amma nə isə tamam başqa cür görünürdü, elə bil dəyişmişdi. Diqqətlə baxıb başa düşdü, binanın şərq üslubunda tağlı qapıları, pəncərələri indi dümdüz edilmişdi və dəmir barmaqlıqlar ardında idi. Rəngbərəng kaşılar da yoxdu.

Məlik binanın fasadına baxdı. Buradakı altı lodci də dəyişdirilmiş, kaşısızlaşdırılmış və dördkünc kvadratlar biçiminə salınmışdı. Məlik heykəllərə baxdı və əvvəlcə gözünə inanmadı. Şairlərin, ədiblərin yerini indi tamam başqa heykəllər tutmuşdu. Məlik birinci üçünü tanıdı – Engels, Lenin, Stalin, o biri üçünü isə heç cür tanıya bilmədi.

Bəs Nizaminin heykəli? Çevrilib qarşı tərəfə baxdı. Nizami heykəlinin yerində indi daha da uca bir kişi heykəli dayanmışdı. Heykəl ağ mərmərdən, eynəkləri qara mərmərdəndi. Marat!

Əlbəttə, Maratın heykəlidir – deyə tapdı. Heykəlin hər iki tərəfində iki gözətçi əsgər farağat dayanmışdı.

Keçmiş muzeyin qarşısında iri kiril hərfləriylə Azərbaycan və rusca MARAT MEYDANI sözləri yazılmışdı. Muzeyin yan tərəfinə də lövhə vurulmuşdu: MARAT QARAGÖZOV KÜÇƏSİ.

Ərxanın verdiyi adres məhz bu küçə idi. Uzaqdan binanın girişində yazılmış BAKI KOMMUNASI BAŞ KOMİSSARLIĞI sözlərini oxudu. Beyrəyi burda tapacaqdı.

Bir-iki addım atan kimi on-on iki yaşlı qız uşağı, qucağında da dörd-beş yaşlı oğlan – onun qabağını kəsdi, bu əcnəbiyə hansı dildə müraciət etdiyini bilmədiyindən əliylə balaca uşağın ağzını göstərdi – bu bütün dillərdə aydın olan bir işarəydi – yəni acdır. Qızın üst-başı cır-cındır içində idi. Məlik əlini cibinə atdı. Əlinə ilk keçən tümənlər oldu, tümənləri qıza uzatdı. Qız aldı, baxdı, baxdı, sonra tüpürüb yerə atdı. Məlik dərhal məsələni anladı – burada o pulların qara qəpikcə qiyməti yoxdu.

Pərt olmuşdu. Yenidən əlini cibinə atdı, bir dollar çıxarıb qıza uzatdı. Qızın gözləri işıldadı, elə həmin andaca, sanki hardansa yerin

altından çıxıb bir dəstə dilənçi onu dövrəyə aldılar. Imamqulunun sözləri yalan deyilmiş.

Qəribədir, çoxusu eyni cütlük şəklində idilər – on-on iki yaşlı, cındırından cin ürkən qızlar və qucaqlarında dörd-beş yaşlı, güman ki, qardaşları. Hamısı da eyni ədayla balacanın ağzını göstərirdilər, yəni ki, acdır.

Məlik yenə əlini cibinə atdı, iki beş dollarlıq, bir on dollarlıq çıxartdı, pulları havada qapdılar və ələ keçirə bilməyənlər bir-birini didməyə başladı. Daha xırda pulu yoxdu, amma indi azı üç-beş dəfə çoxalmış dilənçi dəstəsi onu heç cür aradan çıxmağa qoymurdu. Nəhayət milis fiti eşidildi və milis onlara tərəf gəldikdə hamısı elə bil kül kimi sovrulub yox oldular. Yalnız bir ayağı şikəst olan qızcığaz axsaya-axsaya geri qaldığından milis onu yaxaladı, əlini paltarının yaxasından içəri salıb on dolları çıxartdı, cibinə qoydu və qıza bir təpik vurub qovdu.

Məlik Komissarlıq binasının üstündə Maratın iri şəkli olan qapısından içəri girdi. Qapıda da milislər dayanmışdı. Məlik:

– Mənə Beyrək Məmmədli lazımdır – dedi – Burada işləyir.

Milis yandakı pəncərəni göstərdi:

– Tuda.

Üstündə Maratın boz kitelli şəkli olan pəncərənin ardında boz kitelli, döşü dairəvi qırmızı nişanlı, qara eynəkli kişi oturmuşdu.

Məlik:

– Beyrək Məmmədlini görmək istəyirəm – dedi və əlavə etdi – atasıyam.

Kişi:

– Burda takoy adam yox – dedi.

Məlik: – Ola bilməz – dedi – Məmmədli Beyrək. Nəqliyyat mühəndisidir. İnjener-elektrik.

Kişi telefonu götürüb harasa zəng elədi, Məlik eşitməsin deyə xısın-xısın danışdı, sonra Məliyə anket uzatdı: – Zapolnyayte – dedi – Azərbaycan və rus dillərində.

Məlik anketi doldurub kişiyə uzatdı.

– Dokument!

Məlik sənədlərini də verdi. Kişi uzun zaman sənədlərə və anketdəki cavablara baxdı, onları tutuşdurdu, sonra anketi Məliyə qaytardı:

– Nepravilna – dedi.

– Nə düz deyil?

– Data nepravilna

Məlik anketin altında qoyduğu tarixə bir də nəzər saldı: 22 mart. – Məgər bu gün mart ayının 22-si deyil?

Kişi:

– Net – dedi – Mart ayının yox, Marat ayının.

– Marat ayının?

– Uje iki ildir bu ay belə adlanır, xəbər yoxdur?

– Yox.

Məlik anketi yenidən doldurdu və altında 22 marat tarixini qoyub qaytardı.

– İkinci etaj. 5-ci otaq. Yoldaş Telman Qaraxanovun yanına.

Məlik pilləkənlərlə qalxmağa başladı. Pilləkən boyu Maratın müxtəlif şəkilləri vurulmuşdu: Marat at belində, Marat piano arxasında.

Beşinci otağa çatdı, qara meşin qapını açıb içəri girdi.

Boz kitelli, döşü qırmızı nişanlı qız:

– Kto vı, kim lazımdır? – dedi

– Yoldaş Qaraxanov – Məlik sənədlərini və anketi qıza uzatdı.

Qız diqqətlə yoxladıqdan sonra: – Minutu – deyə sənədləri, anketi götürüb qarşıdakı meşin qapılardan içəri keçdi.

Məlik qəbul otağına nəzər saldı. Dörd divarın dördündə də Maratın eyni, boz kitelli şəkilləri asılmışdı.

Divarlarda:

Bütün dünya proletarları birləşin!

Yaşasın Şanlı Bakı Kommunasının varisi şanlı Bakı Kommunası!

Bütün dünyada Kommunizmin tam qələbəsi mütləqdir, çünki labüddür. Marat – sözləri yazılmışdı.

Kiçik masada bir qalın kitab, bir də cib dəftərçəsi boyda qırmızı cildli kitabça və "*Bakinskaya İskra*" qəzeti qoyulmşdu.

YOLDAŞ MARATIN ŞƏRƏFLİ HƏYAT YOLU adlı kitabın üstündə Maratın şəkli vardı. Şəkli balaca qırmızı kitabın üstündə də gördü. Balaca kitabı götürdü. Maratın ayrı-ayrı kəlamları yazılmışdı. Bir-ikisini oxudu:

Xalqın arzusu – Partiyanın arzusudur.

Bizim işimiz haqdır, çünki biz haqlıyıq.

Gələcək ayrı-ayrı millətlərə deyil – proletariata məxsusdur.

Məlik kitabçanı qapayıb Bakinskaya İskra qəzetini götürdü.

Tarixinə baxdı:22 marat. Bugünküydü. Qəzet iki dildə – Azərbaycanca və ruscaydı. Başında yenə dünya proletarlarının birləşməsi

haqqında şüar və Maratın kommunizmin tam qələbəsi haqqında kəlamı verilmişdi.

Birinci səhifədə Maratın qara gözlüklü, kitelli şəkli dərc olunmuş və altında iki dildə bu sözlər yazılmışdı:

Baş Komissar Marat Qaragözov bəşəriyyətin min illər boyü həsrətlə yolunu gözlədiyi mətin və müdrik Kommunistdir.

Qız qapıdan çıxdı.

– Keçin – dedi.

Məlik Qaraxanovun kabinetinə daxil oldu. Qaraxanov çox iri masanın arxasında oturmuşdu. Məliyi görəndə ayağa durdu. Amma qəribədir, oturduğu vəziyyətdə durduğu vəziyyətdən daha uca görünürdü. Masanın arxasından qalxanda sanki balacalaşdı. Ümumiyətlə çox qısaboy idi. Əynində döşü qırmızı nişanlı boz kitel, gözlərində qara eynək vardı.

Əlini uzatdı, əli çiy ət şəntiri kimi süst və soyuq idi. Qarşısına Məliyin sənədləri və anketini qoyduğuna baxmayaraq soruşdu:

– Kto vı, bura otkuda, kak, nə üçün gəlmisiz?

Məlik adını, soyadını, haradan və necə gəldiyini söylədi.

Qaraxanov mənalı:

– Aa... Turtsiya – dedi – ponyatno.

Məlik gəlməyinin məqsədini söylədi: Bakı Kommunası haqqında Türkiyə mətbuatında obyektiv yazılar yazmaq istəyirəm.

Telman Qaraxanov:

– Mən burjua pressasının obyektivliyinə inanmıram – dedi – amma mənim ponimaniyamda sizin zadaçanız oğlunuzu görməkdir.

– Bəli, bunu gizlətmirəm. Eşitdiyimə görə oğlum burada işləyir. Beyrək Məmmədli.

Qaraxanov ağızucu gülümsündü:

– Yəqin siz Boris Mamedovu imeyete v vidu – dedi – Bəli svedeniyamız var ki, o na samom dele sizin oğlunuzdur.

– Necə Boris, axı onun adı Beyrəkdi... e... Beyrək idi.

– Çoxdan dəyişib. Kstati Beyrək nə deməkdir?

– Beyrək Dədə Qorqud dastanının qəhrəmanlarındandır.

Qaraxanov fikrə getdi:

– Dədə Qorqud, Dədə Qorqud – deyə bir neçə dəfə təkrar etdi – a vspomnil, eto zapreşennaya antinarrodnaya panturkistskaya skazka.

Mübahisə etməyin mənası yoxdu – nə yer o yerdi, nə zaman o zamandı. Məlik sadəcə: – Oğlumu görə bilərəm? – deyə soruşdu.

– Koneçno – Qaraxanov telefonun dəstəyini qaldırdı.

– Borya – dedi – zaydi ko mne, tut tvoy otes prişol – qulaq asıb güldü: – da net, ne s toqo sveta, iz Turtsiyi – sonra əlavə etdi – vproçem eto odno i to je...

– Məlik otağa göz gəzdirdi. Sənayenin, təhsilin, maarifin inkişafı haqqında diaqramalar, cədvəllər, yenə artıq tanış olduğu şüarlar və hər divarda boz kitelli, qara eynəkli adamın eyni şəkli. Amma bir divarda başqa şəkillər də vardı: Üçü məlum – Engels, Lenin, Stalin... Dördüncünü – keçi saqqal kişini tanımadı. Deyəsən elə Nizami muzeyinin fasadındakı heykəllərdən biri də onun idi.

Qaraxanovdan:

– Bu kimdir? – deyə soruşdu.

Qaraxanov təntənəli bir səslə: Yoldaş Stepan Şaumyan – dedi – Birinci şanlı Bakı Kommunasının rəhbəri. Biz ikinci şanlı Bakı kommunası o şanlı Kommunanın prodoljateliyik.

Məlik: – Axı bu erməni Şaumyan – deyə sözə başlamaq istəyirdi ki, Qaraxanaov kəskin bir tərzdə onun sözünü kəsib: – Yoldaş Şaumyan erməni deyil, kommunistdir – dedi.

Məlik özünü nə qədər təhlükəyə atdığını aydın dərk etsə də dözə bilmədi:

– Bilirsiz bu kommunist-daşnak 18-ci ildə elə bu mart... bağışlayın... marat ayında nə qədər azərbaycanlı qırıb?

Qaraxanov daha da qəzəbli görkəm alaraq: – O Azərbaycanlıları yox, müsavatçıları nakazat eləyib – dedi – Azərbaycan, rus və erməni proletariatının qəddar düşməni müsavatçıları...

Ağzı köpüklənirdi, sonra bir stəkan su içib bir qədər sakitləşdi: – Əlbəttə – dedi – siz Türkiyəlisiniz, soznaniyanız burjua propoqandasıyla zəhərlənib. Elə bizim öz millətçilərimiz də vaxtilə Şaumyan yoldaşa, Bakı kommunasına çox böhtanlar atıb. Pozor. İndi biz istoriçeski pravdanı vosstanovit elədik. Biz, baş komissar Marat yoldaşın rəhbərlik etdiyi Bakı bolşevikləri. Bəli, biz qordimsya ki, Qafqazda Proletariat diktaturasanın znamyasını yenə də Bakı proletariatı qaldırdı.

Bakı həmişə inqilabın kolıbeli... e... e...

Məlik qeyri-ixtiyarı: – Beşiyi – dedi

– Verno, beşiyi olub. İndi Rusiyada da kommunistlər vlasta gələndən sonra, bütün mir bildi ki, bu düz yola birinci biz... başladıq.

– Rusiyada kommunistlər demokratik seçkilərlə hakimiyyətə gəldi, amma gələn kimi Dumanı qovdular.

– İ pravilno sdelali. Bu boşboğaz boltunlar sobraniyası proletariata lazım deyil. Skoro SSSR-i vosstanovit edəcəyik, və bu işin də pioneri Bakı kommunistləri olacaq.

Məlik hiss elədi ki, ürəyi sıxılır, söhbəti dəyişmək üçün:

– Bəs o muzeyin... qabağındakı o biri heykəllər kimindir? – dedi.

– Hansı muzeyin?

– Bağışlayın... Unutdum ki, indi bura kommissarlıqdır. Vaxtilə burda Nizami muzeyi yerləşirdi.

– Nizami? Nizami. Ax da – eto poet.

– O da yasaq edilib? – Qaraxanovun yasaq sözünü anlamadığını görüb – zaprcşennudur? – dedi.

– Net, poçemü je... Prosto belə kitabları çap eləmirik, feodolizm şairləri proletariata lazım deyil. Kstati, bax – masasının üstündəki qalın kitabı göstərdi – Marat yoldaşın yeni bioqrafiyası çıxıb. Sovetuyu, oxuyun, çox interesnı kitabdır.

– Kim yazıb?

– Kitabları otdelni adamlar yazmır. Eto kollektivnıy trud qruppı proletarskix pisateley. Onlar bütün proletar sinfinin ürək sözlərini vıracat eləyon belə kitablarda öz adlarını yazmağa ne nucnı sayırlar – Məliyin bayaqki sualını xatırlayıb: Hə, orda Komissarlığın qabağındakı heykəlləri spraşivat elədiniz. Bu ən veliki kommunistlərin heykəlləridir: Yoldaş Engels, yoldaş Vladimir İliç Lenin, yoldaş İosif Vissarionoviç Stalin, yoldaş Stepan Şaumyan, yoldaş Kirov və yoldaş Orconikizde...

– Alman, rus, gürcü, ermənı... Bəs heç azərbaycanlı kommunist olmayıb?

Qaraxanov başını tutdu:

– O nesçatnıy çelovek, obolvanennıy burjuazno – nasionalistiçeskimi predrasudkami – dedi – priçem burda rus, ermənı. Onlar kommunistdirlər, kommunistin milləti olmur. Onun milləti... proletariatdır. Budur bax, yoldaş Marat nə deyir – ayağa durdu, balaca qırmızı kitabçanı açıb oxudu: Gələcək ayrı-ayrı millətlərə deyil, proletariata məxsusdur. Ponyatno? Yox, əgər siz hələ kimin hansı nasiyadan olmasına vnimaniyə obraşat eləyirsiz onda bəs yoldaş Maratın o boyda böyük heykəlini görmədiz? O ki sizin ponimaniyanızla desək, azərbaycanlıdır.

– Bəli, əlbəttə.

Məlik bayaq binanın qarşında heykəllərə, indi otaqda şəkillərə baxanda da nəyinsə, daha doğrusu kiminsə burda çatmadığını düşünmüşdü, amma heç cür anlaya bilmirdi ki, bu çatmayan, olmayan nədir, kimdir, indi birdən-birə xatırladı:Marks, əlbəttə Karl Marks.

– Bəs yoldaş Marks niyə yoxdur? – dedi – nə orda, nə – divarı göstərdi – burda.

Qaraxanov bir an susduqdan sonra:

– Da, – dedi – bu slojnı voprosdu. Məsələ ondadır ki, biz yoldaş Marksı elmi kommunizmin osnovateli kimi tsenim. Amma o evrey idi. Bizim isə əsas düşmənimiz... dünya imperializmi və sionizmdir. Marksın pamyatnikin qoysaq, şəklini azsaq eto moqut nepravilno ponyat.

Elə bu vaxt qapı açıldı və döşü qırmızı nişanlı, boz kitelli, qara eynəkli bir adam içəri girdi, gözucu Məliyə tərəf baxdı.

Məlik də ona baxdı. Qaraxanov əyri bir təbəssümlə:

– Oğlunuzu tanımadınız – dedi – Borya, snimi oçki.

Gələn adam qara eynəklərini çıxartdı. Beyrək idi. Amma Məliyə elə soyuq nəzərlərlə baxırdı ki... Məlik oğlunun boynunu qucaqlamaq istədi, amma durdu: bəlkə kommunistlər oğulla-atanın qucaqlaşmasını da qadağan ediblər. Sadəcə əlini uzatdı və Beyrək də ona əl verdi. Elə bu vaxt qara telefon səsləndi. Qaraxanov cəld dəstəyi götürdü, dorhal ayağa durub: Sluşayu tovariş Marat – dedi, ayağa duranda yenə boyu kiçildi – Siyu minutu budu. – Məni yoldaş Marat çağırır, Borya iditc sənin otağına.

Qapıdan çıxarkən Qaraxanov:

– Prosveti otsa – dedi – yoldaş Şaumyanın tarixi zasluqası haqqında çox oşiboçnı fikirdədir. Bir az deyəsən, nasionalist və pantürkist uklonu da var.

Qapıdan çıxdılar. Beyrək dəhlizdə duran döşü qırmızı nişanlı, boz kitelli, qara eynəkli adamlardan birini çağırdı. Cibindən pul çıxartdı: – Al bu yüz rublu – dedi: bufetdən bir vodka al, bir də pirojkidən, selyotkadan, nə tapsan.

Məlik fikir verdi ki, pulun üstündə də Maratın şəkli var. Bilmirdi nədən başlasın: – Yüz rubl neçə dollardır? – deyə soruşdu.

Beyrək:– Yüz rubl elə yüz dollardır – dedi

Məlik: – Yüz dollara alırsan arağı? Nə baha?

– Rəsmi kursla bir rubl bir manatdır – istehzayla güldü – əslində yüz rubl bir dollardır.

– Onda da çox ucuzluqdur ki, bir dollara araq, pirojki...

– Ancaq bizim binada, komissarlığın bufetində belədir, şəhərdə hər şey on qat bahadır.

Maratın şəkilləri və cürbəcür şüarlar, diaqramlar asılmış dəhlizlə liftə çatdılar. Beyrək: – Burda işləməyin də öz üstünlükləri var – dedi.

Liftə girdilər. Liftin içində də Maratın şəkilləri asılmışdı. Boz kitel, qara eynəklər. Bircə döşündə qırmızı nişan yoxdu. Məlik Beyrəyin döşündəki qırmızı nişana baxdı – Maratın şəkli vardı nişanın üstündə.

Liftdən çıxıb meşin qapılı otağa yanaşdılar, Beyrək açarla qapını açdı, içəri keçdilər. Yenə həmin şəkillər, həmin şüarlar. Amma bu otaqda çoxlu texniki cihazlar və bir neçə televizor da qoyulmuşdu. Hər yerdə Maratın şəkilləri vardı, amma bir şəkil Məliyin diqqətini çəkdi. Uyuyan uşaq – 5-6 yaşlı qızcığaz. – Bu kimdir – deyə soruşdu. Düşündü ki, bəlkə Beyrəyin qızıdır, yəni nəvəm.

– Qızındır?

– Yox, biz rəssamın çəkdiyi şəkildir. Altındakı yazını oxu. Məlik eynəyini taxıb yazını oxudu. "Yuxuda Marat yoldaşı görür".

Beyrək: – Yoldaş Qaraxanova Şaumyan haqqında nə demisən ki? – deyə soruşdu.

Məlik: – Heç nə, dedim ki, Şaumyan daşnak idi.

– Söz tapmısan danışmağa. Özü də kimə? Qaraxanovun anası ermənidir.

Susdular. Bu üzücü sükutu pozmaq üçün Məlik necə, hardan və nə məqsədlə gəldiyindən danışmağa başladı, amma deyəsən bütün bunlar Beyrəyi... e... Borisi qətiyyən maraqlandırmırdı.

Məlik:

– O zonada... ananla görüşdüm – dedi – Onunla əlaqə saxlayırsan?

Beyrək laqeyd bir tonla:

– Yox – dedi – eşitmişəm ki, mollalıq eləyir. Mənim mollalarla aram yoxdur – sonra əlavə etdi – elə bizi bu günə bir az da mollalar qoymadılar?

– Molla, ya qeyri molla, axı o sənin anandır...

Beyrək üzündə istehzalı bir ifadə göründü – Ana, ata – dedi – keçmiş əsrlərin puç olmuş xülyaları – sonra əlavə etdi – bu dünyada insanın özündən başqa heç kəsi yoxdur.

Məliyi dəhşət bürüdü: – Belə yaşamaq olar?

Beyrək: – Görürsən ki, yaşayıram – dedi

– Burlayla necə, onunla da əlaqən yoxdur?

– Xeyr, o da rəqqasəlik eləyir, Baku sitidə göbək atıb kapitalistləri əyləndirir.

Məlik: Göbək rəqsi? – deyə soruşdu, sonra öz-özünə: – Deyəsən mən bura yalnız sarsıntılar keçirmək üçün gəlmişəm – deyə düşündü.

Beyrək cavab vermədi. Araya yenə sükut çökdü. Sonra Məlik:

– Dolanışığın necədir? – deyə soruşdu.

– Mənimki pis deyil. Bu binada işləyənlərin çoxu kimi.

– Bu binada? Bəs bu binadan kənarda?

– Özün görmədin? Dilənçilər qabağını kəsmədi?

– Gördüm. Dilənçi çoxdur?

Beyrək:

– Əhalinin yarıdan çoxu. – dedi, sonra istehzayla əlavə etdi: – proletar balaları.

– Bu uşaqlar bir yerdə işləmir, oxumur?

– Ha, ha... İş var ki, işləsinlər? Oxumaq... – qəhqəhə çəkdi – cəmisi iki məktəb var, orda da komissarlıqda işləyənlərin balaları oxuyur.

Məlik siqaret çıxarıb odladı – çəkirsən?

– Yox – sonra qutuya baxıb – türk siqaretidir? – dedi

– Bəli.

– Ver birin çəkim.

Beyrək siqaretini alışdırdlı, bir qullab alıb: – Bilirsən, məktəblərdə bütün siniflərdə dərslər necə başlayır?

– Yox, hardan bilim.

– Əvvəlcə Marat yoldaşın şəninə şüarlar deyirlər, sonra da qarğış etməyə başlayırlar.

– Qarğış?

– Bəli. Marat yoldaşın, proletariatın və Bakı kommunasının düşmənlərinin gözləri çıxsın, vərəm olsunlar, infarkt olsunlar, rak olsunlar, SPİD olsunlar. Marata əl qaldıranın əli qurusun, onun haqqında pis danışanın dili qurusun.

Məlik: – Yadımdadır, uşaqlıqda bizim kənddə bir qoca qarı vardı. Elə hey hamıya bax eynən beləcə qarğış edərdi.

– SPİD-dən də xəbəri vardı?

– Yox, amma o da deyərdi ki, nə bilim filankəsin gözü çıxsın, ciyəri yansın, dili tutulsun, qan qussun. Allah ona qotur versin, dırnaq verməsin.

Beyrək güldü: – Bax bu nə isə təzə sözdü – dedi – gərək yazaq, Marat yoldaşa verək, mətnə əlavə etsin.

Yenə siqaretdən dərin bir qullab aldı.

– Qara eynək niyə taxırsan, gözlərin pis görür? Fikir verdim, Qaraxanov da bu cür qara eynək taxır, o biri adamlar da... Hamısı da boz kitelli. Niyə?

– Ayrı geyim məsləhət görülmür.

– Qara eynəklər də məcburidir?

– Yox, bu yalnız yoldaş Maratla həmrəylik nişanəsidir. Könüllüdür, amma bu binada işləyənlərin hamısı buna riayət edir.

– Deyirlər ki, bu yoldaş Marat çaşdır, ona görə də qara eynək taxır. Sənə nə düşüb, ceyran kimi gözlərin var – oğluna xoş söz dedi ki, bəlkə aralarındakı buz bir az əriyə. Beyrək buna məhəl qoymadı:

– Çaş-zad deyil yoldaş Marat – dedi – sonra gözlənilməz bir hiddətlə əlavə etdi – intəhası gözlərini qan tutub, o qədər adam qırıb ki, heç kəsin gözünə dik baxa bilmir.

Məlik donub qaldı. Ətrafadakı cihazlara göz gəzdirdi:

– Qorxmursan belə danışmağa? Dinləyib eləyə bilərlər.

– Nədən qorxacam? Mənə nə eləyə bilərlər? Burda mütəxəssis bir mənəm. Mənə ehtiyacları var, hamısı kəmsavad adamlardır burda rəhbərlik eləyənlər. Biri keçmiş aşbaz, biri keçmiş süpürgəçi, biri keçmiş hambal. Ən savadlıları Qaraxanovdur ki, o da otuz il çəkməçilik eləyib.

– Bəs Marat?

– Keçmişdə şəhərin məşhur dəlləklərindən imiş.

– O nə millətdir?

– Allah bilir. Guya azərbaycanlıdır, amma ildə-ayda bir dəfə azərbaycanca danışanda elə danışır ki, danışmasa ondan yaxşıdır – Məlik fikir verdi ki, Beyrək özü təmiz azərbaycanca danışır, Qaraxanov kimi kəlməbaşı rus sözləri işlətmir.

– Deyirlər Maratın yəhudi qanı da var, ona görə belə qəddar antisemitdir, olan-qalan yəhudilərin başına it oyunu açır. Bu kitabı görürsən – masasının üstündəki yeni qalın kitabı göstərdi – Maratın yalançılar sözü olmasın əllinci bioqrafiyasıdır. Hər kitabda da tərcümeyi-halına yeni-yeni faktlar artırırlar. Yazılanları vaxt etibarilə hesablayan olsa, görər ki, azı yüz il ömür sürüb. Gah yazırlar ki, Maonun, Kim İr Senin hərbi müşaviri olub, gah yazırlar ki, Fidel Kastroya kommunizmin nəzəriyyəsini öyrədib, ya nə bilim Afrikada zənciləri müstəmləkəçilərə qarşı üsyana qaldırıb. Amma əslində bütün bu vaxtlar Bakıda dəlləklik edirmiş...

– Bəs bunu bilənlər yoxdur?

– Var idi. Hamısını ilim-ilim itirdilər, izləri-tozları qalmadı. Bütün başını qırxdığı köhnə müştərilərini bir-bir tapdırıb qırdırdı. Təsadüfən bir-iki – qalanı varsa, onlar da Marat yoldaşın gizli inqilabi fəailyyəti haqqında xatirələr danışır. Bəli, bir vaxt dəllək olub, indi də bizim başımızda eləyir dəlləkliyini – rişxəndlə: – Baş komissar! – dedi – doğrudan da ömrü boyu işi başla olub. Əvvəl baş qırxıb, indi də baş kəsir.

– Belə danışma Beyrək, bir az ehtiyatlı ol, bəlkə dinləyirlər. Sonra altını çəkərsən.

Qorxma. Mənim burda işim bilirsən nədir? Xarici radioları, televizorları, internеti zərərsizləşdirmək, yəni heç kəs heç nəyi eşidə, görə bilməsin. Amma bax bu otağımda elə qurğular qurmuşam ki, heç bir danışığı eşidə bilmirlər. Odur ki, istədiyimi danışa bilərəm. Əlbəttə, əgər sən gedib məni satmasan.

– Utanmırsan, mənə belə söz deyirsən. Mən sənin atanam axı...

Beyrək acı bir təbəssümlə:– Bilirsən neçə oğul atasından, neçə ata oğlundan PP-yə danos verib, qanına bais olub?

– Pipi nədir?

– PP – Proletar Patrulu. Kommunanın gizli xəfiyyəsi.

Qapı açıldı və boz kitelli, qara eynəkli adam bir şüşə araq, iki pirocki gətirdi. Arağın üstündə Maratın şəkli çəkilmişdi.

Beyrək: – Aclığın var? – dedi – bu görüşdə atasına dediyi ilk insani söz idi.

– Yox. – Nəhayət Məlik qərara gəldi. – Mənimlə niyə belə soyuq davranırsan, Beyrək? Gör neçə ildir görüşməmişik. Mən elə həsrət çəkirdim ailəmi görməyə, elə can atırdım... Bilsən necə çətinliklə gələ bildim bura.

– Gəlib gördün, feyziyab oldun?

– Mənimlə belə danışma. Mənim nə təqsirim var axı?

Beyrək cavab vermədi. Dolabdan bir qədəh və bir stəkan çıxardı. Arağ şüşəsini açdı, Məliyin qədəhinə süzdü, sonra öz stəkanını ləbaləb doldurdu, yenə də heç nə demədən stəkandakı arağı bir nəfəsə başına çəkdi. Heç yavanlıq da eləmədi, eləcə biləyini iylədi. Məliyin yadına düşdü ki, haçansa görmüşdü, bəzi ruslar arağı belə içir. Handan hana Beyrək-Boris dilləndi:

– Deyirsən nə təqsirim var? Bəs bütün bu illər hardaydın, ailəm dediyindən xəbərin vardı? Gedib özünçün Türkiyədə rahat yaşamısan, indi də durub gəlmisən ki, ailəmə baş çəkim... Deyirsən nə bilim, ata belə gəldi, ana belə getdi, budur sonсə atalıq?

– Düz demirsən, Beyrək. Özün də bilirsən, bütün yollar qapanıb, bütün əlaqələr kəsilib. Mən necə sizinlə əlaqə yarada bilərdim ki, heç sağ qalıb-qalmadığınızdan da xəbər tuta bilmirdim.

– Bəs bizi atıb Türkiyəyə gedəndə necə?

– Yenə düz demirsən. Mən sizi atmamışdım, on günlüyə ezamiyyətə getmişdim.

– Neçə il çəkdi ezamiyyətin?

– Nə bileydim ki, belə hadisələr baş verəcək. Mən axı burdan gedəndə hardan biləydim ki, bütün bunlar olacaq.

– Xeyr, bağışlayacaqsan. Bu hadisələr, elə sən burda olanda başlamadı? Sən ölkənin tanınmış jurnalisti idin, görmürdün ki, hadisələr hansı məcrada gedir? Qəzetlərin nə yazdığını oxumurdun, televizorda, radioda nə səsləndiyini eşitmirdin? Bilmirdin ki, bir-birinə ədavət, kin püskürən bütün bu yazılar, çıxışlar, bu qan-qan deyən adamlar cəmiyyətdə elə bir nifrət potensialı yaradır ki, bir gün böyük partlayış baş verəcək, hər şey alt-üst olacaq? Oldu da. Qurunun oduna yaş da yandı.

– Partlayış mən gedəndən sonra, cəmisi on-on beş günün içində oldu.

– Amma sən burda olanda qarşısını ala bilmədin...

– Qarşısını necə alaydım?

– Niyə, ölkənin nüfüzlu ziyalısıydın. Adamları ağıllarını başına yığmağa çağıraydın, deyəydin ki, qardaşlar, bunun axırı fəlakətdir, qandır, ölümdür, bir-birinizə qənim kəsilməyin, qardaş qanı tökməyin.

– Yəqin unutmusan Beyrək, Mən çox dedim, lap çox, eşitmədilər. Danışdıq, qulaq asmadılar, yazdıq, oxuyan olmadı. Gözlərini qan tutmuşdu, heç nə görmürdülər. Çığır-bağırdan qulaqları batmışdı, heç nə eşitmirdilər. Eşitmək istəmirdilər. Öz səslərindən başqa heç nə eşitmək istəmirdilər – deyə təkrar etdi.

– Eh... – Beyrək bir stəkan da araq süzüb başına çəkdi, pirojkidən bir tikə dişlədi.

– Sən gedəndən sonra bilirsən nələr oldu?

Məlik: – Bilirəm – dedi – Bakıda, rayonlarda toqquşmalar, vətəndaş müharibəsi... Ceyhan borusunun partladılması. Orda yazırdılar ki, bunu ASALA ya da PKK edib.

– ASALA ya PKK, nə fərqi var? Hər halda üç gün sonra Ermənistan Atom stansiyasında partlayış oldu. Ermənistan ərazisi də, Qarabağ da indi azı üç yüz il insanlarçün yaşanılmaz hala gəldi. – Beyrək acı-acı güldü – Qarabağ məsələsi də bir dəfəlik belə həll olundu.

Məlik: – Onu da Türklərin boynuna qoydular – dedi – Erməni diasporası dünyada bir vay-şivən qaldırdı ki, XX əsrdə bir soyqırımı olub, bu da ikinci genosid. Türkiyəni bütün beynəlxalq təşkilatlardan təcrid etdilər, iqtisadi və nəqliyyat blokadasına aldılar. Halbuki bu işdə Türkiyənin əli olduğunu indiyədək heç kəs sübut edə bilməyib.

Beyrək:

– Edə də bilməz – dedi – amma bunun nə əhəmiyyəti var? Dünya yalanla idarə olunur. Yalanla və güclə. Həqq qəvinindir – eşitməmisən?

Məlik fikir verdi ki, Beyrək bu qədər içsə də nə nitqinin məntiqi, nə da danışığı pozulurdu. Elə bil heç içməmişdi. Bircə gözləri azacıq dumanlanmışdı.

– Sonra da – Mingəçevir...

O, bu sözü çətinliklə tələffüz etdi. Arağın təsirindəndimi ya bütün azərbaycanlıların ən ağır faciəsindən, ən böyük ağrısından xəbər verən bir sözü dilinə gətirməyindənmi?

– Kim partlatmışdı Mingcəçevir bəndini? Daxildə çəkişən qüvvələr, kompüterin səhvi nəticəsində raketlərin yolundan sapması, separatçı ya xarici qüvvələr? Açılmamış və heç bir vaxt açılmayacaq sirr...

Məlik bilirdi: Ermənistan atom stansiyasının partlayışı kimi Mingəçevir bəndinin dağılması da tək XXI əsrin deyil, bəlkə də bütün əsrlərin ən böyük fəlakəti, ən nəhəng ekoloji və humanitar musibəti idi. Azərbaycanın bütün aran rayonları su altında qalmışdı. Əhalinin bir hissəsi dağlara qaçmışdı.

Məlik:

– Ora xəbər çatdı ki, salamat qala bilənlər dağlara çəkilib – dedi – onların vəziyyəti necədir?

– Necə olacaq? Tam dərəbəylik. Hər dərədə, daha doğrusu hər dağda bir bəy var. Bir bəy, bir ağa, bir kəndxuda, bir quldurbaşı, bir kərtənkələ, no bilim kim. İbtidai icma, əşirət dövrü... Hər boynu yoğun camaatı qul kimi saxlayıb qan uddurur.

– Elə o vaxtdan Bakı da üç yerə bölündü.

– Bəli. BMT qərar çıxartdı. Burada tam bir anarxiyanın qarşısını almaq üçün üç dövlətə mandat verildi. Axı burda neft var, böyük dövlətlər onu əldən verərdi heç. İndi bu üç zonada guya ki, üç müstəqil hakimiyyət yaradıblar. Bu nə cür müstəqillikdir özün təsəvvür edə bilərsən. Yoldaş Marat tualetə gedəndə də xaricə telefon edib icazə istəyir...

Məlik Beyrəyin içindəki sonsuz ağrını duyurdu, amma nə edə bilərdi? Nə çarə qıla bilərdi, oğlunun da, özünün də, xalqının da bu dözülməz dərdlərinə?

– Oğlum, – dedi – heç olmasa sən burdan canını qurtarıb çıxaydın. – Bu qeyri-mümkündür – Beyrək özü də bilmədən eynən Aypərinin sözlərini təkrar etdi. – Burdan quş quşluğuyla uçub qurtara bilməz. Kommunanın divarlarını görmədin? Keçən il birisi bu divarı dırmaşıb aşmaq istədi, elə yerindəcə gülləylə vurub torpağa sərdilər. Heç kəs heç adını da bilmədi. Bura şəhər deyil – divarlarla dövrələnmiş konslagerdir. Burdan bircə çıxış yolu var – qəbrstanlığa, o dünyaya – gülümsündü – Belə – belə işlər, ata... – İlk dəfə Məliyə belə dedi.

Sonra sanki qeyri-ixtiyari, mexaniki bir hərəkətlə Məliyin dilinə də vurmadığı qədəhini götürüb başına çəkdi – nə qədər gec deyil, burdan uzaqlaşıb get – dedi. – Xoşbəxtsən ki, hələ bu imkanın var. Ayrı xoşbəxtlik axtarma. Biz də burda bir təhər başımızı girləyək, görək əcəl haçan insaf eləyib dadımıza çatdı.

– Beyrək, sənin belə danışmağın, mənimçün ölümdən betərdir.

– Eh, havayı sözlər danışmağa nə var ki?

– Havayı sözlər deyil bu. Nə isə etməliyik. Nə isə etmək lazımdır. Yəni bütün bunları dəyişmək istəyən adamlar qalmayıb burda? Hamı burda elə sənin kimi bədbinləşib, hər şeydən əlini üzüb?

– Yox, niyə ki, ümidini üzməyənlər də vardı.

– Vardı? Bəs indi hardadırlar?

– Xəzərin dibində. Bəxti gətirənlər – Nargin adasında.

– Nargin adasında?

– Bəli, o adanı Bakı Kommunasının ərazisinə daxil etdilər, indi orda möhtəşəm bir konslager qurublar. Mənim bu sənətim olmasaydı, mənə möhtac olmasaydılar, mənim də ən yaxşı halda yerim ordaydı. Niyə də olmasın? Atam Türkiyədə, anam və bacım düşmən qonşuların ərazisində... Amma elə böyük fərq də yoxdur, orda konslager dənizlə əhatə olunub, burda divarlarla.

Məlik əlləriylə üzünü qapadı.

Beyrək: – Kefini pozma ata, – dedi – böyük musibətlərin yanında bizim ailənin taleyi nədir ki... Mən özüm də hər şeyə qane olmuşam. Dolanışığım var. Camaat baxmasın deyə pozduğum xarici televiziyalara özüm gizlində baxıram. Bəzi kitabları qoruyub saxlaya bilmişəm – Cəlil Məmmədquluzadəni, Sabiri. Hərdən oxuyuram. Dostoyevskini daha çox oxuyuram. "Şeytanlar"ı. Zalım oğlu elə bil hər şeyi qabaqcadan görüb. Əlbəttə mənim Marat kimi, hətta Qaraxanov kimi pulum-sərvətim yoxdur, amma hər halda...

– Yəni onlar dövlətlidir? Bəs kommnistlər bərabərlikdən dəm vururlar, proletar rəhbərləridir...

– Proletar, kommunist – xeyli güldü, – bu artıq bir az sərxoş gülüş idi – bu sözlərə inanan var? – dedi – Qaraxanovun Fransada, Maratın dünyanın beş qitəsində villaları var, deyirlər ki, Amerika milyarderləri, ərəb şeyxləri qələt eləyər onun yanında.

Birdən Məliyin yadına düşdü:

– Pianino çalır Marat? – dedi.

– Pianino? – Beyrək təəccüblə gözlərini ovuşdurdu, arağın təsiri hiss olunurudu. – Bu hardan çıxdı?

– Pilləkənin yanında şəklini gördüm, piano arxasında.

– Hə... – Beyrək qəhqəhə çəkdi – şəkildir də çəkdirib, heç çijik-pijik də çala bilmir. O biri şəkli də gördün, at belində?

– Gördüm.

Ömründə nəinki ata, heç eşşəyə də minməyib. Heykəlini də gördün də Maratın?

– Bəli.

– Gördün necə ucadır? Boy-buxun da ki, maşallah. Əslində Marat Qaraxanovdan da potaboydur. Qaraxanovun çiynindəndir.

Beyrək bir qədəh də süzüb içdi. – Əşi bu Marat dəsgahdır – dedi – deməklə qurtaran deyil. Bir arvad uşaq doğub dörd kilo yarım. Televiziyada deyirlər ki, Maratın şərəfinə belə böyük uşaq doğulub. Üç gündən sonra Maratın ad günüdür. Bir ay qabaq səbəbsiz-flansız xüsusi olaraq on-on beş adamı tutub basıb ki, öz ad günü şərəfinə amnistiya verib beş-altısın buraxsın. Bu adam özü özündən doymur ki, doymur.

Telefon oldu, Beyrək dəstəyi qaldırdı:

– Da, yaxşı indi gəlirəm – sonra Məliyə – bağışla, Qaraxanov çağırır – dedi – gedək, sənin də buraxılış vərəqinə qol çəksin. Yoxsa burdan çıxa bilməzsən.

Qaraxanovun otağına girdilər. Qaraxanov ayağa durdu və yenə də balacalaşdı. Qəribədir: Stolunun üstündə balaca boşqabda səməni vardı.

Beyrəyə: – Vot – dedi – lyubuysya. Yoldaş Marat çağırmışdı, okazıvaetsya bu gün kakoy-to bayram. Novruz çto li? Tak vot, PP xəbər verib ki, bazarda kimsə bu zeleni satırmış, səməni, çto li, – səməninin bir qırağından qoparıb ağzına qoydu, bir az çeynədi, sonra tüpürdü – fu, kakaya qadost. Bunu da insan yeyər? Stəkandan su içib ağzını yaxaladı.

Məlik maddım-maddım oğluna baxdı, Beyrəyin heç tükü də tərpənmədi. Qaraxanov sözünə davam etdi: – Marat yoldaş dedi ki, xarici radio ilin təxvil, təxvil çto li, olmasının saatını deyib, bunu da eşidən olub. Kuda smotrit Boris dedi yoldaş Marat, nemedlenno primite meri. Pozor. Özü də haçan? Dünya proletariatının böyük prazdniki – Marat yoldaşın den rocdeniyasına üç gün qalmış. Razberites s etim.

– Sonra Məliyə baxıb – gedirsiz – dedi – verin kağıza qol çəkim, – qol çəkdi, – sonra yenə Beyrəyə müraciətlə: – Nu kak, prosvetil eqo nasçet tovarişa Şaumyana?

Beyrək: – Razumeetsya – dedi – söz verdi ki, Şaumyan yoldaşın əsərlərini türkcəyə tərcümə edib orda çap elətdirəcək.

Qaraxanov məmnun-məmnun gülümsədi.

– Eto xoroşo – dedi – nə olsun Türkiyə düşmən qosudarstvodur, biz orada da proletariatı oyatmalıyıq ki, bütün dünyada kommunizmin qələbəsinə qotovı olsunlar. – Məliyə müraciətlə: – papaşa – dedi – siz də unutmayın ən böyük düşmənimiz imperializm və pantürkizmdir.

Məlik:

– Bəs sionizm? – dedi.

– Əbəttə i sionizm.

– Bəs panislamizm, buddizm, katolisizm, protestantizm, parlamentarizm...

– Əlbəttə, əlbəttə – Qaraxanov başıyla təsdiq edirdi. Məliyin də elə bil gic damarı tutmuşdu, vaxtilə Sovet cəmiyyətinin tarixinə dair oxuduğu kitabları xatırlayıb:

– Bəs sürrealizm, impressionizm, modernizm... – deyirdi.

Qaraxanovun sifətində gərgin bir ifadə vardi, bu sözləri bəlkə də ilk dəfə eşidirdi, nə demək olduğunu bilmirdi və bilmirdi ki, bütün bunlar doğrudanmı proletariatın düşmənləridir?

Məlik davam edirdi: – freydizm, feminizm, filatelizm, fetişizm...

Qaraxanov axır ki, arxayın nəfəs aldı, fetişizmi faşizm başa düşüb: – konçno – dedi – faşizm də neprimiri düşmənimizdir. – Beyrəyə müraciətlə – Vicu əməlli-başlı işləmisən papaşayla. Nu xoroşo. Sağ olun.

Beyrək Məliyi qapıyacan ötürdü.

– Bu Qaragözov küçəsiylə get, Marat meydanından sonra Baş komissar küçəsinə burul. Üçüncü zonanın sərhəd keçidi ordadır.

Məlik: – Oğlum – dedi – çox içmə.

Beyrək yorğun-yorğun:

– Yaxşı – dedi.

Məlik bilmirdi daha nə desin. Beyrək saatına baxdı, bunu vaxtı olmadığına işarə kimi də başa düşmək olardı. Ayrılmalıydılar.

Məlik: – Bir dəqiqə eynəklərini çıxar – dedi – gözlərini görmək istəyirəm, bəlkə daha heç vaxt görə bilmədim.

Beyrək: – Boje, kakiye santimenti – dedi, amma bir anlığa eynəyini çıxartdı. Gözləri bom-boş idi, heç bir ifadə yoxdu onlarda. Əlini uzatdı:

– Əlvida – dedi, sonra birdən soruşdu: – Türkiyədə insanlar necə yaşayır?

Məlik: – İnsan kimi – dedi.

III

Divarın dar qapısından keçən kimi Məlik telefonu soruşdu.

– Orda avtomat var, jeton alın – dedilər. Jeton aldı, avtomat – telefon köşkünə girdi və Burlanın nömrəsini yığdı. Bir azdan dəstəkdən səs gəldi: Hello! – Burlanın səsi idi, amma nədirsə başqa cür səsləndi, Bir an sonra Məlik başa düşdü: avtocavabçıdır, özü də cavab ingiliscə səslənir. Məlik bir az bilirdi ingiliscə: – Mən evdə yoxam – sözlərini eşitdi. – Siqnaldan sonra mesajınızı verin.

Siqnal gəldi.

– Salam, Burla Xatun – ancaq uşaqlıqda onu belə, tam adıyla çağırardı. – Mənəm, Məlik, atan... burdayam, səni görmək istəyirəm. Bir azdan yenə zəng edərəm...

Telefonu asmaq istəyirdi ki, dəstəkdən səs gəldi:

– Ata – bu Burlanın səsi idi, özü də lentə yazılmış mexaniki səsi yox, canlı səsiydi və bu səs titrəyirdi.

– Qızım, Burla...

– Ata, sən sağsanmış. Hardan gəlib çıxdın bura?

– Uzun söhbətdir. Görüşəndə danışaram. Səni görə bilərəm?

– Əlbəttə, hardasan?

– Sərhəd keçidinin yanında. Kommunadan gəlirəm.

– Ordan iki keçid var. Hansının yanındasan. Hansı küçədə?

Məlik avtomat köşəsindən küçənin latın hərfləriylə yazılmış adını oxudu:

– Burda 42-ci paralel avenyu yazılıb. Avtomat köşkündən danışıram.

– Ordan heç yerə tərpənmə. Maşınımı göndərirəm. On dəqiqədən sonra orda olacaq. Qara "Mersedes"dir. Şoferin adı Fildir.

– Oldu.

Doğrudan da düz on dəqiqədən sonra qara "Mersedes" köşkün düz qabağında dayandı. Tünd göy kostyumlu, ağ köynəkli, yaxasında qara bant olan sürücü cəld maşından düşdü. Ağ əlcəyini çıxarıb Məliyə əl verdi, sonra nəzakətlə maşının dal qapısını açıb – pliz – dedi. Maşının içi sərin və ətirli idi. Radiosundan ingilis dilində xəbərlər səslənirdi. Geniş prospektlə irəliləyirdilər. Hər iki tərəfdə çox şıq mağaza vitrinləri, çoxlu reklamlar vardı.

Maşın işıqforun qırmızı işığı qarşısında dayandı. Dərhal yeddi-səkkiz yaşında uşaq yüyürüb "Mersedes"in qabaq şüşələrini silməyə başladı. Başqa uşaqlar ba o biri maşınların şüşələrini silirdilər. Şofer şüşəni açıb uşağa bir neçə pens verdi. Uşaq cəld yeni gəlib dayanmış başqa maşına tərəf qaçdı. İşıqforun işığı dəyişdi, maşınlar hərəkətə keçdi. "Mersedes" şəhərin yuxarı hissəsində fiqurlu çəpərlə dövrələnmiş abad həyətə daxil oldu. Sarı kombinzonlu bağban qazonları sulayırdı. Məliyə elə gəldi ki, buralar ona hardansa tanışdır, amma tanınılmaz dərəcədə dəyişmişdir.

Şofer maşını həyətin içindəki üçmərtəbəli evin qarşısında saxladı, cəld düşüb dal qapını açdı. Məlik də maşından endi, Fil:

– Pliz – deyə onu evin qapısına tərəf yönəltdi. Qapıdan girən kimi pəhləvan cüssəli bir oğlan Məliyin qarşısını kəsdi, onun üst-başına əl gəzdirməyə başladı, Fil tələsik ona ingiliscə: – miss Buranın atasıdır – dedi.

Pəzəvəng əl çəkdi, Fil: – Sorri – dedi – miss Buranın bodiqardıdır – son cümlədəki iki sözün şəkilçiləri azərbaycancaydı. Məlik:

– Azərbaycanlısınız? – deyə xəbər aldı.

– Of kouz. Əlbəttə. May neym c... c... adım Fizuli.

Liftə girdilər. Liftin içi də ətir qoxuyurdu, Fizuli-Fil ikinci mərtəbənin düyməsini basdı, qalxdılar. Palıd ağacından olan qapının qarşısına çıxdılar. Fil zəngi basdı, qapı açıldı və Burla, onun balaca Burla xatunu, – indi o doğrudan da yaraşıqlı, xanım-xatın bir qadın olmuşdu – Məliyin boynuna atıldı – Ata, atacan – dedi – bilsən səni görməyimə necə şadam.

– Mənim qədər şad ola bilməzsən, Burla – dedi Məlik.

– Paltonu çıxar. Ver özüm asım – sonra şoferə ingiliscə nəsə dedi. Fil əlini papağının dimdiyinə uzadıb getdi.

Məlik:

– Bu niyə ingiliscə danışır? – deyə soruşdu.

– İngilis məktəbində oxuyub.

– Azərbaycanca heç bilmir?

– Niyə bilmir?

– Onda de, mənimlə öz dilimizdə danışsın.

– Baş üstə.

Məlik paltosunu çıxara-çıxara dəhlizdəki iri əlvan afişə nəzər saldı və diksindi: afişdə Burlanın çox böyük yarılüt şəkli vardı.

Məlik: – Sənsən? – deyə qeyri-ixtiyarı soruşdu.

Burla: – Yox, tanışımdır – dedi, güldü – bu barədə sonra danışarıq, keç içəri.

Otağa girən kimi Məlik qarşı divarı boya boy tutan pəncərədən dənizin çox geniş mənzərəsini gördü, amma diqqət edib başa düşdü ki, bu pəncərə deyil, şəffaf şüşənin arxasında göy dənizin, sarı qumlu sahilin fotosudur. Foto o qədər dəqiq və aydın çəkilmişdi ki, adama elə gəlirdi real mənzərədir, pəncərədən görünür. Sağ divarda da şəffaf şüşənin arxasında başı qarlı sıra dağlar görünürdü. Sol divarda sıx meşə, baş-başa vermiş ağaclar, üstünü yarpaqlı budaqlar yaşıl çətir kimi örtmüş meşə yolu. Məlik girdiyi qapı tərəfə çevrildi, bu divarda da köpüklənən dağ çayı, şəlalə şəkli vardı. Burla qapını örtəndə şəlalə sanki qapının üstündən aşağı axmağa başladı.

– Bəs bu otağın pəncərəsi yoxdur?

Burla: – Pəncərə nə lazımdır – dedi – bu murdar şəhərə baxmağa? Belədə hara baxıram ürəyim açılır.

Otağın küncündəki bara yanaşdı:

– Nə içəcəksən, viski, şerri-brendi, cin tonik, tekila, vodka, konyak...

– Dayan, dayan küyə basma görüm... Çay içərdim.

Burla daxili telefonu götürüb – Lera, uan ti – dedi – sonra xoş bir təbəssümlə Məliyə baxıb – unutmuşdum, sən axı xalis müsəlman kişisisən. Ancaq çay içirsən, o nədir o... o kişi... hə Məşədi İbad kimi. Gərək ki, belə bir müzikl də vardı, uşaqlıqda görmüşdüm.

Məlik: – vardı – dedi.

Burla: – Dayan bir sənə yaxşı-yaxşı baxım. Bir az qocalmısan.

– Bir az yox, lap çox. İllah da son iki gündə.

– Nə olub ki, son iki gündə?

Məlik bu son iki gün haqqında da, həyatının son illəri barədə də qısaca danışdı.

Burla ah çəkib: – Yazıq anam – dedi – belə də yaşamaq olar?

– Bəs ananla əlaqə yaratmağa çalışmamısan?

– Bu mümkün deyil, ora bütün yollar bağlıdır. Heç telefonla, teleqramla, məktubla da əlaqə saxlamaq olmaz.

– Beyrəklə necə?

– İnternetdən onun e-mailini öyrəndim, mesaj göndərdim, özüm haqqında yazdım. Heç bir cavab gəlmədi. Mənim də doğrusu başım elə qarışıqdır ki, daha yazmağa vaxt tapmadım. Bir də ki, görünür mənimlə yazışmaq istəmir. Ordakı rejimi özün gördün də... Bəlkə qorxur. İşıq neçədir sənincə?

Otağın işığını nəzərdə tuturdu.

– Bir az qaranlıq deyil ki?

– Mən belə işığı sevirəm, ala toranlığı.

Məlik: – Mənə elə gəlir ki, hər halda pəncərə olsaydı – deyə sözə başladı, Burla:

– Əşi neyləyirsən pəncərəni? Mənzərəyə baxmaq üçün? – buyur doyunca bax, bu mənzərələr xoşuna gəlmir, buyur başqasına bax. – pultu götürüb düyməni basdı və dərhal dörd divarın dördündə də mənzərələr dəyişdi – indi qumlu səhra, buzlu çöl, əcaib qayalar, uzandıqca uzanan yollar görünürdü.

– Pəncərə? Bəlkə işığa görə deyirsən? Bu da sənə gün işığı – düyməni basdı və tavandakı alçibanlardan bol günəş işığı süzüldü otağa.

Məlik mat qalmışdı, Burla onun təəccübündən ləzzət alırdı sanki:

– Hə nə qaldı, hava? Hansı havanı xoşlayırsan, dəniz havası, dağ havası, meşə, çöl?. – bir bir pultun düymələrini basırdı və doğrudan da otağa gah dağ havası, gah dəniz mehi, gah şaxta təmizliyi, gah yağışdan sonrakı nəm hava dolurdu.

Məlik: – Bu sehirli otağın daha hansı möcüzələri var? – deyə soruşdu.

Burla: – Mən ancaq burda dincələ bilirəm, bütün əsəblərim sakitləşir – dedi – sonra Məliyin sualını cavablandırdı – sehirləri hələ çoxdur – yenə hansısa düyməni basdı, quş səsləri, dənizin uğultusu, yarpaqların pıçıltısı, bülbüllərin cəh-cəhi eşidildi.

Məlik: – Doğrudan möcüzədi – dedi – mən indiyəcən belə şey görməmişdim.

– Hələ bu harasıdır? – Burla başqa bir pultu götürdü, düymələri basdı. Otağa əvvəl qızılgül, başqa düyməni basanda bənöbşə iyi, daha sonra bir-birinin ardınca bədmüşk, iydə ağacının ətirləri, təzə çalınmış ot qoxusu doldu.

– Bunları necə düzəltdirmisən? – neçəyə başa gəlib – demək istəmirdi.

Burla: – Bu mənim dünyamdır – dedi – bütün dünyadan ayrılıb çəkildiyim dünya.

– Amma süni dünyadır axı.

– Süni dünya gerçək dünyadan min qat yaxşıdır – dedi Burla – beş duyğunla istədiyini istədiyin vaxt duya bilirsən. İstəyirsən gündüz vaxtı gecə olsun, gecə vaxtı gündüz. Bax. – Burla bir düyməni də basdı, otaq qaranlığa qərq oldu. Burlanın səsi gəldi: – Başını qaldır, tavana bax.

Tavan ulduzlu göydü. Kahkəşan, süd yolu, bürclər...

Burlanın səsi də sanki kainatın dərinliklərindən gəlirdi:

– Bax, indi ay doğacaq. Ulduzlar sönəcək.

Haradansa divarların üstündən ay çıxıb tavana ucaldı.

Məlik: – Yaxşı, bəsdir – dedi – çıxar bizi işıqlı dünyaya.

Otaq yenə gur gün işığına qərq oldu. Qapını tıqqıldatdılar, Burla:

– Yes – dedi.

Ağ döşlüklü xidmətçi qız otağa daxil oldu, Məliyə ədəblə salam verdi, padnosda gətirdiyi çayı, konfetləri onun qabağına qoydu. Sonra beləcə səssiz çevrilib çıxdı.

– Necə oldu ki, üçünüz də ayrı-ayrı zonalara düşdünüz?

Burla köksünü ötürdü: – Eh, getsin o günlər gəlməsin. O gün mən evdəydim. Hə, sən fikir verdinmi, bu ev elə bizim köhnə evimizdir?

– Köhnə evimiz?

– Bəli, təəccüblənmə, bizim köhnə evimiz, yəni o birmərtəbəli daxmamızın yerində tikdirdim bu üç mərtəbəni.

– Üç mərtəbəsi də sənindir?

– Əlbəttə.

Məlik: – Hansı pula? – deyə soruşmaq istəyirdi, amma cavabdan qorxub soruşmurdu, ayrı sual verdi: Deməli o gün sən evdəymişsən? – çayından bir qurtum aldı.

– Zökəm olmuşdum, evdə yatırdım. Anam da, Beyrək də işdəydilər, hərəsi öz idarəsində. İşləri də, bilirsən şəhərin müxtəlif səmtlərindədir.

Atışma başladı, bir neçə saatın içində şəhərin hər yerində barrikadalar qurdular, bu küçədən o küçəyə keçmək olmurdu. Sonra da ki, o müsibət, dağıntılar, yanğınlar... əvvəl-əvvəl heç olmasa bir-birimizlə telefonla danışa bilirdik, iki gündən sonra telefon əlaqəsi də kəsildi.

– Sonra da şəhərin üç zonaya bölünməsi...

– Bəli, qabaqca zonalar arasında tikanlı məftillər çəkildi, sonra da bu eybəcər divarları tikdilər.

– Babanın, nənənin, yəni mənim atamın, anamın qəbirləri də deyəsən bu zonaya düşüb.

– Hə? Hardadırlar ki?

– Bıy, yadından çıxıb, neçə dəfə sən də getmişdin axı qəbir üstə, şəhərin yuxarı tərəfindədir...

– Hə, hə bildim. İndi orda Luna-parkdır.

– Nə, Luna-park?

– Hə, Luna-park. Qəbirlər onsuz da dağılıb, itib-batıb getmişdi. Orda Luna park qurublar. Elə o biri qəbirstanlıqların yerində də reqbi, bcysbol, qolf meydançaları düzəldiblər.

– Bəs ölüləri harda basdırırlar?

– Basdırmırlar, krematorilərdə yandırırlar. Yaxşı, bəsdir, ölülərdən danışdıq – durub atasının boynunu qucaqladı, başını sığalladı – axı biz səni də ölmüş bilirdik, sağsan, gəlib çıxmısan. Elə bil ömrümə gün doğdu – gülümsündü – əsil gün, daha – tavanı göstərdi – belə günəş yox – çayı içib qurtardığını gördü – Çay istəyirsən?

Bir stəkan da içərdim...

Burla əlini daxili telefonun dəstəyinə uzatdı – bu saat Leraya deyim – sonra nədənsə dəstəyi götürmədi – Özüm gətirəcəm – dedi – istəyirəm sənə özüm qulluq eləyim.

Otaqdan çıxdı. Məliyin gözü masanın üstündəki ala-bəzək "Monitor" jurnalına sataşdı. Jurnalı əlinə aldı, açdı. Burlanın bir neçə yarıçılpaq rəngli şəkilləri dərc olunmuşdu. Daha burda heç bir söz ola bilməzdi – tanışı-filanı deyildi, özüydü ki, var.

Bu vaxt Burla içəri girdi və atasının jurnala baxdığını gördü. Məliyin qaş-qabağı yer süpürürdü.

Burla dərhal hər şeyi başa düşdü: – Allah bu jürnalist tayfasının bəlasını versin – dedi – yalan yazmaqdan başqa işləri-peşələri yoxdur. Yazırlar guya mənim səkkiz pişiyim, dörd itim var. Halbuki mənim cəmisi üç pişiyim və bircə itim var.

Nə pişik, nə it, canım? Bu nə şəkillərdir belə, lüt-ətcəbala, ayıb deyil?

– Bilirdim ki, xoşuna gəlməyəcək, axı sən köhnə müsəlman kişisisən. Amma köbək rəqslərinə də ən çox baxan elə müsəlman kişiləridi. Bəli, mən rəqqasəyəm. Bilmirdin?

– Rəqqasəsən öz işindir, amma bu lüt şəkillər nədir?

– Səncə rəqqasə şubada rəqs eləməlidir. Qəribə insanlarsız e...

Plyaja getmirsiniz, bikinili qızları görmürsünüz plyajda? Deməli canlı çılpaq gəzmək olar, amma şəkil çəkdirmək olmaz? Gözəl qadın bədəni insanlara zövq verirsə, onu niyə gizlətməlisən? Heç muzeydə olmamısan? Çılpaq Veneraları, Maxanı, Olimpiyanı görməmisən?

– Bilməzdim ki, mənim qızım Venera olacaq. Kaş öləydim, bu günü görməyəydim.

– Boşla sən Allah. O cür müsibətlərdən sonra bu da faciəymiş... Elə bilirsiz, qadın çılpaq rəqs edirsə, deməli fahişədir. Amma bil, mən – otağı göstərdi, – nə qazanmışamsa səhnədə qazanmışam, yataqlarda yox, sənətimlə qazanmışam. Mən buranın ən məşhur şou-ulduzuyam.

– Ayrı sənət seçə bilmirdin?

– Ayrı sənət? Hansı sənət? Müəllimlik edib acından öləydim? Mənim nə ərim var ki, məni dolandırsın, nə varlı aşnam, hər şeyi əlimin zəhmətiylə qazanmışam. Yaxşı, göbəyimin zəhmətiylə olsun. Mən göbək rəqsi edirəm. Özü də hamıdan yaxşı edirəm.

– Adın da ki, deyəsən dəyişib, Bura olub.

– Menecerim dedi ki, bu ad daha cəlbedicidir.

Burla-Bura yerindən durub Məliyə yanaşdı, yenə onun boynunu qucaqladı: – Ata, atacan – dedi – məndən incimə. Sənə yaxşı xəbər verəcəm. Ürəyindən olacaq. Sənətimi dəyişirəm.

– Dəyişirsən? İndi nə olacaqsan? Striptiz ulduzu.

– Xeyr, mer olacam.

– Nə?

– Bəli, mer, Baku-sitinin meri. Türkiyədə deyəsən Bələdiyyə Başqanı deyirlər.

– Sən? Mer? Bələdiyyə başqanı? Səndən mer olar?

Burla elə bil incidi, dodaqlarını büzdü.

– Niyə olmur? – dedi – savadım, ağlım kimdən əskikdir? O boşboğaz siyasi avaralardan? Üç aydan sonra seçkilər olacaq. Demokratik cəmiyyətdə yaşamırıq? On adam namizədliyini verib, mən onların hamısından populyaram. Bizdə pop sənətçiləri ən məşhur, ən nüfuzlu adamlardır. Konsertlərimə bilet tapmaq mümkün olmur. Radio-televiziya səhərdən axşama məndən danışır. Jurnal-qəzetlər məndən yazır. Camaat məni sevir. Yüz faiz əmin ol, mənə səs verəcəklər.

– Yaxşı, tutalım lap belədir, amma nəyinə lazımdır sənin mer olmaq?

– İyirmi beş yaşım var. Tutalım lap iki-üç il də rəqs etdim. Sonra? Necə dolanacam? Mən bu həyat tərzinə alışmışam, necə təmin edə-

cəm bu sayaq dolanışığı? Ərə getmək fikrim yoxdur. Heç kəsin də hesabına dolanmaq istəmirəm. Çox fikirləşib axır qərara gəldim ki, ən düzgün iş mer olmaqdır – gülüb alnını göstərdi – məni bir əlli tutma, sənin qızının ağlı başındadır.

Çöl qapısının zəngi çalındı. Bir azdan otağa uca boylu oğlan daxil oldu.

– Qud dey, darlinq – dedi. Burlayla bir-birinə sarıldılar, marça març öpüşdülər.

Oğlanın əynindəkı qara atlasdan dar şalvar daha çox alt tumanına oxşayırdı. Əynində krujevalı ağ ipək köynək vardı. Çiyinlərindən aşağı, az qala belinə qədər uzanan saçlarına arxadan qırmızı bant bağlamışdı. Bir qulağına sırğa taxmışdı.

Burla: – Tanış ol, Can – dedi – atamdır.

– Sənin atan varmış? – Can işvəli bir səslə dilləndi, sonra əzilib büzülə-büzülə Məlik oturan yerə yanaşdı, əyilib onun əlindən öpdü. Məlik onu yaxından görəndə sezdi ki, sifəti pudralı, gözləri sürməlidir. Oğlan dikəlib ədayla dedi: – Cəh-cəh Can.

Məlik başa düşmədi ki, nə deyir.

Burla: Cəh-cəh Can bizim ən məşhur pop-ulduzdur – sonra əlavə etdi – əlbəttə məndən sonra.

– O, darlinq, əlbəttə səndən sonra.

Cəh-cəh Can aralanandan sonra Məlik baxdı ki, əlinin öpülmüş yerində qırmızı pomada yeri qalıb.

Məlik soruşdu: – Siz də göbək atırsınız?

Oğlan əlini dəsmal kimi yellədə-yellədə ağzına tutdu, bir xeyli güldü.

Burla: – Can brik-brakın Allahıdır – dedi – həm sözlərini özü yazır, həm musiqisini, həm də özü oxuyur. Axşam birgə konsertimiz var, gəlib özün görərsən.

Cəh-cəh Can:

– Darlinq, onli fayf minits – kənara çəkilib Burlayla nə isə pıçıldaşdılar, sonra yenə bir-birinə sarıldılar. Məlik üzünü yana çevirdi. Cəh-cəh Can Burlaya:

– Bay, bay, bebi – deyib qapıya tərəf getdi, Məliyə də əl elədi: bay, bay atacan.

Məlik qorxdu ki, yenə yanaşar, pomadalı dodaqlarıyla əlindən, ya Allah göstərməsin, üzündən öpər. Amma yaxşı ki, yalnız uzaqdan öpüş göndərib əndamını burcuda-burcuda otaqdan çıxdı.

Məlik: – Aşnandır? – dedi, Burla özü davranışıyla onu belə açıq-saçıq danışmağa vadar edirdi.

– Nə? Can? Cəh-cəh Can? – gülməyə başladı.

– Nə bilim Cəh-cəhdi, Bəh-bəhdi, nədi? Bir-birinizə elə sarılmışdınız ki?

Burla hələ də gülürdü:

– Candan aşna olar? ha... ha... O xalis geydir...

– Nədir?

– Gey... eşitməmisən? Belə... Mavi.. Necə başa salım, belə qadınlarla maraqlanmır... e... kişiləri xoşlayır.

Məlik: – Başa düşdüm – dedi.

– *Mənim sənət yoldaşımdır. Dostumdur.*

– Əcəb dostların var.

– Əla oğlandır... e... adamdır. Əsil dostdur, mənim seçki kampaniyam üçün brik-brak yazıb.

– Brik-brak nədi?

– Bıy, bilmirsən? İndi dünyada ən populyar ritmdir ki... Bizdə bu ritmi Cəh-cəh Can yaratmağa başladı. Brik-brak şahzadəsi qoyublar adını. Gənclər dəlisidirlər onun...

– Bəs o nə əcəb mer olmaq istəmir?

Burla çiyinlərini çəkdi: – Nə bilim, bəlkə də ürəyindən keçir, amma hər halda söz verib ki, bu seçkilərdə məni dəstəkləyəcək.

Birdən Burlanın ağlına nə isə gəldi:

– Ata, bəlkə elə sən də qalıb mənim kampaniyamda iştirak edəsən? Bilirsən nə effekti olar, rəqqasə və onun mötəbər atası.

– Bir o çatmırdı...

Burla dodaqlarını büzdü:

– Yəni məni heç layiq bilmirsən o vəzifəyə.

Məlik susdu.

– Sonra da qalarsan burda, mənim müşavirim olarsan. Bilirəm axı, *mütləq seçiləcəm.*

Məlik yenə dinmədi.

Burla: – Bağışla ata, məşqə getməliyəm – dedi – Lera səni yedizdirəcək. Bir saatdan sonra aşağı düş, Fil səni konsertə gətirəcək. Özün görərsən ki, dəhşətli bir şey yoxdur. Konsertdən sonra kokteyl olacaq, sonra da səhərəcən səninlə söhbət edərik.

Otaqdan çıxdı. Məlik quruyub qalmışdı. Nə edəcəyini, necə davranacağını bilmirdi. Burla otağa qayıtdı, çox bahalı xəz şubadaydı.

Məliyə yanaşdı, lap uşaqlıqda olduğu kimi başını onun çiyninə qoydu. Məlik yanağında şubanın yumşaq tüklərini hiss etdi, burnunu Burlanın zərif ətir qoxusu çaldı.

Burla çox yavaş səslə, pıçıltıyla: – Atacan, qal burda – dedi – bilsən nə qədər yalqızam. – sonra cəld sıçrayıb otaqdan çıxdı.

Bir saatdan sonra Məlik həyətə düşdü, Fil tez yüyürüb qapını açdı.

Məlik: Hara gedirik? – dedi.

Fil təəccüblə: – Konsertə – dedi.

– Hardadır konsert?

– "Şahsaray" kabaredə.

– Ora haradır?

– Hansısa şahlar sarayı.

– İndi ora kabaredir?

– Yes... sorri... bağışlayın, Miss Bura dedi ki, mən sizlə öz dilimizdə danışım. Ay em... mən... e... petriot... Öz neyşn sevirəm.

Məlik baxdı ki, bayaqki geniş prospektlə irəliləyirlər.

– Bu küçənin adı nə oldu?

– 42-ci paralel avenyu.

– 42-ci paralel niyə?

– Nyu-York siti də, Baku siti də, 42 paraleldə... paraleldədir...

– Belə de.

"Mersedes" keçmiş Şirvanşahlar sarayının aşağı girişi – Murad qapılarının qarşısında dayandı.

Sarayın ancaq divarları qalmışdı, bütün görkəmi dəyişmişdi. Hər yerdə yanıb-sönən reklamlar, əlvan afişlər...

Divarın üstündə iri qırmızı, sarı, yaşıl neon hərflərlə sözlər axıb gedirdi:

ŞAHSARAY KABARE.

EROTİK ŞOU: DEKAMERON – KAMASUTRA – MİN BİR GECƏ. OST-VEST SEKS SİNTEZ.

RETRO: GÖBƏK RƏQSİ – KANKAN – STRİPTİZ

DİSK-JOKEY SİMURQ SİD

Bu reklam söndü, sonra daha iri həfrlərlə yazılmış adlar keçməyə başladı:

BRİK-BRAK ŞAHZADƏSİ CƏH-CƏH CAN

SUPER-STAR BURA

Fil Məliyi içəri keçirdi, Sarayın böyük otağının divarları başdan ayağa reklam idi-içgilər, siqaretlər, sabunlar, təmizləyici tozlar, gi-

giyenik paketlər, tualet kağızları reklam olunurdu. Ortada səhnə qurulmuşdu. İki qarşı-qarşı tərəfdən masalar düzülmüşdü, tamaşaçılar ayrı-ayrı masaların başında iki-bir, dörd-bir oturmuşdu. Qabaq masalarda sinli kişilər, bəziləri cavan qızlarla əyləşmişdi. Arxa masaların ətrafında, üstündə, altında oturanlar, duranlar, uzananlar cavanlar idi. Uzunsaçlı oğlanlar, qısa saçlı qızlar. Ayırd eləmək olmurdu ki, hansı oğlan, hansı qızdır. Bəzi qızlar oğlanların dizi üstündə oturmuşdu, qol-boyun olub yalaşırdılar. Amma kim bilir hansı qız, hansı oğlandır? Bəlkə oğlan qızın dizi üstündə oturub? Ya ikisi də oğlandır? Ya hər ikisi qız? Hamısının da çənələri işləyirdi – saqqız çeynəyirdilər.

Məlik daha heç nəyə təəccüb qalmırdı.

Salonda bir neçə televiziya kanalının kameraları qurulmuşdu, yazıları oxudu: FİRST TV(först TV), FACE TV(Feys TV), Uorld TV, Grand TV.

Masaların arasında bikinili qızlar ora-bura şütüyür, tamaşaçılara içkilər, məzələr paylayırdılar. Masa başında cavan məşuqəsiz oturmuş sinli kişilər onların dizlərini tumarlayır, büstqalterlərinə dollar soxuşdurdurdular. Xidmətçi qızlar işvəylə təşəkkür edirdi.

Fil Məliyi masasında əyləşdirib getdi. Bir azdan masaya əcaib bir məxluq yanaşdı və salamsız-kəlamsız oturdu. Təyin etmək olmurdu qocadır, cavandır, qadındır, kişidir. Başının vız saçlarını yaşıl rəngə boyamışdı, sifətinin bir yanağı mavi, bir yanağı çəhrayı idi. Cibindən siqaret çıxarıb çəkməyə başladı. Məlik anaşaya bənzər iy duydu.

Məxluq dumanlı gözlərlə Məliyi süzüb, siqaret qutusunu uzatdı. Məlik başını buladı. Məxluq təəccüblə çiyinlərini çəkdi.

İşıqlar söndü. Salona tam bir qaranlıq çökdü. Sonra dörd tərəfdəki güclü dinamiklərdən gələn qulaqbatırıcı musiqi sədaları altında səhnənin ortası işıqlandı.

İşıq şüasının altında cürübbəz bir oğlan göründü, atılıb-düşməyə, o yan-bu yana çevrilməyə başladı. Qurşağacan çılpaq idi, sinəsində, belində erotik mövzularda döymələr vardı.

Məliyin yanında oturan məxluq, birdən dilləndi, səhnədəki oğlanı göstərib: narkomandı – dedi.

Bu məxluqun ağzından çıxan ilk söz idi və Məlik düşündü ki, kor kora kor deməsə bağrı çatlayar. Məxluq yenə siqareti sümürürdü. Məlik soruşdu: – Nəşədi?

Məxluq başını buladı: – Marixuana – dedi.

Səhnədəki oğlan isə xeyli tullanandan sonra nəhayət toxtadı, mikrofonu ağzına tutub:

– Ay em disk jokey Simurq Sid – dedi – Qud ivninq ledi end qamilton.

Salondakılar qəh-qəhə çəkdilər, əl çaldılar, çaqqal kimi ulamağa başladılar. Məliyin yanındakı oğlan durub masanın üstünə çıxdı, masanın üstündəki boşqabları basdalayıb sındırdı və iki barmağını ağzına soxub fit çalmağa başladı.

Xidmətçi qız onların masasına yanaşdı, sınıq boşqabları yığışdırıb yenilərini qoydu və Məliyin yanında elə əyildi ki, yumru məmələri aydın göründü. Məlik başa düşdü ki, ora pul qoymalıdır, amma etmədi. Yanındakı məxluq masanın üstünə təzə qoyulmuş boşqabları götürdü, hirslə yerə çırpdı, boşqablar çilik-çilik oldu, məxluq xidmətçi qızı itələyib qovdu.

Səhnədəki adam nə isə danışırdı. Məlik nə qədər diqqət etsə də hansı dildə və nə danışdığını anlaya bilmirdi – ingilis sözləri də vardı dedikləri arasında, Azərbaycan sözləri də, amma nə Azərbaycan diliydi, nə ingilis dili. Onsuz da bu mərəkədə heç nə eşitmək mümkün deyildi. Salondakılar gah əl çalır, gah fışdırıq çalır, gah çaqqal kimi ulayır, gah da masaların üstündəki boşqabları sındırırdılar. Xidmətçi qızlar dərhal yeni boşqablar gətirirdilər, dərhal onları da sındırırdılar. Məlik fikir verdi ki, boşqabları daha çox sinli kişilər sındırır, və qızlar dərhal təzə boşqablar gətirən kimi onların büstqalterlərinə, tumanlarına pul salıb qurdlarını öldürürdülər.

Disk – jokey:

– Saylens pliz – dedi – sakit, sakit, uan sekınd – bir saniyə.

Səhnədəki pərdə işıqlandı və orada iri şəkli görünən adamı Məlik tanıdı: Cəh-cəh Can idi.

Salon dərhal sükuta qərq oldu.

Disk jokey:

– Sitimizin Don Juanı, Lovelası, Kazanovası – salondan qəh-qəhə qopdu, (alqışlar, fit, ulama) – popa ulduz (qəhqəhələr), bağışlayın, pop-ulduz (alqışlar) – Disk jokey pauza verdi, sonra daha yüksək tonla – Brik-brak şahzadəsi... – yenə pauza və ən uca tonla – CƏH... CƏH... CAAAAN!!!

Cəh-cəh Can elə bil hardansa yerin dibindən çıxdı (alqışlar, fit, ulama).

Cəh-cəh Canın əynində topuğunacan uzun, qırçınlı qadın tumanı, baftalı köynək vardı. Əlində gitara tutmuşdu. Naz-qəmzəylə o tərəfə, bu tərəfə çevrilir, işvəylə hamıya öpüşlər göndərirdi. Sonra:

– May dearz – dedi – əzizlərim, demə bu gün aborigenlərin bayramıdır... c... e... Novruz bayramı. Nourus, nyu-ryus. Lap yeni-ruslar kimi səslənir. Mən bu bayrama brik– brak yazmışam: Nyu-ryus holidey. – gitarasından bir akkord alıb əcaib bir ritmdə oxumağa başladı.

Novrus, nourus, nyü-ryus. Ryus, ryus, ryus. Rus, rus, rus. Ruz, ruz, ruz. Duz, duz, duz, Buz, buz, buz. Qafiyə – mafiya, mafiya-qafiyə. Biz, biz, biz. Qız, qız, qız. Vız, vız, vız. Cız, cız, cız. Bız, bız, bız.

Cız-bız, cız-bız

Cız-bız, cız-bız

Bütün salon bir ağızdan təkrar etməyə başladı: cız-bız, cız-bız, cız-bız...

(*Təbii ki, alqışlar, fit, ulama*)

Məliyin yanındakı məxluqun ağzı açıq qalmışdı:

– Genidi də – dedi – Gördün Novruzu necə gətirib cız-bıza çıxartdı. Dahi!

Cəh– cəh Can oxumaqda – əgər buna oxumaq demək olardısa – davam edirdi:

Caz, caz, caz,
qaz, daz, naz,
saz, baz, yaz,
vaz, taz, paz.

Məxluq siqaretindən qullab vurduqca gözləri dumanlanır, dodağının altında: – Genidi, geni – deyə mızıldanırdı.

Məlik xəbər aldı: – Nə dilində oxuyur? – deyəsən məxluqu bütün bu işlərin mütəxəssisi sayırdı.

– Necə nə? Brik-brak oxuyur da...

– Bəs o sözlər nə deməkdir?

– Hansı sözlər?

– Nə bilim daz, baz, taz, paz.

– Hamısı öz dilimizdədir də, bu sözləri bilmirsiz? Cəh-cəh Can sözləri qəfəsdən çıxarır. – Məxluq gözlənilməz qıvraq hərəkətlə yerindən sıçradı, masanın üstünə çıxdı və bərkdən: – Yaşasın sözlərin azadlığı! – deyə bağırdı – sözlərə azadlıq!

Dərhal o biri masalardan da sıçrayıb: Lonq liv fridom, sözlərə azadlıq! – deyə qışqırmağa, ulamağa başladılar.

Kimsə: – Viva seks azadlığı! – deyə qışqırdı. Cəh-cəh Can səhnədən ona öpüş göndərdi.

Yey-yerdən:Viva seks azadlığı! – deyə qışqırışdılar.

Yaşılbaş məxluq yenidən oturdu, yenə siqareti içinə sümürdü, yenidən sıçrayıb qışqırdı: – Gey, gey, oxu.

Bu həngamədə Can onu eşitdi, bəlkə əvvəlcədən belə danışmışdılar. Məxluqa tərəf çevrilib şəhadət barmağıyla hədələdi: Ay xətakar – dedi.

Yenə hər yerdən qışqırmağa başladılar. – Gey, Gey, oxu.

Cəh-cəh Can ani bir hərəkətlə əynindəki baftalı köynəyi cırıb atdı. Qurşaqdan yuxarı çılpaq bədənində qara krujevalı qadın büstqalterindən başqa heç nə yoxdu.

Cəh-cəh Can gitarasından bir akkord aldı, birdən gitaranı zərblə yerə çırpdı. Gitara parçalandı. Bu da azmış kimi gitaranın üstünə çıxdı, onu təpikləməyə, parça-parça etməyə başladı, simləri ayağına ilişdi, hiddətlə dartıb simləri qırdı. Salondakılar isterika halına gəlmişdi: Gey, Gey, – deyə bağırırdılar. Cəh-cəh parçalanmış gitarasının tikələrini bir-bir salona atmağa başladı. Aləm bir-birinə qarışdı, yer yerindən oynadı. Adamlar gitaranın tikələrini bir-birinin əlindən qapırdılar, bir-birini itələyir, yıxır, saçlarını yolurdular.

Məxluq: keçən səfər gitaradan iki parça qapa bildim, auksionda bilirsən neçəyədi Cəh-cəhin dəsmalı, corabı, gitarasının hər tikəsi?

Cəh-cəhə ayrı gitara gətirdilər və o oxumağa başladı:

Kim dedi ki keyəm mən
Geyəm. Geyəm. Geyəm mən.

Salondakılar birağızdan təkrar etməyə başladılar:

Geyəm, geyəm, geyəm mən.

Beş altı dəfə təkrar olundu. Sonra Can arxasını gəh o tərəfə, gah bu tərəfə çevirə-çevirə ardını oxudu:

Həm sizinəm, həm ögey.
Bəli, belədir. O key.

Salondakılar təkrar etdilər:

Həm sizinəm, həm ögey,
Bəli belədir, o key.

Bu sözləri azı on dəfə təkrar etdi, sonra əl çalanlara, fit verənlərə dönə-dönə baş əydi, öpüş göndərdi, alnının tərini silib dəsmalı salona atdı, dərhal qapa-qap başladı. Axır ki, ön masada oturmuş yaşlı qadın dəsmalı ələ keçirib öpdü, bağrına basdı.

Cəh-cəh Can:

– Əzizlərim, sevgililərim, dostlarım – dedi – Sizə bir sirr açım. Bizim – dünya gözəlimiz, dahi rəqqasəmiz miss Bura mer seçilmək istəyir. (*Alqışlar, fit, ulama*) Mən də buna bir brik-brak yazmışam. (*Alqışlar*) Daha çox alqışlar istəyirəm. (*Alqışlar, fit, ulama*)

Gitarasından bir akkord aldı, oxumağa başladı.

Biz gəlmişik buraya
Səs verməyə Buraya.
O heç uçmur çarterlə
Arası yox barterlə.
Atsalar da təndirə
Razılaşmaz tenderə.
Oynayanda poker
Əlindədir coker,
Varmı burda roker,
Ya da bəlkə broker?
Biz gəlmişik buraya
Səs verməyə Buraya.

Tullandı – hə, oppa, bir yerdə.

Salondakılar oxudular:

Biz gəlmişik buraya
Səs verməyə Buraya –

Cəh-cəh davam edirdi:

Bura – mer, Bura – mer.
Buraya səs ver, səs ver.
Görmüsünüzmü triller,
Varmı burda killer?
Lazım deyildir bizə
Marazmatik plebeylər,
Xarizmatik pleyboylar
Biz gəlmişik buraya
Səs verməyə Buraya.
Buraya səs ver, səs ver.
Mer – Bura, Bura – mer.

Yer-yerdən təkrar etməyə başladılar:

Mer – Bura, Bura – mer,
Buraya səs ver, səs ver,
Biz gəlmişik buraya
Səs verməyə Buraya.

Məlik ayağa durdu. Bəsiydi, bundan artığına dözməyə taqəti qalmamışdı.

Yaşılbaş məxluq:

– Hara father, hələ Bura özü çıxacaq. Aləmdi.

Məlik masaların arasıyla çıxışa tərəf getdi. Yerlərdən ona söz atırdılar:

Father, hara? Hələ striptiz olacaq, lap sənin malındır.

Güldülər, fit çaldılar, uladılar.

Kimsə onu dümsüklədi, kimsə itələdi: – Çəkil, səhnəyə baxaq.

Kimsə qabağını kəsdi – sərxoşdu, ya həşiş çəkmişdi:

– Hara? Olmaz.

Kimsə: – Burax getsin. Hara gedəcək, krematoriyə, vaxtdır – dedi.

Yenə gülüşlər, fışqırıq, ulaşma.

Məlik birtəhər salondan çıxdı. Şirvanşahlar sarayının... keçmiş Şirvanşahlar sarayının həyətindən keçdi. Vaxtilə bura ekskursiyalara gəldiyi əsas qapıdan çıxdı.

Buradakı meydanı tanıya bilmədi. Meydan çil-çıraq içindəydi. Böyük reklamda "Plas Piqal" yazılmışdı. Birmərtəbəli evlərin üstündə açıq-saçıq cinsəl şəkillər, fotolar vardı, reklamların hamısı bir yöndə idi:

"Kazino Las-Veqas", "Kazino Monte-Karlo", seks-şop, erotik şou, porno film... qapıları yan-yana düzülmüşdü. Məlik tələsik keçib yan küçəyə çıxdı. Bura ordan da aləm imiş. Qırmızı fənərli küçədə şəffaf şüşə vitrinlər ardında şəhvani pozalarda lüt qızlar oturmuşdu. Məlik vitrinlərin yanından ötdükcə ona baxıb göz vurur, içəri çağırırdılar. Gözünü yerdən qaldırmamağa çalışaraq addımlarını yeyinlətdi.

Qırmızı fənərlər qurtaran yerdə göy fənər asılmışdı. Qabağına sıçan-pişik padşahına oxşayan burma bığlı bir kişi çıxdı, irişə-irişə:

– Deyəsən qızlarımızı bəyənmədiniz – dedi – Könlünüz ayrı şeyə meyil edirsə göyçək oğlanlarımız da var.

Məlik onu itələyib keçdi, az qala qaça-qaça bu küçədən uzaqlaşdı. Bir neçə küçə ötdü, deyəsən azmışdı. Heç kəs də yoxdu ki, xəbər ala.

Burnuna xörək iyi dəydi. O tərəfdə restoran vardı, Məliksə gəlib restoranın arxa tərəfinə, həyətinə çıxmışdı. Gördü ki, divarın dibində

xeyli adam var. Yan-yana dayanıblar, üzləri divaradır. Əvvəl bilmədi sırayla yan-yana duran bu adamlar neyləyirlər, bu an ay buludlardan çıxanda gördü ki, əyin-başları cır-cındır olan kişilər, qadınlar restoran mətbəxinin yan-yana düzülmüş sarı zibil qutularında eşələnir, nə-isə tapıb ya tələsik ağızlarına, ya da torbalarına atırdılar.

Yalın ayaqlarına nimdaş qaloş keçirmiş, yamaq-yamaq paltosuna bürünmüş, ordu-orduna yapışmış, üzünü saqqal basmış yaşlı kişinin eynəyinin bir şüşəsi sınığ idi, sol sağanağının yerinə sap bağlamışdı, sapı qulağına keçirmişdi. O da qutularda eşələnirdi, amma elə bil bu işi çəkinərək, o birilərdən utana-utana edirdi. Məliyi görüb qutudan bir addım aralandı.

Amma zibil qutularında eşələnənlərin heç nə vecinə deyildi, heç hara baxmırdılar, hərə öz işində idi, əllərini dirsəyəcən qutuların lap dibinə salmışdılar. Məlik fikir verdi ki, hamısı bir dəriydi, bir sümük.

Məlik eynəkliyə yanaşdı:

– Mən buradan necə çıxa bilərəm?

– Hara çıxmaq istəyirsiniz ki?

Məlik çiyinlərini çəkdi, tamamilə yadlaşmış bu şəhərdə haranı tanıyırdı axı...

Onun tərəddüdünü görən eynəkli kişi bir az yaxınlaşdı.

– Bəlkə – dedi – dəniz qırağına çıxmaq istəyirsiz?

– Dəniz qırağına?

Eynəkli kişi onun lap qulağına əyildi, pıçıldadı: – O yolu bircə mən bilirəm.

– Nə yol?

– İki tin o yanda divarın bir yerində daşlar uçub, deşik açılıb, ordan dəniz qırağına keçmək olar.

– Dəniz qırağı hansı zonadadır?

– Buralı deyilsiz?

– Yox, neçə ildir burada olmamışam.

– Belə de. Hə, dəniz hansı zonadadır? Heç birində. Dənizin altını bölüblər, içini, üstünü bölüblər, kirli, mazutlu sahilləri kimə lazımdır? – eynəkli adam səlis danışırdı. Sözünə davam etdi – Xəzərin səthi qalxdı, bulvarı su basdı, bulvar yadınıza gəlir?

– Gəlir.

– Neftçilər prospekti vardı.

Məlik: – vardı – dedi.

– İndi ora qumluqdur, qumlu, mazutlu sahil. Ora çıxarda bilərəm sizi. – Eynəkli sanki nə isə deməkdən çəkinirdi. Axır qərara gəldi – Amma bir şərtlə.

– Nə şərt?

Bir az da tutulan kimi oldu, sınıq eynəyini çıxardı, sildi, utancaq bir tərzdə:

– Beş dollar... beş dollar verəcəksiz mənə... Cəmi beş dollar.

– Yaxşı. – Məlik özü də başa düşmürdü ki, niyə razılaşdı. Dəniz qırağı da, dənizin özü də onun nəyinə gərəkdi, amma hər halda, söz ağzından çıxmışdı. Bəlkə də bu ziyalı kişinin ehtiyacını duymuşdu, yardım etmək istəyirdi. Eynəkli kişinin ardınca düşüb bir neçə dar küçənin tinini buruldular. Bu İçərişəhərin keçmiş dar dalanları deyildi, kartonlardan, taxta qutulardan, paslı metal laylarından, borulardan tez-tələsik quraşdırılmış daxmalar idi. Ankaranın gecəqonduları kimi, amma onlardan yüz dəfə bərbad, miskin, kasıb. Hamısı da qaranlığa qərq olmuşdu, bir iki pəncərədən zəif şam işığı şölələnirdi. Heç yerdən bir səs-səmir, bir bişmiş qoxusu gəlmirdi.

Axır ki, sal daş sərhəd divarı çıxdı qarşılarına. Divarın bu tərəfində gözətçilər-filan da yoxdu. Eynəkli kişi o tərəf bu tərəfə döyüküb, dönə-dönə arxaya boylanıb, axır ki, divarın uçuq yerini göstərdi:

– Burdan keçə bilərik – dedi. Əvvəl kişi özü, sonra da Məlik əyilib deşikdən keçdilər, qumlu sahilə çıxdılar. Burda dənizin səsi eşidilməyə başladı. Ətrafı dəhşətli üfunət bürümüşdü. Məlik burnunu tutdu.

Eynəkli kişi: – Bəli – dedi – üfunətdir. Şəhərin bütün kanalizasiyası Xəzərə burdan axır.

Məlik burdan uzaqlaşmağa çalışdı. Ayaqları topuğacan quma batırdı.

Bura niyə gəlmişdi, buradan hara gedəcəkdi, heç nə haqqında düşünə bilmirdi...

Eynəkli kişi də onun dalınca addımlayırdı. Qum dolmuş qaloşlarını çıxartdı, çırpdı, yenə geyindi, sonra bir balaca öskürdü:

– Bağışlayın – dedi – mən sözümü yerinə yetirdim. Sizi bura keçirdim. Siz demişdiz...

Hiss olunurdu ki, pul söhbətini eləmək onunçün asan deyil.

Məlik: – Bəli, əlbəttə – dedi, cibindən çıxarıb kişiyə on dollar uzatdı.

Eynəkli kişi pula baxıb: – Yox, biz beş dollara danışmışdıq – dedi – artıq mənə lazım deyil.

Məlik: – Xırdam yoxdur – dedi – götürün. Çəkinməyin. Ziyalı adama oxşayırsınız. Nə peşə sahibisiniz... e... idiniz?

Eynəkli kişi başını aşağı saldı, lap yavaş səslə: – Bir vaxt yazıçı idim – dedi. Sonra cəld çevrilib vidalaşmadan iti addımlarla uzaqlaşdı. Yenə də qaloşlarını çıxarıb çırpdı, geyindi və əyilib divarın uçuğundan geri keçdi.

IV

Məlik sahilboyu addımlamağa başladı, üfunətli yerdən bir az uzaqlaşmağa çalışırdı, amma hara getdiyini özü də bilmirdi.

Hər şey bitmişdi. Nə yeri-yurdu qalmışdı, nə xalqı, nə vətəni, nə ailəsi.

Keçmiş yoxdu. Darmadağın dağıdılmış, yandırılmış, tar-mar edilmişdi.

İndi – bax beləydi.

Gələcək? Gələcək də yoxdu. Hər halda onunçün. Onun, Məlik Məmmədlinin, Məlik Məhmədoğlunun heç bir gələcəyi yoxdu.

Türkiyəyə qayıtmaq? Bundan sonra, bu xatirələrlə, bu təəssüratlarla, bu gördükləri, eşitdikləriylə bundan sonra orda necə yaşaya bilərdi. Bir də ki, bundan sonra yaşamağının nə mənası vardı...

İntihar etmək? Bax burda, elə bu dənizə atılmaq?

Kanalizasiyanın bura axıdıldığı yadına düşdü. Nəcislər içində boğulmaq? Məliyin ürəyi qalxdı, ödü ağzına gəldi.

Ayaqları quma bata-bata gedirdi, büdrəyib yıxıldı, amma ayağa qalxmaq istəmədi.

Dənizə baxdı. Uzaqda məhbəsə çevrilmiş Nargin adasının silueti görünürdü.

Damarlarınımı kəssin, alnına gülləmi sıxsın? Bəlkə özünü assın. Ya zəhər tapıb içsin? Hansı ölüm daha asan, daha rahatdır? Hər halda bunu Türkiyədə etmək lazımdır ki, heç olmasa torpağa basdırsınlar. Burda ölsə meyitini krematoridə yandırıb külünü havaya sovuracaqlar. Bir yandan baxanda elə bu da ömrünün məntiqi sonu deyildimi? Külə çevrilib göyə sovrulmaq. Heç nə qalmayıb ondan, heç nə də qalmayacaq.

– Axı dedim sizə bədbinləşməyin.

Məlik diksindi, bu adamsız sahildə kim idi onunla danışan? Başını çevirdi və donub qaldı: Ərxan qumun üstündə, onun yanında oturmuşdu. Haçan gəlmişdi bura? Necə gəlmişdi ki, Məlik heç nə duymamışdı. Ürəyi şiddətlə döyünməyə başladı, bir az toxtayıb:

Ərxan? Sən hardan gəlib çıxdın bura? – dedi.

Ərxan gülümsəyib göyü göstərdi:

– Ordan – dedi.

– Aydındır ki, uçaqla gəlmisən, bəs bura necə gəlib çıxdın?

Ərxan yenə gülümsədi və göyü göstərdi.

– Göydən?

– ...

– Yəni quş-zadsan?

Ərxan bu səfər daha da müəmmalı gülümsünərək:

– Bəlkə də – dedi.

Susdular.

Ərxan: – Sizinkilərin hamısını görə bildiz? – deyə soruşdu.

Məlik köksünü ötürdü.

– Gördüm – dedi – sonra əlavə etdi – Bilmirəm məni bura gətirməklə yaxşılıq elədin mənə, ya pislik.

– Bunu ancaq siz özünüz təyin edə bilərsiz.

– Mən də bilmirəm. Ailə üzvlərimi ölmüş bilməyim daha yaxşıydı, ya onları BELƏ görmək.

– Ölüm hər şeyin sonudur. Yaşadıqca insanın hələ həyatın dəyişəcəyinə ümidi var. Bu bir az da insanın özündən asılıdır. Öləndən sonra ondan daha heç nə asılı olmur.

– Bir ölümə çarə yoxdur deyiblər. Amma görünür ölüm çarəsizliyin çarəsiymiş. Çıxılmazlıqdan yeganə çıxış.

Ərxan bir şey demədi.

Ola bilsin ki, Ərxan çox gizli bir təşkilatın nümayəndəsi idi, hər cür səlahiyyətləri vardı, istədiyi yerə girib-çıxa bilirdi, bura da Məliyi izləyə-izləyə gəlib çıxmışdı, amma axır ki, ondan nə istəyirdi?

– Yaxşı, axı nə bildin mən burda, bu qumlu sahildəyəm?

Ərxan:

– Yəqin özünüz də bilmədən tükümü oda tutmusuz – dedi – mən də uçub gəlmişəm. Məlik Məmməd nağılı yadınızdan çıxıb, bəlkə mən də sizin Zümrüd quşunuzam – güldü.

– Boşla sən Allah, nə nağılbazlıqdır? Həyat nağıl deyil. Çox acı şeymiş həyat.

– Təəssüf ki, elədir – dedi Ərxan – amma nağıl həyatdan daha gerçəkdir.

– Yaxşı, nağıl həyatdan gerçəkdirsə, sən də Zümrud quşusansa, çıxar məni işıqlı dünyaya. Qa deyəndə ət, qu deyəndə su verərəm.

Özü də təəccübləndi ki, bu halında hələ zarafat da edə bilir.

Ərxan:

– Yox işıqlı dünyaya yalnız öz gücümüzlə çıxa bilərik – dedi.

– Kimin gücüylə?

– Hamımızın.

– Bununçün nə etmək lazımdır?

– Əvvəla, ağ qoçu qara qoçdan seçə bilmək lazımdır. Sonra da sıçrayıb ağ qoçun belinə minəndə, elə möhkəm oturmalısan ki, səni qara qoçun belinə ata bilməsin.

– Eh, ay Ərxan, mənim də, elə sənin də nağıla inanmaq vaxtımız keçib.

Ərxan yenə cavab vermədi, xeyli susdular, sonra Ərxan:

– Bir ora baxın – dedi.

Hava işıqlanmağa başlamışdı, Məlik Ərxan göstərən səmtə baxdı.

– Nə var ki, orda?

– Görmürsüz? Diqqətlə baxın.

Məlik bir az da diqqətlə baxdı və doğrudan da nə isə gördü.

– Deyəsən itlərdir – dedi – hə, iki itdir, boğuşur.

Ərxan:

– İtlər deyil, iki qoçdur, boğuşmurlar, döyüşürlər. Ağ qoç, qara qoç.

– Qoçlar burda nə gəzir?

– Sizinçün gəliblər. Məlik Məmməd nağılını tamamlamaqçün. Axı hələ göydən üç alma düşməyib.

Məlik: – çoxdan düşüb üç alma – dedi və kədərlə əlvavə etdi: – özü də hərəsi bir zonaya.

Ərxan: – Yox, bu çürük almalardı, mən birinci gün çiçək açan, ikinci gün çiçəyini tökən, üçüncü gün bar verən almaları deyirəm. Padşahın həsrət qaldığı almaları.

– O almaları da divlər yeyərmiş – dedi Məlik – yenə Məlik Məmməd nağılı.

– Divlərə də qalib gəlmək olar. Unutmayın ki, divlərin canı bir şüşədədir.

– Bütün bu rəmzlərlə nə demək istəyirsən Ərxan, sözünü açıq de, bir şey başa düşüm.

– Məlik Məmməd ağ qoçun belinə sıçrayıb İşıqlı dünyaya çıxa bilərdi. Sizin də hələ bu şansınız var.

Elə bil bu sözlər Məliyi ovsunladı. Çətinliklə yerindən durdu, az qala yıxılacaqdı. Bir-iki addım atdı, indi qoçları doğrudan da aydın

görürdü. Ərxana tərəf çevrildi və yenə donub qaldı: Ərxan ilim-ilim itmişdi. Yerin dibinəmi batmışdı, uçub göyəmi qalxmışdı? Bəlkə doğrudan da quş imiş – Zümrüd quşu.

Məlik qumların üstüylə qoçlara tərəf addımlamağa başladı. İndi lap aydın görürdü, özü də orda tək bir qoç qalmışdı: Ağ qoç. Amma Məlik irəlilədikcə elə bil o da uzaqlaşırdı. Məlik qaçmağa başladı, ayaqlarını qumlardan güclə dartıb çıxarırdı.

Bir-iki dəfə büdrəyib yıxıldı, sonra durub yenə qaçmağa başladı. Ona elə gəlirdi ki, məsafə get-gedə azalır. Bax indicə ağ qoça çatacaq. Az qala çatacaqdı...

Az qala. Az qala...

Avqust-sentyabr 2003
Zuğulba

MÜNDƏRİCAT

Milli mənəviyyatımız və Anar yaradıcılığı 4

Ağ liman

Günlərin bir günü 19
Nərgizin Xoruz babaya məktubu 52
İki – bir 53
Dadaşın professor Teymur Mahmudova məktubu 60
Üçüncü 63
Zaurun Təhminəyə məktubu 92
Təklik tilsimi 94
Nərminənin atası Səftərə və anası Minaya məktubu 105
Bir də mən görsəm ki... 106

Beşmərtəbəli evin altıncı mərtəbəsi

Birinci fəsil 143
İkinci fəsil 150
Üçüncü fəsil 161
Dördüncü fəsil 173
Beşinci fəsil 180
Altıncı fəsil 189
Yeddinci fəsil 200
Səkkizinci fəsil 217
Doqquzuncu fəsil 225
Onuncu fəsil 236
On birinci fəsil 251
On ikinci fəsil 259
On üçüncü fəsil 270
On dördüncü fəsil 274
On beşinci fəsil 282
On altıncı fəsil 297
On yeddinci fəsil 303
On səkkizinci fəsil 309
Epiloq 316

Ağ qoç, qara qoç

Birinci nağıl 325
İkinci nağıl 357

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəşad Həmidov*

Korrektor: *Zeynəb Əmirəliyeva*

Yığılmağa verilmişdir 16.05.2004. Çapa imzalanmışdır 09.12.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 26. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 201.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.